RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

100

№ 92 (9259) 5 MAY 2023-cü il CÜMƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

◆ Azərbaycan Prezidenti İlham Əliyevin Laçın, Qubadlı, Zəngilan və Cəbrayıl rayonlarına səfəri

## İşğaldan azad olunmuş ərazilərdə tikinti-quruculuq işləri Prezidentin şəxsi nəzarətindədir



Azərbaycan Prezidenti İlham Əliyev mayın 4-də Laçın, Qubadlı, Zəngilan və Cəbrayıl rayonlarına səfər edib.

Dövlət başçısı Laçın rayonunda Güləbird kənd yaşayış məntəqəsinin, Qubadlı şəhərində ilk yaşayış məhəlləsinin, inzibati binanın, 600 şagird yerlik tam orta məktəbin, 91 çarpayılıq mərkəzi xəstəxananın, Xanlıq, Mahruzlu və Zilanlı kəndlərinin təməllərini qoyub.

Zəngilan şəhərində Konqres Mərkəzinin tikintisi ilə tanış olub, inzibati binanın təməlini qoyub, "Azərenerji" ASC-nin "Sarıqışlaq" Su-Elektrik Stansiyasında tikinti işlərinin gedişi ilə tanış olub, hotel kompleksinin, 91 çarpayılıq Zəngilan Rayon Mərkəzi Xəstəxanasının və Cahangirbəyli kəndinin təməlini qoyub.

Cəbrayıl rayonunda Xudafərin qəsəbəsinin təməlini qoyub, "Azərenerji" ASC-nin "Cəbrayıl" enerji qovşağının açılışında iştirak edib, "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkında "Avto Lizinq Azərbaycan" MMC-nin tikintisi ilə tanış olub, "Holcim Azərbaycan" ASC-nin, "Az-Tex-Import" MMC-nin, "İmprotex Qarabağ Sənaye Kompleksi" MMC-nin, Şükürbəyli kəndinin təməlini qoyub, Cəbrayıl şəhərində akademik Mehdi Mehdizadə adına 960 şagird yerlik orta məktəbin binasında tikinti işlərinin gedişi ilə tanış olub, Horovlu kəndinin təməlini qoyub.

→ 2-7

Heydər Əliyev İli

## Azərbaycanın şərəf tarixini yaradan fenomen



Həqiqətən də, sadəcə, yaşadığı dövrün deyil, özündən sonrakı tarixin də müəllifinə çevrilmiş dünyamiqyaslı siyasətçi, dahi şəxsiyyət, həyat amalı xalqına xidmət olan xilaskar və qurucu müdrik dövlət xadimi, müstəsna dühası və misilsiz fədakarlığı ilə əbədilik qazanan Ümummilli Lider Heydər Əliyevin zaman və məkan anlayışına sığmayan bənzərsiz və mənalı ömür yolunun hər anı, hər səhifəsi bugünkü və gələcək nəsillərə nümunə olacaq canlı və unudulmaz tarixdir.

Zəmanəmizin ən böyük azərbaycanlısının vətəni, milləti qarşısında qurtuluş və inkişaf missiyasının, unikal dövlətçilik fəaliyyətinin nəticəsidir ki, bu gün Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi ölkəmizin hər yerində və onun hüdudlarından kənarda hər bir azərbaycanlının yüksək ehtiramı və dərin minnətdarlıq hissi ilə geniş qeyd olunur.

Sadə, zəhmətkeş bir ailədə dünyaya göz açan bu böyük insan hələ gənc yaşlarından fitri istedadı, bacarığı və ən əsası, xarakterində və fəaliyyətində doğma xalqına, onun milli-mənəvi dəyərlərinə bağlılığı və təəssübkeşliyi, qeyri-adi müsbət cəhətləri ilə diqqət cəlb edir, onu tanıyan hər bir kəsin rəğbətini qazanırdı.

Geniş dünyagörüşü, ali əxlaqi keyfiyyətləri, peşə biliklərini mükəmməl qavraması, təşəbbüskarlığı, mübarizliyi, nümunəvi xidməti və prinsipiallığı ilə 1969-cu il iyulun 14-də ilk dəfə ölkəmizdə hakimiyyət sükanına doğma xalqının taleyinə tam sahib çıxmaq iqtidarında olan qətiyyətli və işgüzar Vətən oğlunun yüksəlməsi Azərbaycanın həyatında həlledici və şərəfli bir mərhələnin başlanğıcını qoymuşdur.

→ 9

## Qafqazın qlobal əməkdaşlıq platforması

İlham Əliyev Şuşadan bir daha dünyaya sülh mesajı verdi



"Mən dəfələrlə bu məsələyə dair fikrimi bildirmişəm. Demişəm ki, əgər Ermənistan sülh istəmirsə, sülh olmayacaq. Tarixdən bilirik ki, sülh sazişini imzalamayan ölkələr də var. Bu, nə Ermənistan, nə də region üçün yaxşı olmayacaq. Əlbəttə ki, Azərbaycan üçün də yaxşı olmayacaq. Buna görə də biz hələ də ümid edirik ki, onlar məntiqli davranacaqlar, sabiq Minsk qrupu fəaliyyətdə olanda işğal zamanı istifadə etdikləri taktikadan istifadə etməyəcəklər".

→ 13

◆ 5 May Əlillərin Hüquqlarının Müdafiəsi Günüdür

## Vətəni qəlbin gözü ilə sevməyi bacaranlar



Əhalinin həssas təbəqəsi olan əlillər birbaşa dövlət nəzarətindədirlər. Onlara olan qayğı və diqqət ilbəil daha da artırılır. Əlillərin məşğulluğunu təmin etmək, normal həyatın fəal iştirakçıları olmaları üçün təxirəsalınmaz tədbirlər görülür. Bu məqsədlə ardıcıl olaraq reabilitasiya və yaradıcılıq mərkəzləri yaradılır. Belə müəssisələrdən biri də Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə sosial cəhətdən həssas qrupların yaradıcı potensialının, istedadlarının, digər bacarıqlarının ortaya çıxarılması və inkişafı, cəmiyyətə təqdim olunması, onların sosial inteqrasiyası məqsədilə yaradılmış, 2021-ci ilin oktyabr ayında açılış mərasimində Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyevanın iştirak etdiyi DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzidir.

→ 14

## Azərbaycanın və Ermənistanın xarici işlər nazirlərinin ABŞ-də keçirilən görüşü başa çatıb

**Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov və Ermənistan Respublikasının xarici işlər naziri Ararat Mirzoyan arasında mayın 1-4-də ABŞ-nin Virciniya ştatının Arlinqton şəhərində danışıqlar aparılıb.**

Bu barədə AZƏRTAC-a XİN-in Mətbuat xidməti idarəsindən məlumat verilib.

Nazirlər Corc Şults adına Milli Xarici Əlaqələr Tədris Mərkəzində qəbul ediliblər. Vaşinqtonda olarkən onlar ABŞ-nin Dövlət katibi Antoni Blinken və prezidentin köməkçisi, milli təhlükəsizlik üzrə müşaviri Ceyk Sallivanla görüşüblər.

Tərəflər hazırkı vəziyyətlə bağlı fikirlərini bölüşüb, münasibətlərin normallaşması ilə bağlı mövcud məsələlərə dair mövqelərini bildiriblər.

Nazirlər və onları müşayiət edən nümayəndə heyətinin üzvləri Sülh və Dövlətlərarası Münasibətlərin Qurulması haqqında İkitərəfli Saziş layihəsinin bəzi maddələri üzrə qarşılıqlı razılıq əldə edib, eyni zamanda bəzi əsas məsələlər üzrə mövqelərin fərqli olaraq qaldığını qəbul ediblər. Hər iki nazir Ermənistan və Azərbaycan arasında danışıqlara evsahibliyi etdiyinə görə ABŞ tərəfinə minnətdarlıqlarını bildiriblər. Tərəflər müzakirələri davam etdirmək barədə razılığa gəliblər.

## Hayastan müharibədən dərs çıxarmalıdır

### Sülh istəməyən haylar bunun ağır nəticələrini də görəcəklər

Vətən müharibəsindən ötən iki ildən çox müddət ərzində Hayastan sülh müqaviləsinin imzalanması istiqamətində heç bir əməli addım atmayıb, əksinə, barışıq prosesinə əngəl olmaq üçün bəzi beynəlxalq havadarlarına güvənərək davamlı olaraq Azərbaycana qarşı hərbi və siyasi təxribatlar törədib. 10 noyabr üçtərəfli Bəyanatı ilə üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməyən və onun müddəalarını kobud şəkildə pozan Hayastan Qarabağda fəaliyyət göstərən qanunsuz erməni hərbi birləşmələrini hələ də ərazilərimizdən çıxarmayıb.

→ 12

## Polislə mitinq iştirakçıları toqquşdu

### Kütləvi etirazlar İrəvanı yenidən xaosa sürükləyir

Kütləvi həbslərə baxmayaraq, aksiyalar fonunda ölkədəki vəziyyət daha da dramatikləşir. Bu məqamda Hayastan mətbuatı və jurnalistlər hakimiyyətin sinfi düşməninə çevrilir. Hayastan Jurnalistlər Birliyinin yaydığı bəyanatda bildirilib ki, jurnalistlər iqtidardakı hakimiyyətin və nəticədə dövlət sisteminin hədəfinə çevrildiyindən bəlkə də ən həssas peşəkar sahədir.

→ 16

**Azərbaycan Prezidenti İlham Əliyevin Laçın, Qubadlı, Zəngilan və Cəbrayıl rayonlarına səfəri**

**LAÇIN-QUBADLI**

# İşğaldan azad olunmuş ərazilərdə tikinti-quruculuq işləri Prezidentin şəxsi nəzarətindədir

## Laçın rayonunun Güləbird kəndinin təməli qoyulub

**Mayın 4-də Laçın rayonunun Güləbird kəndinin təməli qoyulub.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev təməlqoyma mərasimində iştirak edib.

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev Azərbaycan Prezidentinə kənddə görüləcək işlər barədə məlumat verdi.

Bildirildi ki, Güləbird kəndində ümumilikdə 581 ailənin məskunlaşması planlaşdırılıb. Layihələndirilən ərazinin ümumi sahəsi 172 hektardır. Birinci mərhələdə kəndə 150 ailənin köçürülməsi üçün fərdi evlərin inşası planlaşdırılır. Kənddə tikiləcək evlər ikiotaqlı, üçotaqlı, dördotaqlı və beşotaqlı olacaq. İkiotaqlı evlərin sahəsi 70, üçotaqlılar 88, dördotaqlılar 103, ikimərtəbəli olacaq beşotaqlıların sahəsi isə 120 kvadratmetr təşkil edəcək. Burada həmçinin 432 şagird yerlik məktəb, 80 yerlik uşaq bağçası tikiləcək.

Qeyd olundu ki, Güləbird kəndində əhalinin məşğulluğunun təmin edilməsi üçün hər cür şərait yaradılacaq. Kənddə klub icma, ailə sağlamlıq və idman sağlamlıq mərkəzləri və digər zəruri infrastruktur obyektləri inşa olunacaq. Burada istirahət parkı salınacaq, idman və uşaq meydançaları yaradılacaq, ərazidə geniş abadlıq və yaşıllaşdırma işləri görüləcək. Dövlət başçısının tapşırıqlarına uyğun olaraq, bütün işlər ən yüksək səviyyədə yerinə yetiriləcək.

Prezident İlham Əliyev Güləbird kəndinin təməlini qoydu.





## Qubadlı şəhərində ilk yaşayış məhəlləsinin təməli qoyulub

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 4-də Qubadlı şəhərində ilk yaşayış məhəlləsinin təməlinin qoyulması mərasimində iştirak edib.**

AZƏRTAC xəbər verir ki, Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Vahid Hacıyev dövlət başçısına yaşayış məhəlləsi barədə məlumat verdi.

Bildirildi ki, ümumi sahəsi 2,6 hektara yaxın olan yaşayış məhəlləsinin yerləşdiyi ərazi çay və dağ mənzərəsi ilə əhatə olunub. Məhəllə şəhərin təsdiq edilmiş ümumi Baş planına uyğun salınacaq. Bu məhəllədə binaların üçmərtəbəli və dördmərtəbəli olması planlaşdırılır. Ümumilikdə məhəllədə 156 mənzilin tikintisi nəzərdə tutulur. Mənzillərdən 48-nin ikiotaqlı, 68-nin üçotaqlı, 20-sinin dördotaqlı və 20-sinin isə beşotaqlı olması planlaşdırılır. Binaların inşasında müasir memarlıq yanaşmalarından və milli naxış elementlərindən istifadə olunacaq.

Məhəllədə idman meydançalarının, istirahət guşələrinin, velosiped dayanacaqlarının və digər zəruri infrastruktur obyektlərinin yaradılması, geniş yaşıllıq zolaqlarının salınması nəzərdə tutulur. Bütün binalar daimi su, elektrik və yüksəksürətli internet ilə təmin ediləcək. İstilik və isti su təchizatı mərkəzi qazanxana sistemi ilə həyata keçiriləcək. Binaların inşasında istiliktutumlu təbii inşaat materiallarından istifadə olunacaq.

Dövlət başçısı Qubadlı şəhərində ilk yaşayış məhəlləsinin təməlini qoydu.





## Prezident İlham Əliyev Qubadlı şəhərində inzibati binanın təməlinin qoyulması mərasimində iştirak edib



**Mayın 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qubadlı şəhərində tikiləcək inzibati binanın təməlinin qoyulması mərasimində iştirak edib.**

AZƏRTAC xəbər verir ki, dövlət başçısına layihə barədə məlumat verildi.

Bildirildi ki, inzibati bina şəhərin giriş hissəsində, Baş plana əsasən işgüzar zona kimi müəyyən olunmuş bir hektar ərazidə tikiləcək. Binanın konsepsiyasının hazırlanması zamanı milli memarlıq elementləri, yaşıl fasad və dam həlləri, həmçinin günəş panellərinin inteqrasiyası nəzərə alınıb. Üçmərtəbəli binada avtomobillər üçün yeraltı parklanma nəzərdə tutulub. Binanın daxili planlaşdırılması müxtəlif mərtəbələrin vizual şəkildə əlaqələnməsini təmin edir. Bu yanaşma dinamik və müasir tələblərə cavab verən işgüzar mühitin formalaşmasına şərait yaradacaq.

Binanın birinci mərtəbəsi müxtəlif tipli iclas və təlim otaqları, həmçinin çoxfunksiyalı xidmət sahələri üçün nəzərdə tutulub. Burada həmçinin bir sıra dövlət və hökumət qurumlarının yerli idarə, şöbə və bölmələri fəaliyyət göstərəcək. İkinci və üçüncü mərtəbələrdə isə müxtəlif kateqoriyalara uyğun iş sahələrinin yaradılması planlaşdırılıb.

İnzibati binanın inşasında metal konstruksiyalardan istifadə olunacaq. Fasad həlli və yastı dam günəş panellərinin quraşdırılması, həmçinin yaşıl elementlərin orqanik şəkildə inteqrasiya olunmasına imkan verəcək.

Prezident İlham Əliyev inzibati binanın təməlini qoydu.

## Qubadlı şəhərində 600 şagird yerlik məktəb binası tikiləcək

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 4-də Qubadlı şəhərində 600 şagird yerlik tam orta məktəb binasının təməlinin qoyulması mərasimində iştirak edib.**

AZƏRTAC xəbər verir ki, dövlət başçısına məktəb binası ilə bağlı məlumat verildi.

Bildirildi ki, məktəb Qubadlı şəhəri, Dondarlı kəndi və ona bitişik açıq ərazidə inşa olunacaq. Təhsil ocağı və ona məxsus açıq ərazilər yaşayış sahələri ilə əhatə olunacaq. Məktəbin həyətyanı ərazisindəki idman qurğularından və oyun meydançalarından axşamlar və həftəsonları ictimaiyyət nümayəndələri də istifadə edə biləcəklər.

Qeyd edildi ki, məktəb binası modul tipli sinif otaqlarından istifadə olunmaqla layihələndirilib. Təbii işıqla işıqlandırılmış daxili məkanlar məktəbin enerji tələbatını minimuma endirəcək. Binanın strukturu uyğunlaşan sistemdir və şəhərin böyüməsi ilə bağlı şagird sayı artdıqca genişləndirilə bilər.

Dövlət başçısı məktəb binasının təməlini qoydu.





QUBADLI

## Azərbaycan Prezidenti İlham Əliyevin Laçın, Qubadlı, Zəngilan və Cəbrayıl rayonlarına səfəri

# İşğaldan azad olunmuş ərazilərdə tikinti-quruculuq işləri Prezidentin şəxsi nəzarətindədir

## Qubadlı şəhərində 91 çarpayılıq mərkəzi xəstəxana binasının təməlinin qoyulması mərasimi keçirilib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 4-də Qubadlı şəhərində 91 çarpayılıq mərkəzi xəstəxana binasının təməlinin qoyulması mərasimində iştirak edib.**





AZƏRTAC xəbər verir ki, dövlət başçısına xəstəxana binasının layihəsi barədə məlumat verildi.

Bildirildi ki, 4,5 hektardan çox ərazidə inşa olunacaq bu tibb müəssisəsi inzibati binadan, stasionar və ambulator xidmət hissələrindən ibarət olacaq. Stasionar xidmət hissəsində qəbul, terapiya, cərrahiyyə, pediatriya, doğum, ginekologiya, yoluxucu xəstəliklər, anesteziologiya-reanimasiya, hemodializ şöbələri fəaliyyət göstərəcək. Xəstəxananın ambulator xidmət hissəsi isə konsultativ poliklinika, uşaq poliklinikası, şüa-diaqnostika, funksional diaqnostika, fizioterapiya və tibbi bərpa şöbələrindən, klinik diaqnostika laboratoriyasından ibarət olacaq.

Müalicə ocağı ən müasir tələblərə cavab verən tibbi avadanlıq, o cümlədən kompüter tomoqrafiya, maqnit-rezonans tomoqrafiya, angioqrafiya və digər cihazlarla təchiz ediləcək.

Prezident İlham Əliyev xəstəxana binasının təməlini qoydu.

## Qubadlı rayonunun Xanlıq kəndinin təməli qoyulub

**Mayın 4-də Qubadlı rayonunun Xanlıq kəndinin təməli qoyulub**





AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev təməlqoyma mərasimində iştirak edib.

Dövlət başçısına kənddə görüləcək işlər barədə məlumat verildi.

Bildirildi ki, kənd Qubadlı rayonunun mərkəzindən 16 kilometr məsafədə, Həkəri çayının sahilində yerləşir. Yaşayış məntəqəsinin layihələndirilən ərazisi elə Xanlıq kəndinin köhnə ərazisini əhatə edir və ümumi sahəsi 273 hektardan çoxdur.

Qeyd edildi ki, birinci mərhələdə kəndə 1357 nəfərin köçürülməsi üçün 356 fərdi evin tikintisi nəzərdə tutulur. İnşa ediləcək evlər ikiotaqlı, üçotaqlı, dördotaqlı və beşotaqlı olacaq. Perspektivdə Xanlıq kəndində 4 mindən çox sakinin (1024 ailə) məskunlaşdırılması planlaşdırılıb.

Kənddə əhalinin məşğulluğunun təmin edilməsi üçün hər cür şərait yaradılacaq. Həmçinin inzibati bina, məktəb, uşaq bağçası, ailə sağlamlıq, klub icma və idman sağlamlıq mərkəzləri fəaliyyət göstərəcək.

Prezident İlham Əliyev Xanlıq kəndinin təməlini qoydu.

## Qubadlı rayonunda təməli qoyulan növbəti kənd - Mahruzlu

**Mayın 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qubadlı rayonunun Mahruzlu kəndinin təməlinin qoyulması mərasimində iştirak edib.**





AZƏRTAC xəbər verir ki, dövlət başçısına kəndin layihəsi barədə məlumat verildi.

Qeyd olundu ki, kənd Qubadlı rayonunun mərkəzindən 19 kilometr məsafədə yerləşir. Kəndin layihələndirilən ümumi ərazisi 197 hektar təşkil edir. Gələcəkdə bu kənddə 2700-dən çox sakinin, başqa sözlə, 690 ailənin yaşaması planlaşdırılıb. Mahruzlu kənd inzibati ərazi dairəsində yerləşən Alaqurşaq və Muğanlı kəndləri də bu yaşayış məntəqəsinə daxil olmaqla layihələndirilib. Birinci fazada kənddə 145 evin tikilməsi və 649 nəfərin məskunlaşdırılması planlaşdırılır. Kənddə məktəb binası, uşaq bağçası, inzibati bina, klub icma mərkəzi, çoxfunksiyalı bina, bazar kompleksi, idman sağlamlıq mərkəzi, sənətkarlıq emalatxanası, tibb məntəqəsi, mərasim zalı, çayxana da yaradılacaq.

Diqqətə çatdırıldı ki, kənddə əhalinin məşğulluğu üçün hər cür şərait təmin ediləcək.

Sonra kəndin inkişaf planı barədə videoçarx nümayiş olundu.

Prezident İlham Əliyev Mahruzlu kəndinin təməlini qoydu.

## Qubadlı rayonunun Zilanlı kəndində birinci mərhələdə 159 ev tikiləcək

**Mayın 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qubadlı rayonunun Zilanlı kəndinin təməlinin qoyulması mərasimində iştirak edib.**





AZƏRTAC xəbər verir ki, dövlət başçısına kənddə görüləcək işlərlə bağlı məlumat verildi.

Diqqətə çatdırıldı ki, kənd Qubadlı rayonunun mərkəzindən 20 kilometr məsafədə, Həkəri və Bərgüşad çaylarının qovuşduğu ərazidə yerləşir. Zilanlı Zəngilan rayonunun Ağalı kəndi ilə qonşudur. Kəndin layihələndirilən ümumi ərazisi 180 hektardır. Birinci mərhələdə burada 159 evin tikintisi və 772 nəfərin məskunlaşdırılması nəzərdə tutulub. Tikiləcək evlər ikiotaqlı, üçotaqlı, dördotaqlı və beşotaqlı olacaq. Gələcəkdə bu kənddə 2520 nəfərin (630 ailə) yaşaması planlaşdırılıb. Zilanlı kənd inzibati ərazi dairəsində yerləşən Kürd Mahmudlu və Seləli kəndləri də bu yaşayış məntəqəsinə daxil olmaqla layihələndirilib.

Kənddə məktəb binası, uşaq bağçası, ailə sağlamlıq mərkəzi, inzibati bina, klub icma və idman mərkəzləri yaradılacaq. Ümumiyyətlə, bu yaşayış məntəqəsində əhalinin məşğulluğunun təmin edilməsi də diqqət mərkəzində olacaq.

Dövlət başçısı kəndin inkişaf planı barədə videoçarxa baxdı.

Sonra Prezident İlham Əliyev Zilanlı kəndinin təməlini qoydu.

**Azərbaycan Prezidenti İlham Əliyevin Laçın, Qubadlı, Zəngilan və Cəbrayıl rayonlarına səfəri**

**ZƏNGİLAN**

# İşğaldan azad olunmuş ərazilərdə tikinti-quruculuq işləri Prezidentin şəxsi nəzarətindədir

## Prezident İlham Əliyev Zəngilan Konqres Mərkəzinin tikintisi ilə tanış olub



**Mayın 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Zəngilan Konqres Mərkəzinin tikintisi ilə tanış olub.**

AZƏRTAC xəbər verir ki, Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Vahid Hacıyev dövlət başçısına görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, Konqres Mərkəzinin layihələndirilən ərazisi 2,2 hektardır. Burada mərkəzin binası ilə yanaşı, restoran, pavilyon da inşa olunur. Konqres Mərkəzi 605 yerlikdir. Buradakı restoranın isə 240 yerlik olması nəzərdə tutulub.

Bu ərazidə müvafiq yaşıllıq zonaları salınacaq, avtomobillər üçün yerüstü parklanma sahəsi yaradılacaq.

Ekoloji memarlıq konsepsiyasına əsasən, mərkəzin damı yaşıllıq zolağı və günəş panelləri ilə əhatə olunacaq. Konqres Mərkəzində beynəlxalq və ölkə səviyyəli müxtəlif tədbirlər keçiriləcək.

## Prezident İlham Əliyev Zəngilan şəhərində inzibati binanın təməlinin qoyulması mərasimində iştirak edib

**Mayın 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Zəngilan şəhərində inzibati binanın təməlinin qoyulması mərasimində iştirak edib.**





AZƏRTAC xəbər verir ki, dövlət başçısına layihə barədə məlumat verildi.

Bildirildi ki, inzibati bina Zəngilan şəhərinin mərkəzində, əsas küçələrin kəsişməsində yerləşir. Bu ərazi əsas ictimai obyektlərə, təhsil müəssisələrinə, peşə məktəbinə, memorial parka və məscidə yaxındır.

Qeyd olundu ki, üçmərtəbəli bina quruluşuna görə şəhərin müxtəlif yerlərindən görünə biləcək. İnzibati binanın daxili atrium quruluşda layihələndirilib. Binanın ardıcıl quruluşu isə iki hissəni birləşdirir. İnzibati binanın külək turbinləri şəklində olan fasad strukturu damın kənarı boyunca düzülüb. Dam örtüyü günəş panelləri ilə əhatə olunur. Damın quruluşu binanın daxilinin təbii işıqlanmasına imkan verir və böyük tədbirlərin keçirilməsi üçün əlavə yer imkanı yaradır.

Bir sıra dövlət və hökumət qurumlarının yerli idarə, şöbə və bölmələrinin fəaliyyət göstərəcəyi binada müxtəlif tipli iclas və təlim otaqları, həmçinin çoxfunksiyalı xidmət sahələri yaradılacaq. İnzibati binanın ətrafında müxtəlif istirahət məkanları və iaşə obyektləri fəaliyyət göstərəcək.

Layihə ilə tanışlıqdan sonra Prezident İlham Əliyev inzibati binanın təməlini qoydu.

## "Azərenerji" ASC-nin Zəngilanda "Sarıqışlaq" Su-Elektrik Stansiyasında tikinti işlərinin gedişi ilə tanışlıq

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 4-də "Azərenerji" ASC-nin Zəngilan rayonunda "Sarıqışlaq" Su-Elektrik Stansiyasında tikinti işlərinin gedişi ilə tanış olub.**








AZƏRTAC xəbər verir ki, "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin prezidenti Baba Rzayev dövlət başçısına stansiyada görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, Araz çayının sol qolu olan Oxçuçayın üzərində yerləşən stansiyanın qoyuluş gücü 10,5 meqavatdır. Su-elektrik stansiyasında orta illik elektrik enerjisi istehsalı 26,7 milyon kilovat-saat nəzərdə tutulur.

Qeyd olundu ki, yeni stansiya binasının tikintisi, perimetr boyu hasarlama işləri yekunlaşıb. Maşın zalı, aqreqatlar, generatorlar, idarəetmə panelləri, rele mühafizəsi, avtomatika və idarəetmə panellərində məsafədən idarəetmə kompüterlərinin quraşdırılması üzrə işlər icra edilir. Həmçinin "Şayıflı" Kiçik Su-Elektrik Stansiyasından çıxan suyun "Sarıqışlaq" SES-ə ötürülməsi məqsədilə nəzərdə tutulmuş derivasiya borusunun çəkilməsi üzrə işlər davam edir. Derivasiya tipli su-elektrik stansiyasının suqəbuledicisi ilə stansiyaarası məsafə 5239 metrdir. "Sarıqışlaq" SES-in turbinlərindən keçən suyun heç bir itki olmadan "Zəngilan" KSES-ə ötürülməsi istiqamətində işlər davam etdirilir.

Bu stansiyada 110 kilovoltluq açıq paylayıcı qurğunun tikintisi, istehsal olunacaq elektrik enerjisinin enerjisistemə inteqrasiyası və stansiyada avtomatik idarəetmə sisteminin qurulması da nəzərdə tutulub. "Yaşıl enerji" zonası konsepsiyasına uyğun olaraq, ekoloji cəhətdən təmiz enerji istehsal edəcək "Sarıqışlaq" SES-də il ərzində 33,2 milyon kilovat-saat elektrik enerjisi istehsal olunacaq.

Dövlət başçısına Zəngilan, Laçın və Kəlbəcər rayonlarında tikilən su-elektrik stansiyaları barədə də məlumat verildi.

Bildirildi ki, hazırda "Azərenerji" tərəfindən Zəngilan və Laçın rayonlarında 7 yerdə ümumi gücü 70,5 meqavat olan su-elektrik stansiyalarının tikintisi aparılır. Oxçuçayın üzərində yerləşən və Zəngilan rayonunun ərazisində yaradılan "Şayıflı", "Sarıqışlaq", "Zəngilan" və "Cahangirbəyli" su-elektrik stansiyaları yeni tikilir və həmin stansiyaların hər birinin gücü 10,5 meqavat olmaqla, ümumilikdə 42 meqavat təşkil edəcək. Laçın rayonundakı 14,25 meqavat gücündə "Ağbulaq", 8,25 meqavat gücündə "Mişni" və 6 meqavat gücündə "Alxaslı" stansiyaları isə yenidən qurulur.

"Yaşıl enerji" zonası konsepsiyasına uyğun olaraq, ekoloji cəhətdən təmiz enerji istehsal edəcək bu stansiyaların hər biri rəqəmsal qaydada açılıb-qoşulma, intellektual idarəetmə, operativ monitorinq və təhlil aparılması mümkün olmaqla yanaşı, stansiyalara Bakıdan və digər yerlərdən nəzarət etmək əlçatan olacaq. Su-elektrik stansiyalarında il ərzində ümumilikdə 230 milyon kilovat-saat ekoloji cəhətdən təmiz yaşıl hidroenerjinin istehsalı nəzərdə tutulub.

Həmçinin diqqətə çatdırıldı ki, hazırda Laçın və Kəlbəcər rayonlarında daha 9 yerdə ümumi gücü 76,8 meqavat olan su-elektrik stansiyalarının tikintisinə başlanılır. Laçın rayonu ərazisində "Mirik", "Qaraqışlaq", "Ağbulaq", "Zabux" və Kəlbəcərdəki "Zar" su-elektrik stansiyaları tamamilə yenidən qurulacaq. Eyni zamanda Kəlbəcər rayonu ərazisində "Nadirxanlı", "Yuxarı Vəng", "Aşağı Vəng" və işğaldan azad edilən Murov dağın aşağı istiqamətində "Toğanalı" Kiçik Su-Elektrik stansiyaları yeni layihə əsasında tikiləcək.

Qeyd edək ki, bu günədək "Azərenerji" tərəfindən 11 yerdə ümumi gücü 53,6 meqavat olan kiçik su-elektrik stansiyaları yenidən qurulub. Onlardan ümumi gücü 27 meqavat olan 5 stansiya Kəlbəcər rayonunda açılışa hazır vəziyyətə gətirilib.

Beləliklə, böyük zəfərdən sonra işğaldan azad edilən ərazilərdə tikilən su-elektrik stansiyalarının ümumi sayı 25-ə çatdırılacaq və 200 meqavata yaxın ekoloji cəhətdən təmiz, hidro "yaşıl enerji" istehsal etmək mümkün olacaq.

ZƏNGİLAN

## Azərbaycan Prezidenti İlham Əliyevin Laçın, Qubadlı, Zəngilan və Cəbrayıl rayonlarına səfəri

# İşğaldan azad olunmuş ərazilərdə tikinti-quruculuq işləri Prezidentin şəxsi nəzarətindədir

## Zəngilanda hotel kompleksinin təməli qoyulub

**Mayın 4-də Zəngilanda hotel kompleksinin təməlqoyma mərasimi olub.**



AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Azərbaycan Respublikası Prezidentinin İşlər müdiri Ramin Quluzadə dövlət başçısına kompleksin layihəsi barədə məlumat verdi.

Bildirildi ki, Zəngilanın bərpası konsepsiyasında şəhərin turizm potensialı da nəzərə alınaraq ona uyğun infrastruktur yaradılır. Hotel müasir səviyyədə inşa olunacaq, rayona səfərə gələnlərin rahatlığı üçün burada hər cür şərait yaradılacaq.

Diqqətə çatdırıldı ki, 110 nömrədən ibarət olacaq hotel binasında konfrans, iclas və banket zalları, fitnes və SPA mərkəzləri, qapalı və açıq hovuzlar, restoran və uşaq əyləncə mərkəzləri yaradılacaq. Hotel kompleksinin ərazisində həmçinin 15 kottec də qonaqların istifadəsinə veriləcək.

Bir sözlə, müxtəlif çeşidli yüksək xidmətlərin göstəriləcəyi hotel kompleksi müasir standartlar səviyyəsində inşa olunacaq.

Sonra Prezident İlham Əliyev hotel kompleksinin təməlini qoydu.



## Təməli qoyulan Zəngilan Rayon Mərkəzi Xəstəxanası ən müasir tibbi avadanlıqla təchiz olunacaq



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 4-də Zəngilan Rayon Mərkəzi Xəstəxanasının təməlinin qoyulması mərasimində iştirak edib.**



AZƏRTAC xəbər verir ki, dövlət başçısına xəstəxana binasının layihəsi barədə məlumat verildi.

Bildirildi ki, Baş plana əsasən, yeni xəstəxananın ümumi ərazisi 4,5 hektardır. 91 çarpayılıq xəstəxananın ərazisində yoluxucu xəstəliklər şöbəsi və bir sıra texniki təyinatlı binalar olacaq. Ən müasir tibbi avadanlıqla təchiz ediləcək xəstəxanada müayinə və müalicə işinin aparılması üçün hər cür şərait yaradılacaq. Beləliklə, doğma yurdlarına qayıdacaq rayon sakinləri bu səhiyyə ocağının istifadəyə verilməsi ilə hərtərəfli tibbi xidmətlə əhatə olunacaqlar.

Prezident İlham Əliyev Zəngilan Rayon Mərkəzi Xəstəxanasının təməlini qoydu.

Qeyd edək ki, əhalinin sağlamlığının qorunması və vətəndaşlara keyfiyyətli tibbi xidmətin göstərilməsi dövlət başçısının daim diqqət mərkəzindədir. Bu baxımdan işğaldan azad edilən ərazilərdə də tibbi xidmətin səmərəli təşkili və həyata keçirilməsi üçün genişmiqyaslı işlər görülür.

## Zəngilanın Cahangirbəyli kəndində birinci mərhələdə 1200 nəfərin məskunlaşdırılması nəzərdə tutulur







**Mayın 4-də Zəngilan rayonunun Cahangirbəyli kəndinin təməlqoyma mərasimi olub.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Əvvəlcə kəndin inkişaf planı barədə videoçarx nümayiş olundu.

Dövlət başçısına kənddə görüləcək işlərlə bağlı məlumat verildi.

Bildirildi ki, kəndin layihələndirilən ərazisi 179,5 hektardır. Kənd perspektivdə 2520 nəfər əhalinin (573 ailə) yaşaması üçün planlaşdırılıb. Cahangirbəyli kəndində birinci mərhələdə iki, üç, dörd və beşotaqlı olmaqla ümumilikdə 242 fərdi evin tikintisi nəzərdə tutulur. Qeyd edildi ki, birinci mərhələdə burada 1200 nəfərin məskunlaşdırılması planlaşdırılır. Cahangirbəylidə fərdi evlərlə bərabər, bloklaşdırılmış üçmərtəbəli binaların inşası da nəzərdə tutulur.

Kənddə məktəb binası, uşaq bağçası, inzibati bina, klub icma mərkəzi və qonaq evi, çoxfunksiyalı bina, bazar kompleksi, idman sağlamlıq mərkəzi, sənətkarlıq emalatxanası, tibb məntəqəsi, mərasim zalı, iaşə obyektləri və digər müəssisələr olacaq.

Prezident İlham Əliyev Cahangirbəyli kəndinin təməlini qoydu.

**Azərbaycan Prezidenti İlham Əliyevin Laçın, Qubadlı, Zəngilan və Cəbrayıl rayonlarına səfəri**

**CƏBRAYIL**

# İşğaldan azad olunmuş ərazilərdə tikinti-quruculuq işləri Prezidentin şəxsi nəzarətindədir

## Cəbrayıl rayonunda Xudafərin qəsəbəsinin təməli qoyulub

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 4-də Cəbrayıl rayonunda Xudafərin qəsəbəsinin təməlinin qoyulması tədbirində iştirak edib.**

AZƏRTAC xəbər verir ki, Şərqi Zəngəzur İqtisadi Rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Vahid Hacıyev dövlət başçısına qəsəbədə görüləcək işlər barədə məlumat verdi.

Qeyd edildi ki, qəsəbə Azərbaycan xalqı üçün tarixi əhəmiyyət daşıyan Xudafərin körpüsünün yaxınlığında, yeni dəmir yolu xəttindən və avtomobil yolundan 7 kilometr məsafədə salınır. Qəsəbənin layihələndirilən ümumi ərazisi 25 hektardır. Baş plana əsasən, gələcəkdə burada





149 ev tikiləcək. Qəsəbədə birinci mərhələdə 20 evin inşası nəzərdə tutulur. Burada iki, üç, dörd və beşotaqlı fərdi evlər tikiləcək. Hər evin həyətyanı sahəsi 600 kvadratmetr təşkil edəcək. Qəsəbəyə birinci növbədə 77 sakin köçürüləcək.

Xudafərin qəsəbəsində məktəb, uşaq bağçası, inzibati bina, məscid, bazar, çoxfunksiyalı bina (ticarət müəssisələri, tikinti materiallarının satış zonası, ictimai qida müəssisələri və s.), mədəniyyət evi, "Karvansaray" hotel və icma evi də yaradılacaq. Bundan başqa, Araz çayının sahilində və Xudafərin körpüsünün yaxınlığında parkın salınması da nəzərdə tutulub.

Dövlət başçısı qəsəbənin inkişaf planı barədə videoçarxa baxdı.

Sonra Prezident İlham Əliyev Xudafərin qəsəbəsinin təməlini qoydu.

## President İlham Əliyev "Araz Vadisi İqtisadi Zonası"nda görülən işlərlə tanış olub, bir neçə müəssisənin təməlini qoyub







**Mayın 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Cəbrayıl rayonunda "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkında "Avto Lizinq Azərbaycan" MMC-nin tikintisi ilə tanış olub, "Holcim Azərbaycan" ASC-nin, "Az-Tex-Import" MMC-nin, "Improtex Qarabağ Sənaye Kompleksi" MMC-nin müəssisələrinin təməllərini qoyub.**

AZƏRTAC xəbər verir ki, iqtisadiyyat naziri Mikayıl Cabbarov dövlət başçısına sənaye parkında görülən işlər barədə məlumat verdi.

Qeyd edək ki, Vətən müharibəsində Azərbaycanın qazandığı böyük zəfərlə ərazi bütövlüyümüzün bərpa olunması, işğaldan azad edilmiş torpaqlarımızın ölkə iqtisadiyyatına reinteqrasiyası, regionda mövcud yeni reallıqlar və əməkdaşlıq imkanları, beynəlxalq və regional nəqliyyat-logistika dəhlizlərinin kəsişməsində yerləşən Azərbaycanın sürətli inkişafı üçün əlavə stimul yaradır. İqtisadi resursları, təbii ehtiyatları, enerji mənbələri, yeraltı metal filizi yataqları, termal suları, tikinti materialları üçün xammal bazası, nəqliyyat-tranzit, turizm imkanları və s. azad edilmiş ərazilərimizə investor marağını da artırır.

Şərqi Zəngəzur iqtisadi rayonunun Arazboyu ərazisinin əsasən düzənlik relyefə və bölgənin cənub istiqamətində giriş qapısı mövqeyinə malik olması "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkının fəaliyyəti üçün əlverişli şəraiti təmin edir. Logistik imkanlar baxımından əlverişli ərazidə təşkil olunması investorların diqqətini cəlb edən əsas məqamlardan biridir. Belə ki, Sənaye Parkı yeni salınan magistral avtomobil yolu və dəmir yollarının üzərində yerləşir ki, bu da ərazidən həmin magistral yollara birbaşa giriş-çıxışı təmin edəcək. Bu avtomobil və dəmir yolları Zəngəzur dəhlizi vasitəsilə Azərbaycandan Türkiyəyə və Türkiyədən Azərbaycana, eləcə də Azərbaycan ərazisindən Rusiyaya yüklərin daşınması üçün yeni əlverişli imkanlar yaradacaq.

"Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkına sahibkarlar tərəfindən böyük maraq göstərilir. Artıq 5 sahibkarlıq subyekti parkın rezidenti kimi, 1 sahibkarlıq subyekti isə qeyri-rezident kimi qeydiyyata alınıb. Bu layihələrin reallaşması nəticəsində ümumilikdə Sənaye Parkına 32,7 milyon manat investisiya yatırılacaq, 420-dən çox daimi iş yeri yaradılacaq.

Bildirildi ki, bu Sənaye Parkı 200 hektar ərazini əhatə edir. Sənaye Parkının prioritet istiqamətləri kimi, logistika və ticarət mərkəzi, anbar kompleksləri, topdan və pərakəndə satış obyektləri, TIR parkı, gömrük, yanacaqdoldurma, avtomobil və digər texnikaların təmiri məntəqələrinin və s. təşkili müəyyənləşdirilib. Sənaye Parkında quruculuq işləri mərhələli şəkildə həyata keçirilir. Parkın ərazisi tam olaraq minalardan və hərbi sursatlardan təmizlənib. Sənaye Parkında fəaliyyət göstərəcək işçilərin və sahibkarların rahatlığının təmin edilməsi məqsədilə mobil şəhərcik salınıb. Şəhərcikdə yataqxana, yeməkxana, ofis, tibb məntəqəsi və aptek, market, qarışıq mallar mağazası, anbar, camaşırxana, bərbərxana, nəzarət buraxılış məntəqəsi quraşdırılıb, əraziyə asfalt yol çəkilib, abadlıq işləri görülüb. Sənaye Parkının ərazisində tikinti aparılacaq sahənin su ilə təmin edilməsi məqsədilə subartezian quyusu qazılıb. Ərazidə 630 kilovoltluq transformator məntəqəsi quraşdırılıb. Parkın işıqlandırılmasında günəş enerjisindən qidalanan panellərdən istifadə edilir. Sənaye Parkının ərazisində topoqrafik və mühəndis-geoloji tədqiqat işləri tam olaraq yekunlaşdırılıb. Hazırda parkda inzibati binanın tikintisi işləri, rezidentlər üçün infrastruktur sisteminin qurulması, əraziyə dəmir yolu xəttinin çəkilməsi üçün layihələndirmə istiqamətində işlər davam etdirilir.



"Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkında ölkədə mövcud digər sənaye parklarında olduğu kimi, sahibkarlar üçün əlverişli investisiya mühiti formalaşdırılır. Belə ki, Sənaye Parkının rezidentləri dövlət vəsaiti hesabına hazır infrastrukturla (qaz, işıq, su, kanalizasiya, daxili avtomobil və dəmir yolları, fiber-optik və s.) təmin edilir. Eyni zamanda qeydiyyata alındıqları tarixdən etibarən 10 il müddətinə əmlak vergisindən, torpaq vergisindən, gəlir və ya mənfəət vergisindən, istehsal məqsədilə idxal etdikləri texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı zamanı əlavə dəyər vergisindən və gömrük rüsumlarından azad olunurlar. Bunlarla yanaşı, İqtisadi Zonaların İnkişafı Agentliyi tərəfindən rezidentlərə hər cür təşkilati dəstək tədbirləri göstərilir. Həmçinin bu il yanvarın 1-dən etibarən Vergi Məcəlləsinə edilən dəyişikliyə əsasən, işğaldan azad olunmuş ərazilərdə fəaliyyət göstərəcək sahibkarlar üçün əlavə güzəştlər tətbiq edilir. Buraya sosial sığorta haqlarının subsidiyalaşdırılması, işğaldan azad edilmiş ərazilərdə məskunlaşaraq işləyən mütəxəssislərə güzəştlər də daxildir.

Prezident İlham Əliyev Sənaye Parkında "Avto Lizinq Azərbaycan" MMC-nin tikintisi ilə tanış oldu.

Məlumat verildi ki, Rusiya və Azərbaycan birgə müəssisəsi olan "Avto Lizinq Azərbaycan" MMC tərəfindən Sənaye Parkının 3 hektar ərazisində yük avtomobilləri və kənd təsərrüfatı texnikalarına texniki servis xidmətlərinin göstərilməsi mərkəzi yaradılacaq. Sənaye Parkının ilk rezidenti kimi qeydiyyatdan keçən və 2021-ci il oktyabrın 5-də təməli qoyulan "Avto Lizinq Azərbaycan" MMC-nin texniki servis mərkəzinin tikintisi işləri uğurla davam etdirilir. Ümumi investisiya həcmi 10,2 milyon manat olan müəssisənin inşasına artıq 5,6 milyon manatdan çox investisiya yatırılıb. Müəssisənin fəaliyyətə başlaması ilə 65 nəfər daimi işlə təmin ediləcək. Texniki servis mərkəzinin 2023-cü ildə fəaliyyətə başlaması nəzərdə tutulur.

❖ ❖ ❖

Sənaye Parkının 5 hektar ərazisində "Holcim Azərbaycan" ASC tərəfindən müasir texnologiyalar əsasında əmtəə beton və quru yapışdırıcı istehsalı üzrə zavod inşa olunacaq. Bununla bərabər, sement satışı üçün terminal da qurulacaq. Ümumi investisiya dəyəri 3,74 milyon manat olan müəssisədə Avropanın qabaqcıl texnologiyalarından istifadə ediləcək. Layihənin həyata keçirilməsi ilə 25 nəfər daimi işlə təmin olunacaq. Zavodda istehsal olunacaq məhsullar regionda dayanıqlı tikintinin həyata keçirilməsinə töhfə verəcək, məhsulların daşınması prosesinin optimallaşdırılması ətraf mühitin qorunmasına xidmət edəcək.

Prezident İlham Əliyev dedi: "Mən həmişə deyirəm, çalışmaq lazımdır ki, burada daha çox yerli insanlar işə cəlb edilsinlər. Mənim nümayəndəmlə, nazirliklə də sıx təmasda olmaq lazımdır. Birinci mərhələdə təbii ki, sizin təcrübə toplamış işçilər çalışacaq, amma bir neçə ildən sonra onları yetişdirilmiş sırf yerli kadrlar əvəz etməlidir.

"Holcim"in buraya gəlməsinin tarixçəsini mən yaxşı bilirəm. Yadımdadır, Davosda "Holcim"in ovaxtkı rəhbəri mənə yaxınlaşaraq belə bir təklif irəli sürdü. Mən də dərhal razılıq verdim və qısa müddət ərzində o zavod inşa edildi. Ondan sonra Azərbaycanda sement istehsalına maraq artdı. O vaxta qədər biz sementi idxal edirdik. İndi rəqabət də var, o da çox yaxşıdır. Amma "Holcim" hər halda öz keyfiyyət markasını saxlayır".

Dövlət başçısı zavodun təməlini qoydu.

❖ ❖ ❖

Prezident İlham Əliyevə məlumat verildi ki, "Az-Tex-Import" MMC tərəfindən Sənaye Parkının 2 hektar ərazisində investisiya həcmi 3,8 milyon manatdan çox olan yük avtomobillərinə texniki servis xidmətlərinin göstərilməsi layihəsi həyata keçiriləcək. Layihə çərçivəsində yük avtomobillərinə texniki servis xidmətlərinin göstərilməsi və daha sonrakı mərhələdə 5 tona qədər yüngültonnajlı yük avtomobillərinin yığımı nəzərdə tutulur. İtaliya texnologiyasından istifadə ediləcək müəssisədə istehsal olunan məhsullar daxili bazarın tələbatının ödənilməsinə yönəldiləcək. Müəssisədə 25 nəfər işlə təmin ediləcək.

Prezident İlham Əliyev müəssisənin təməlini qoydu.

Qeyd edək ki, "Az-Tex-Import" MMC tərəfindən Sumqayıt Kimya Sənaye Parkının 4 hektar ərazisində İtaliyanın qabaqcıl texnologiyalarının tətbiqi ilə "IVECO" markalı yüngül, orta və ağırtonnajlı yük və xüsusi təyinatlı avtomobillərin istehsalı layihəsi də həyata keçirilir. Həmin müəssisənin təməli 2022-ci il iyulun 20-də dövlət başçısının iştirakı ilə qoyulub. Hazırda müəssisədə tikinti işləri davam etdirilir. İşlərin 2024-cü ilin birinci yarısında yekunlaşdırılması nəzərdə tutulur. İnvestisiya dəyəri 19,2 milyon manat olan müəssisədə 90 nəfər daimi işlə təmin ediləcək.

❖ ❖ ❖

"İmprotex Qarabağ Sənaye Kompleksi" MMC tərəfindən "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkında 5 hektar ərazidə investisiya həcmi 7,4 milyon manat olan layihə çərçivəsində mərhələli şəkildə xüsusi təyinatlı texnika və metal məmulatların istehsalı nəzərdə tutulur. Müəssisədə ildə 100 ədəd mexaniki minatəmizləyən, 100 ədəd yanğınsöndürən və 300 ədəd tentli yarımqoşqu istehsal olunacaq. İstehsal edilən məhsulların daxili bazara satılması ilə yanaşı, Xəzəryanı və Şərqi Avropa ölkələrinə ixracı da planlaşdırılır. Layihənin həyata keçirilməsi ilə 120-dən çox iş yeri yaradılacaq.

Azərbaycan Prezidenti müəssisənin təməlini qoydu.

RƏSMİ DÖVLƏT QƏZETİ AZƏRBAYCAN







# İşğaldan azad olunmuş ərazilərdə tikinti-quruculuq işləri Prezidentin şəxsi nəzarətindədir

## Prezident İlham Əliyev 330 kV-luq "Cəbrayıl" qovşaq yarımstansiyasının açılışını edib

**Mayın 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 330 kV-luq "Cəbrayıl" qovşaq yarımstansiyasının açılışını edib.**





AZƏRTAC xəbər verir ki, dövlət başçısına görülən işlər barədə məlumat verildi.

Qeyd edək ki, ötən il mayın 26-da Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə Azərbaycan-Türkiyə-Avropa Enerji Dəhlizi Layihəsi çərçivəsində təməli qoyulan 330/110 kV-luq "Cəbrayıl" qovşaq yarımstansiyası və ikidövrəli olmaqla 132 kilometr məsafədə 330 kV-luq "Ağcabədi-Cəbrayıl" ötürmə xətti "Azərenerji" tərəfindən rekord müddətdə - bir ildə tikilib və 330 kV-luq "Ağcabədi" yarımstansiyası müasir texnologiyalar əsasında tam yenidən qurulub.

Ən əsası bu müddətdə işğaldan azad edilən rayonlarda 11 yerdə tikilən 110 kilovoltluq yarımstansiyaları selektiv paylama ilə qidalandırıb, dairəvi elektrik təchizatına nail olmaq üçün 330 kilovoltluq "Cəbrayıl" qovşaq yarımstansiyası ilə 110 kilovoltluq "Qubadlı" yarımstansiyası arasında ötürmə xətti çəkilib. Bu layihənin bir neçə mühüm əhəmiyyəti var. Belə ki, Qarabağ və Şərqi Zəngəzur regionlarını yeni mənbə olaraq qidalandırıb dairəvi elektrik təchizatını təmin etmək, bu bölgələrin dayanıqlı və fasiləsiz elektrik təchizatına nail olmaq, yaradılan meqalayihələrin tələbatını qarşılamaq, BP Günəş və digər bərpaolunan enerji mənbələrində, həmçinin "Xudafərin" və "Qız qalası" elektrik stansiyalarında, o cümlədən işğaldan azad edilən ərazilərdə "Azərenerji" tərəfindən tikilən 25 su-elektrik stansiyasında istehsal olunan enerjini ümumi sistemə ötürmək üçün "Cəbrayıl" enerji qovşağının istismara verilməsi olduqca əhəmiyyətli hadisədir.

Digər tərəfdən, perspektivdə Naxçıvan Muxtar Respublikasını Azərbaycanın ümumi enerji sisteminə qoşmaq, həmçinin Cəbrayıl-Naxçıvan-Türkiyə, oradan isə qardaş ölkənin enerji sistemi vasitəsilə Avropa enerji bazarlarına əlavə və daha əlverişli çıxış əldə edib ixrac imkanlarını artırmaq üçün "Cəbrayıl" qovşaq yarımstansiyasının işə düşməsi xüsusi önəm daşıyır.

Dövlət başçısı "Cəbrayıl" qovşaq yarımstansiyasını işə saldı.

Bildirildi ki, üçmərhələli ölkələrarası enerji layihəsini həyata keçirmək üçün "Cəbrayıl" enerji qovşağında tikilən 330 və 110 kV-luq açıq paylayıcı qurğularda əlavə ehtiyat yuvalar yaradılıb. Eyni zamanda burada avtomatik açılıb-qoşulma, intellektual idarəetmə, operativ monitorinq və digər proseslər üçün Rəqəmsal İdarəetmə Mərkəzi tikilib.

"Cəbrayıl" enerji qovşağının ətrafında Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi ilə əlaqədar irimiqyaslı ağacəkmə və bağsalma aksiyası keçirilib.

Qeyd edək ki, işğaldan azad edilən ərazilərdə "Azərenerji" tərəfindən bu günədək 37 enerji obyekti - 12 yarımstansiya, 25 su-elektrik stansiyası tikilib və tikilməkdədir. Bu enerji obyektlərində indiyədək 170 nəfər yerli sakin məskunlaşma siyasətinə uyğun olaraq daimi işlə təmin edilib.

## Cəbrayılın Şükürbəyli kəndinin təməli qoyulub

**Mayın 4-də Cəbrayıl rayonunun Şükürbəyli kəndinin təməli qoyulub.**





AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Dövlət başçısına kənddə görüləcək işlər barədə məlumat verildi.

Bildirildi ki, Şükürbəyli kəndində 1042 ailənin məskunlaşması planlaşdırılıb. Layihələndirilən ümumi ərazi 298 hektardır. Burada məskunlaşacaq əhalinin yaşayış yükünü nəzərə alaraq, məhəllələrin salınmasının birinci mərhələsi üçün 184 hektar torpaq sahəsi ayrılıb. Bu mərhələdə kənddə 635 fərdi evin tikilməsi nəzərdə tutulur.

Baş plana əsasən, bu kənd ərazi vahidinə görə bir-birinə yaxın olan Dəjəl, Şıxəliağalı kəndləri və Mahmudlu qəsəbəsi ilə birlikdə layihələndirilib.

Kənddə məktəb binası, uşaq bağçası, inzibati bina, klub icma mərkəzi və çoxfunksiyalı bina, ticarət mərkəzi, bazar, idman sağlamlıq mərkəzi, tibb məntəqəsi, mərasim zalı, məscid, qonaq evinin inşası planlaşdırılıb. Burada da sakinlərin məşğulluğunun təminatı ilə bağlı bütün zəruri tədbirlər görüləcək.

## Cəbrayıl şəhərində 960 şagird yerlik məktəb binasının tikintisi sürətlə davam edir

**Mayın 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Cəbrayıl şəhərində inşa edilən akademik Mehdi Mehdizadə adına tam orta məktəbin binasında aparılan tikinti işlərinin gedişi ilə tanış olub.**





AZƏRTAC xəbər verir ki, dövlət başçısına məktəb binasında görülən işlərlə bağlı məlumat verildi.

Bildirildi ki, 960 yerlik yeni məktəb binasının inşasına 2021-ci ilin oktyabrında başlanılıb. Burada şagirdlərin təhsili, təlim-tərbiyəsi ilə yüksək səviyyədə məşğul olmaq üçün hərtərəfli şərait yaradılacaq.

Məktəbin həyətində geniş idman meydançası yaradılacaq ki, bu da sağlam gənc nəslin yetişməsi üçün vacib amillərdəndir.

Bir sözlə, doğma torpaqlarına geri dönən cəbrayıllı şagirdlər 145 yaşlı orta ümumtəhsil müəssisəsinin ən müasir tələblərə cavab verən yeni binasında təhsil alacaqlar.

## Cəbrayılın Horovlu kəndinin təməli qoyulub

**Mayın 4-də Cəbrayıl rayonunun Horovlu kəndinin təməli qoyulub.**







AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev təməlqoyma mərasimində iştirak edib.

Əvvəlcə kənddə görüləcək işlər və yaradılacaq şərait barədə videoçarx nümayiş olundu.

Dövlət başçısına kənddə görüləcək işlər barədə məlumat verildi.

Bildirildi ki, layihələndirilən ümumi ərazi 248,1 hektardır. Perspektivdə bu kənddə 3470 nəfərin (867 ailə) yaşaması nəzərdə tutulub. Baş plana əsasən, köhnə Horovlunun ərazisini əhatə edən bu kənd ərazi vahidinə görə bir-birinə yaxın olan Çapand, Safarşa, Fuğanlı və Həsənqaydı kəndləri ilə birlikdə layihələndirilib.

Qeyd olundu ki, birinci mərhələdə Horovluya 1395 nəfərin köçürülməsi üçün 334 fərdi ev tikiləcək. İnşa ediləcək evlər iki, üç, dörd və beşotaqlı olacaq.

Kənddə məktəb binası, uşaq bağçası, inzibati bina, klub icma mərkəzi və çoxfunksiyalı bina, bazar kompleksi, idman sağlamlıq mərkəzi, tibb məntəqəsi, mərasim zalı, qonaq evinin tikintisi planlaşdırılıb. Əhalinin məşğulluğunun təmin edilməsi üçün zəruri tədbirlər də görüləcək.

Diqqətə çatdırıldı ki, kəndin dayanıqlı su təchizatını təmin etmək məqsədilə burada əvvəllər mövcud olmuş kəhrizlərin bərpası üçün layihə də həyata keçirilir.

Prezident İlham Əliyev Horovlu kəndinin təməlini qoydu.

# Milli Məclisin Sədri Sahibə Qafarova Birləşmiş Krallığa işgüzar səfərə gedib



**Milli Məclisin Sədri Sahibə Qafarova Böyük Britaniya və Şimali İrlandiya kralı III Çarlzın tacqoyma mərasimində iştirak etmək məqsədilə mayın 4-də bu ölkəyə işgüzar səfərə gedib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Londonun "Luton" Beynəlxalq Hava Limanında Azərbaycan parlamentinin rəhbərini Kralın nümayəndəsi Ruth Bell, Birləşmiş Krallığın Xarici İşlər Nazirliyinin təmsilçisi Nik Karter, Azərbaycanın bu ölkədəki fövqəladə və səlahiyyətli səfiri Elin Süleymanov və digər rəsmi şəxslər qarşılayıblar.

***"Azərbaycan"***

# Azərbaycanın müdafiə naziri Rusiya sülhməramlılarının yeni komandanı ilə görüşüb

Mayın 4-də Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov Azərbaycan ərazisində müvəqqəti yerləşdirilən Rusiya sülhməramlı kontingentinin yeni komandanı general-polkovnik Aleksandr Lentsovla görüşüb.

Nazirliyin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, görüşdə Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi Qarabağ iqtisadi rayonundakı əməliyyat şəraiti müzakirə olunub.



# Azərbaycan-Albaniya iqtisadi, sənaye və texnoloji əməkdaşlıq üzrə İşçi Qrupunun ilk iclası keçirilib

Albaniyanın Tirana şəhərində Azərbaycan-Albaniya iqtisadi, sənaye və texnoloji əməkdaşlıq üzrə İşçi Qrupunun ilk iclası keçirilib.

Energetika Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, iclasdan əvvəl İşçi Qrupunun həmsədrləri, Azərbaycanın energetika naziri Pərviz Şahbazov və Albaniyanın Baş nazirinin müavini - infrastruktur və energetika naziri Bellinda Balluku arasında ikitərəfli görüş olub.

Görüşdə iki ölkə arasında müxtəlif sahələrdə əməkdaşlıq əlaqələrinin inkişafına dair fikir mübadiləsi aparılıb.

İşçi Qrupunun iclasında ölkələrarası münasibətlərin inkişafında dövlət başçılarının rolundan, xüsusən də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Albaniyaya və Albaniyanın Baş naziri Edi Ramanın Azərbaycana səfərlərinin əhəmiyyətindən bəhs edilib. İşçi Qrupu çərçivəsində birgə fəaliyyət və bu əməkdaşlıq formatının Hökumətlərarası Komissiya statusuna yüksəldilməsi planı, Tiranada Azərbaycan səfirliyinin fəaliyyətə başlaması ilə bağlı siyasi qərar Azərbaycan-Albaniya əlaqələrini dərinləşdirmək niyyətinin təzahürü kimi qeyd olunub.

Energetika naziri Pərviz Şahbazov bildirib ki, Azərbaycan və Albaniya Avropa ölkələrinin enerji təchizatının diversifikasiyasında və enerji təhlükəsizliyinin təminatında strateji rol oynayan TAP layihəsinin üzvləridir. "Cənub qaz dəhlizi"nin genişlənməsi, Azərbaycanın dəstəyi ilə yerli qazpaylayıcı sistemin qurulması TAP-ın Albaniya üçün faydalarını artıracaq perspektivlərdir: "Korça şəhərinin qazlaşdırılması layihəsi ilkin texniki-iqtisadi əsaslandırılma mərhələsindədir. Qaz şəbəkəsinin qurulacağı təqdirdə nəinki ölkənin enerji balansı şaxələnəcək, həm də Balkan regionunun enerji təhlükəsizliyinin gücləndirilməsində birgə iştirak edəcəyik. Həmçinin SOCAR-ın Albaniyada fəaliyyətinə və enerji əməkdaşlığımıza töhfə verəcək bir sıra yeni layihələr üzrə də hazırda intensiv məsləhətləşmələr aparılır".

Albaniyanın Baş nazirinin müavini - infrastruktur və energetika naziri Bellinda Balluku isə deyib ki, diplomatik münasibətlərin qurulmasının 30 illiyini qeyd edirik və strateji tərəfdaşlığımızı möhkəmləndirməyə qərarlıyıq. Bu gün potensial əməkdaşlığın bir çox sahələrini müəyyən etdik. Bu sahələr arasında energetika hər iki ölkə üçün xüsusi maraq kəsb edir. İclasda ticarət və investisiyalar, enerji, kənd təsərrüfatı, nəqliyyat və infrastruktur, turizm, mədəniyyət, təhsil və elm sahələri üzrə əməkdaşlığın inkişafı ilə bağlı müzakirələr aparılıb. Albaniya şirkətləri Qarabağ və Şərqi Zəngəzurda, Ələt Azad İqtisadi Zonasında və "yaşıl enerji" layihələrində əməkdaşlığa dəvət edilib. İşçi Qrupun əsasında Hökumətlərarası Komissiyanın yaradılması razılaşdırılıb.

İclasın yekunlarına dair protokol imzalanıb.

# Prokurorların İstanbul Konfransı başa çatıb

**Xəbər verildiyi kimi, Azərbaycan Respublikasının baş prokuroru Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti İstanbul şəhərində işgüzar səfərdədir.**



Mayın 4-də nümayəndə heyəti tərəfindən Ulu Öndər Heydər Əliyevin və Türkiyə Cümhuriyyətinin banisi Mustafa Kamal Atatürkün Sarıyerdəki abidələri ziyarət edilərək əziz xatirələri ehtiramla yad edilib.

Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, beynəlxalq konfransın bağlanış sessiyasında yekun nitqi ilə çıxış edən baş prokuror Türkiyə tərəfinə yüksək qonaqpərvərliyə və peşəkar təşkilatçılığa görə təşəkkürünü ifadə edərək, XXI əsrdə rəqəmsal cinayətkarlıqla mübarizədə prokurorların beynəlxalq əməkdaşlığının vacib rolunu bir daha qeyd edib.

Elə həmin gün Kamran Əliyev türkiyəli həmkarı Bekir Şahinlə ikitərəfli görüş keçirib. Görüşdə 2021-ci il noyabrın 1-də Bakıda təsis edilmiş Türk Dövlətləri Təşkilatına üzv Dövlətlərin Baş Prokurorları Şurasının ikinci iclasının cari ilin noyabr ayında Ankara şəhərində təşkil olunması ilə əlaqədar fikir mübadiləsi aparılıb.

Həmçinin İstanbul şəhər baş prokuroru Şaban Yılmazla keçirilən görüşdə cinayətkarlıqla mübarizə sahəsində əməkdaşlıq məsələləri müzakirə edilib.

Bundan başqa, nümayəndə heyətimiz Səudiyyə Ərəbistanı, Mərakeş, Tayland, Gürcüstan, Bəhreyn, Avstriya, Bolqarıstan və digər xarici həmkarları və beynəlxalq təşkilatların nümayəndələri ilə görüşərək əməkdaşlıq perspektivlərini müzakirə ediblər.

Səfər çərçivəsində "Baykar" zavodunu ziyarət edən baş prokuror şirkətin rəhbəri Selçuk Bayraktarla görüşüb. Kamran Əliyev Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Vətən müharibəsi zamanı düşmən texnikasının məhv edilməsində şirkətin istehsal etdiyi məhsulların xüsusi rolunu vurğulayaraq Türkiyənin müdafiə sənayesinin çox böyük nailiyyətlər əldə etdiyini qeyd edib.

Nümayəndə heyətinin Türkiyə Respublikasına işgüzar səfəri başa çatıb.

# Azərbaycanın maliyyə naziri AİB-in illik toplantısı çərçivəsində bir sıra görüşlər keçirib



**Cənubi Koreyanın İnçion şəhərində Asiya İnkişaf Bankının (AİB) Rəhbərlər Şurasının 56-cı illik toplantısının rəsmi açılış mərasimi keçirilib. "Asiyanın dirçəldilməsi: bərpa, yenidən əlaqə və islahat" mövzusu altında keçirilən toplantı COVID-19 pandemiyasının yayılmasından sonra ilk dəfə əyani formatda baş tutub.**

Maliyyə Nazirliyindən AZƏRTAC-a bildirilib ki, iclasda Azərbaycanı maliyyə naziri, AİB-in Rəhbərlər Şurasının üzvü Samir Şərifovun rəhbərlik etdiyi nümayəndə heyəti təmsil edib.

Toplantının rəsmi açılış mərasimində çıxış edən Koreya Respublikasının Prezidenti Yun Sok Yol və AİB-in prezidenti Masatsuqu Asakava Asiya və Sakit Okean hövzəsi ölkələrinin üzləşdiyi problemlər, yoxsulluğun aradan qaldırılması istiqamətində həyata keçirilən tədbirlər, postpandemiya dövründə yaranan yeni iqtisadi çağırışların dəstəklənməsi, region ölkələrinin inklüziv inkişaf problemləri, o cümlədən qlobal iqlim dəyişikliklərinə qarşı görülən tədbirlərdən danışıblar.

Qlobal miqyasda artan inflyasiya təzyiqlərinin region ölkələri üçün təsirsiz ötüşmədiyini bildirən M.Asakava hərtərəfli tərəqqi və artımın təmin edilməsində vacib olan qarşılıqlı əməkdaşlıq və inteqrasiyanın AİB üçün əsas çağırışlar olduğunu vurğulayıb.

Bankın Rəhbərlər Şurası AİB-in 2022-ci il üzrə illik hesabatının müzakirəsi, maliyyə hesabatlılığına və müstəqil auditorların rəylərinə daxili nəzarət üzrə İdarə Heyətinin hesabatı, 2023-cü il üçün büdcənin təsdiqi və digər məsələlərlə bağlı müvafiq qərarlar qəbul edib.

Rəhbərlər Şurasında təmsil olunan nümayəndə heyətlərinin rəhbərləri bank tərəfindən 2022-ci ildə görülən işləri yüksək qiymətləndirərək inkişaf etməkdə olan ölkələrə bundan sonra da inkişafyönümlü kreditlərin verilməsi və texniki yardımların göstərilməsinin vacibliyini vurğulayıblar.

Mayın 4-də illik toplantı çərçivəsində keçirilən biznes sessiyada çıxış edən Azərbaycanın maliyyə naziri Samir Şərifov ölkəmizin son illərdə əldə etdiyi sosial-iqtisadi nailiyyətlərdən bəhs edib. Nazir builki illik toplantının pandemiyadan sonra əyani formatda təşkil edilən ilk tədbir, əlamətdar hadisə kimi qiymətləndirərək, prezident M.Asakavanın rəhbərliyi ilə AİB-in pandemiya dövründə də güclü, sürətli, müvafiq və effektiv regional inkişaf bankı kimi fəaliyyətini davam etdirdiyini, pandemiya zamanı inkişaf etməkdə olan üzv ölkələrə ciddi dəstək göstərdiyini bildirib.

S.Şərifov çıxışında Ukraynadakı müharibə, artan inflyasiya, davam edən ərzaq böhranı və tədarük zəncirindəki daralmanın inkişaf etməkdə olan üzv ölkələrə böyük təzyiq göstərdiyinə diqqət çəkərək, bunlara paralel olaraq yaşıl keçid və iqlim dəyişikliyi kimi qlobal və uzunmüddətli problemlərin həllinə daha çox ehtiyac olduğunu vurğulayıb və bütün bunların daha sıx əməkdaşlıq şəraitində AİB kimi çoxtərəfli inkişaf institutlarının fəal iştirakını zəruri etdiyini deyib.

"Biz həmçinin AİB-in kritik maliyyə boşluqlarının aradan qaldırılmasında və davam edən şoklara cavab verməkdə inkişaf etməkdə olan üzv ölkələrə dəstək verən sürətli ödəniş alətləri üzrə artan öhdəliklərini müsbət qiymətləndiririk", - deyə S.Şərifov bildirib.

Maliyyə naziri çıxışında Azərbaycanın 30 ildən artıq işğal altında olan və 2020-ci ildə işğaldan azad olunan Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında aparılan bərpa və yenidənqurma işlərindən də danışıb. Bildirib ki, Azərbaycan hökuməti Prezident İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad edilmiş ərazilərdə genişmiqyaslı yenidənqurma işlərinin aparılmasını və keçmiş məcburi köçkün və qaçqınların öz doğma kəndlərinə, qəsəbələrinə və şəhərlərinə geri qaytarılmasını nəzərdə tutan Böyük qayıdış proqramına start verib.

İşğal zamanı bütün fiziki və sosial infrastrukturun tamamilə dağıdıldığını qeyd edən S.Şərifov yenidənqurma tədbirlərindən əvvəl çoxlu sayda mina təmizləmə işlərinin həyata keçirilməli olduğunu vurğulayıb. Son 3 ildə Azərbaycanın yenidənqurma və bərpa işlərinə 6,6 milyard dollardan çox vəsait ayırdığını qeyd edən nazir regionun strateji coğrafi mövqeyinə görə böyük iqtisadi potensiala malik olduğunu diqqətə çatdırıb.

İllik toplantı çərçivəsində maliyyə naziri Samir Şərifov bir sıra ikitərəfli görüşlər keçirib. Nazir AİB-in prezidenti Masatsuqu Asakava ilə görüşdə ölkəmizin iqtisadi vəziyyəti, Prezident İlham Əliyevin rəhbərliyi ilə hökumət tərəfindən həyata keçirilən islahatlar, o cümlədən işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur ərazilərində aparılan bərpa və yenidənqurma işləri barədə məlumat verib. S.Şərifov qeyd edib ki, işğaldan azad edilmiş ərazilərdə nəqliyyat dəhlizlərinin inkişafı regional əməkdaşlıq və inteqrasiya səylərinə böyük təkan verəcək və bununla da regionda uzunmüddətli sülh və tərəqqiyə nail olunacaq. Bildirilib ki, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında "yaşıl enerji" zonalarının və bərpaolunan enerji mənbələrinin inkişaf etdirilməsi üçün böyük potensial var və bununla da gələcəkdə Avropaya, o cümlədən region ölkələrinə enerji təchizatının həyata keçirilməsində Azərbaycan əhəmiyyətli rol oynayacaq. O cümlədən 2020-ci ilin iyun ayında Asiya İnkişaf Bankının təşəbbüsü ilə Prezident İlham Əliyevlə bankın prezidenti Masatsuqu Asakava və bankın rəhbərliyində təmsil olunan digər nümayəndələr arasında videokonfrans formatında keçirilən görüşü xatırladan S.Şərifov müzakirə edilən enerji, infrastruktur, suvarma, peşə təhsili, kiçik və orta sahibkarlığın maliyyələşdirilməsi layihələri vasitəsilə AİB-in Azərbaycanın dayanıqlı inkişafına göstərdiyi dəstəyin önəmini vurğulayıb. Öz növbəsində, Azərbaycanın davamlı iqtisadi inkişafını qeyd edən Masatsuqu Asakava ölkəmizdə həyata keçirilən layihələri yüksək qiymətləndirib. Eyni zamanda AİB ilə Azərbaycan arasında birgə həyata keçirilən layihələrin əhəmiyyətini vurğulayaraq bu əməkdaşlığın genişlənəcəyinə əminliyini ifadə edib.

Bundan başqa, toplantı çərçivəsində nazir S.Şərifov Azərbaycanı bankın İdarə Heyətində təmsil edən avstraliyalı icraçı direktor Rachel Thompson ilə görüşüb. Görüşdə əməkdaşlığın hazırkı vəziyyəti və perspektivləri, birgə layihələrin həyata keçirilməsi imkanları, o cümlədən qarşılıqlı maraq doğuran digər məsələlərə dair fikir mübadiləsi aparılıb.

# Azərbaycan XİN Paşinyana cavab verib

**Azərbaycanın Xarici İşlər Nazirliyi (XİN) Ermənistanın baş naziri Nikol Paşinyanın Çex Respublikasında mətbuat konfransı zamanı ölkəmizlə bağlı səsləndirdiyi iddialara münasibət bildirib.**

Bu barədə AZƏRTAC-a XİN-in Mətbuat xidməti idarəsindən məlumat verilib.

Bildirilib ki, Ermənistanın baş naziri Nikol Paşinyanın mayın 4-də Çex Respublikasının Baş naziri ilə birgə mətbuat konfransında çıxışı zamanı ölkəmizin Azərbaycan-Ermənistan sərhədində nəzarət-buraxılış məntəqəsi təsis etməsi, habelə guya Azərbaycanın Ermənistanla sərhəddə vəziyyəti gərginləşdirməsi, Qarabağ bölgəsində humanitar böhran yaratdığı ilə bağlı dəfələrlə səsləndirdiyi cəfəng iddiaları qətiyyətlə rədd edirik.

Azərbaycanın öz suveren ərazisində yaratdığı və erməni sakinlərin artıq şəffaf şəkildə hər iki istiqamətdə keçməyə başladığı "Laçın" sərhəd nəzarət-buraxılış məntəqəsini təsis etməsi məsələsinə hər hansı bir şərh qəbuledilməzdir.

Ermənistan tərəfi Azərbaycanın daxili işlərinə qarışmağa və uzun illər ərzində Azərbaycana qarşı həyata keçirdiyi təcavüzkar siyasətə son qoymalıdır.

"Etnik təmizləmə" barədə baş nazirin cəfəng fikirlərinə gəldikdə isə qeyd edək ki, tarixboyu azərbaycanlılara qarşı xüsusi qəddarlıqla kütləvi qırğınlar, deportasiyalar siyasətinin, əməllərinin etiraf edilməsi və üzrxahlıq dilənməsi əvəzinə, Azərbaycanı belə əməllərdə təqsirləndirmək tarixdən dərs çıxarmamağın göstəricisidir.

Ermənistan tərəfinin sülh sazişi üzrə danışıqların davam etdiyi bir vaxtda bu kimi bəyanatlarla çıxış etməsi sülhə xidmət etmir.

# "Anadolu Qartalı - 2023" beynəlxalq taktiki-uçuş təliminin əsas mərhələsi başlayıb





**Türkiyə Respublikasının Konya şəhərində keçirilən "Anadolu Qartalı - 2023" beynəlxalq taktiki-uçuş təliminin əsas mərhələsi başlayıb.**

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin Mətbuat xidmətindən məlumat verilib. Təlimin ilkin mərhələsində təyin olunmuş plana uyğun olaraq uçuşlar zamanı təhlükəsizlik qaydaları və qarşıya qoyulan tapşırıqlar çatdırılıb.

Ssenariyə əsasən əvvəlcə şərti düşmənin hava hücumundan müdafiə vasitələri susdurulub.

Hava üstünlüyü əldə edildikdən sonra təyyarələrimiz müxtəlif döyüş təyyarələri ilə birgə şərti düşmənin hava məkanına daxil olaraq yuxarı hündürlükdə döyüş manevrləri etməklə qarşı tərəfin yerüstü hədəflərinin məhv edilməsi üzrə tapşırıqları icra ediblər.

Təlimin birinci günündə qarşıya qoyulan tapşırıqlar pilotlar tərəfindən uğurla yerinə yetirilib.



# Heydər Əliyev İli 2023

**Ümummilli Lider Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı həyatın bütün sahələrində fundamental dəyişikliklərin əsasını qoydu. Azərbaycan cəmiyyətinin köklü surətdə dəyişməsi bütünlükdə yeni bir cəmiyyətin formalaşmasını gerçəyə çevirən dəyişikliklərin mühüm hissəsi idi. Heydər Əliyev islahatlarının vüsəti, əhatə dairəsi, ölkə həyatının ümumi mənzərəsinə təsir göstərmək imkanları yeni cəmiyyət yaradılması zərurətini qaçılmaz edirdi.**



# Heydər Əliyev və Azərbaycan sahibkarlığı

Ulu Öndərin qayıdışı nəinki Azərbaycanın iyirminci yüzillikdə ikinci dəfə qazandığı müstəqilliyinin itirilməsinin qarşısını aldı, eyni zamanda ölkəmizi sabitliyə, davamlı inkişafa, sosial rifaha istiqamətləndirdi. Onun çoxşaxəli siyasəti ölkəyə tərəqqi və sabitlik gətirən dövlət strategiyasına çevrildi.

Bu dövrdə bazar iqtisadiyyatına keçidin, yeni mülkiyyətin formalaşması prosesinin diktə etdiyi ən başlıca şərtin məhz özəl sektorun fəaliyyəti üçün dövlət səviyyəsində maksimum imkanların yaradılmasından, əlverişli sahibkarlıq və biznes mühitinin formalaşdırılmasından ibarət olması heç kəsə sirr deyil. İnkişaf etmiş ölkələrin təcrübəsi də sübut edir ki, ümumi daxili məhsul istehsalında bu təbəqənin rolunu artırmadan dinamik iqtisadi yüksəlişi təmin etmək mümkün deyil. Bu baxımdan sahibkarlığın inkişafı üçün dövlət səviyyəsində bir sıra təşkilati, hüquqi və iqtisadi tədbirlərin görülməsi, biznes fəaliyyəti üçün daha əlverişli şəraitin yaradılması məqsədilə əsaslı islahatların aparılması Azərbaycanda həyata keçirilən inkişaf strategiyasının əsas qayəsini təşkil etməli idi.

"İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir!" prinsipinə əsaslanan Ulu Öndərin fəaliyyətinin ən mühüm, strateji əhəmiyyət daşıyan istiqamətlərindən biri bazar münasibətlərinə keçidin tələblərinə uyğun iqtisadi siyasəti reallaşdırmaq, ölkə iqtisadiyyatını böhrandan qurtarıb inkişaf yoluna çıxarmaq idi. Belə də oldu. Heydər Əliyevin təşəbbüskarlığı, əzmkar fəaliyyəti tezliklə Azərbaycanı inkişaf etməkdə olan dövlətlər sırasına çıxardı. Onun rəhbərliyi altında ölkəmizdə həyata keçirilən genişmiqyaslı islahatlar iqtisadi potensialın formalaşdırılmasına, sosial-mədəni həyatın canlandırılmasına və milli-mənəvi dəyərlərin dirçəldilməsinə yönəldilərək, əslində, gələcəyin təməlini qoymuş oldu.

❖❖❖

Heydər Əliyevin tarixi nailiyyətlərindən biri də Azərbaycan dövləti və xalqı qarşısında duran strateji vəzifəni - bir ictimai-iqtisadi sistemdən digərinə, yəni iflasa uğramış sosializmdən bazar iqtisadiyyatı normalarına və çoxmülkiyyətçiliyə əsaslanan sistemə keçidi təmin etməsidir. Xüsusi mülkiyyətə geniş meydan açılması, sənaye və xidmət müəssisələrinin özəlləşdirilməsi, aqrar islahatlar, torpağın əvəzsiz olaraq kəndlilərə verilməsi və digər fundamental transformasiya proseslərini reallaşdırmaq kimi çətin vəzifələrin həlli Heydər Əliyevin adı ilə bağlıdır.

Heydər Əliyev Azərbaycanda siyasi sabitlik yaratmaqla yanaşı, ölkənin iqtisadi müstəqilliyinin əsasını qoydu, bütün istehsal sahələrinin bərpası, habelə maliyyə vəziyyətinin yaxşılaşdırılması və xarici sərmayələrin cəlb olunması üzrə antiböhran proqramını işləyib hazırladı. Onun prezidentliyi dövründə iqtisadiyyatın bütün sahələrində radikal islahatlar aparıldı və nəticədə iqtisadiyyatın dinamik inkişafı təmin edildi.

Bu sahələrdən biri də yeni bank-maliyyə sahəsinin formalaşdırılması, həmin sektorun yeni iqtisadi münasibətlərə uyğunlaşdırılmasından ibarət idi. "Hər bir ölkənin bank sektoru onun iqtisadiyyatının əsasını təşkil edir" prinsipinə əsaslanan Ulu Öndərin birbaşa diqqət və dəstəyi ilə dövlət banklarının yenidən qurulması, özəl bankların konsolidasiyası, bank infrastrukturunun formalaşması istiqamətində islahatlar həyata keçirildi. İslahatların ilkin mərhələsində dövlət banklarının restrukturizasiyası və sağlamlaşdırılması tədbirləri həyata keçirildi, özəl bank sisteminin institusional formalaşması təmin edildi. Bu mərhələdə kapitalla bağlı aşağı tələblər, sistemə daxil olmaq üçün son dərəcədə liberal şərtlər müəyyən olundu və bank fəaliyyətini tənzimləmək üçün yumşaq tənzimləmə alətləri tətbiq edildi. Həmin proseslərin nəticəsində bank sistemi institusional olaraq genişlənməyə və özəl bankların sayı artmağa başladı.

Bank sisteminin bütün istiqamətləri üzrə həyata keçirilən radikal islahatlar və institusional inkişaf nəticəsində sektorda dərin kəmiyyət və keyfiyyət dəyişiklikləri baş vermiş, xarici bankların Azərbaycana marağı artmışdır. İnvestisiya cəlb edilməsinin əsas istiqamətlərinin bank sektorundan başlanacağını nəzərə alaraq bununla bağlı bank rəhbərləri tərəfindən bir neçə əhəmiyyətli təkliflər olmuşdur.

Ölkəmizin bank sektorunda sürətli inkişaf müşahidə olunan 90-cı illərdə əsasən kənd təsərrüfatının maliyyələşməsi ilə məşğul olan Səhmdar Kommersiya Aqrar-Sənaye Bankı (hazırda "Aqrarkredit" QSC) fəaliyyət göstərirdi. Həmin dövrdə Səhmdar Kommersiya Aqrar-Sənaye Bankının İdarə Heyətinin sədri kimi təşəbbüslə çıxış etdim və Ulu Öndər Heydər Əliyevin xeyir-duası ilə 1995-ci ildə Türkiyənin ən böyük bankı olan "Ziraat" Bankı" ilə birgə bank yaradılması razılaşdırıldı.

"Azər-Türk Bank" Açıq Səhmdar Cəmiyyəti Azərbaycan Respublikasının keçmiş Səhmdar Kommersiya Aqrar-Sənaye Bankı və Türkiyənin "Ziraat Bankı" Anonim Şirkəti tərəfindən 1995-ci ildə təsis edilərək həmin ildən fəaliyyətə başlamışdır. Yeni yaradılan "Azər-Türk Bank" Azərbaycanda xarici kapitalın iştirakı ilə təsis edilmiş ilk kommersiya bankı idi.

1995-2014-cü illərdə "Azər-Türk Bank"ın Müşahidə Şurasına rəhbərlik etmiş bir şəxs kimi qeyd etmək istəyirəm ki, Heydər Əliyevin bilavasitə iştirakı ilə açılışı olmuş "Azər-Türk Bank" yarandığı vaxtdan bu günədək qardaş Türkiyə ilə Azərbaycan arasında iqtisadi münasibətlərin qurulmasında, genişləndirilməsində körpü rolunu oynamaqla yanaşı, ölkənin bank-maliyyə sektorunun formalaşmasında mühüm rol oynamışdır.

❖❖❖

Ulu Öndərin müəyyən etdiyi və onun rəhbərliyi ilə uğurla həyata keçirilən iqtisadi inkişafın əsasını təşkil edən sahibkarlığın inkişafı strategiyası özəl bölmənin inkişafına yönəlmiş tədbirlərin sistemliyi, dövlət tənzimlənməsinin liberallaşdırılması, dövlət-sahibkar münasibətlərinin institusionallaşdırılması ilə xarakterizə olunur. "Sahibkarlığın inkişaf etdirilməsi, sərbəst iqtisadiyyata yol verilməsi, bazar iqtisadiyyatının yaradılması bizim strateji yolumuzdur" deyən Heydər Əliyev ölkənin gələcək iqtisadi inkişafının məhz özəl sektorla bağlı olduğunu vurğulayırdı. Qəbul olunmuş dövlət proqramları bu sahənin inkişafında xüsusi rol oynadı, kiçik və orta sahibkarlığın inkişafını iqtisadi siyasətin prioritet istiqamətlərindən birinə çevirdi.

Ümummilli Lider ilk illərdən ölkədə bazar münasibətlərinin formalaşması və inkişafı sahəsində sahibkarlığın əhəmiyyətini yüksək dəyərləndirmiş, onun təşəbbüsü və rəhbərliyi ilə bu istiqamətdə "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığa Dövlət Köməyi Proqramı (1997-2000-ci illər)"nın və "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafı Dövlət Proqramı (2002-2005-ci illər)"nın həyata keçirilməsi təmin edilmişdir. Bu proqramlar ölkədə sahibkarlığın formalaşması və inkişaf modelinin əsasını yaratmışdır. Belə ki, qeyd olunan proqramlarda kiçik və orta sahibkarlığın hüquqi bazası yaradılmış, sahibkarlığın təşəkkülü və inkişafı üçün əlverişli mühit formalaşmış, sahibkarlığın səmərəli dövlət tənzimlənməsi təmin olunmuşdur.

Bazar iqtisadiyyatı yolunu seçmiş istənilən dövlətin müstəqil yaşaması və inkişafı prosesində orta təbəqənin - iqtisadi inkişaf və sabitliyin təminatçısı sayılan sahibkarlar sinfinin rolu müstəsnadır. Bu reallığı böyük müdrikliklə nəzərə alan Ümummilli Lider milli iqtisadi inkişaf modelinin reallaşdırılmasında özəl sektorun həlledici rolunu daim önə çəkir, güclü sahibkarlar təbəqəsinin formalaşmasına, onların cəmiyyətdəki mövqelərinin güclənməsinə çalışırdı. Ulu Öndərin sahibkarlarla keçirilən görüşləri, üzləşdikləri problemlərin nədən ibarət olduğunu bilavasitə onların öz dilindən eşitməsi və bunların qısa müddət ərzində həlli üçün konkret tapşırıqlar, fərman və sərəncamlar imzalaması, dövlət proqramlarının qəbul edilməsi özəl sektorun təmsilçilərinə yüksək diqqətin təzahürü idi.

Belə görüşlərə nümunə kimi 2002-ci il aprelin 25-də yerli və mayın 14-də xarici iş adamları ilə keçirilən görüşləri göstərmək olar. Həmin görüşlərdə sahibkarlığın inkişafı yolları araşdırılmış, bu inkişafa mane olan əngəllərin aradan qaldırılması üçün konkret tədbirlər müəyyənləşdirilmiş, növbəti illər üçün Azərbaycanda sahibkarlığın inkişafı ilə bağlı dövlət proqramları təsdiq olunmuşdur.

Həmin dövrdən keçən müddət ərzində Azərbaycanda iqtisadiyyatın dayanıqlığı üçün sahibkarlığın inkişafı prioritet istiqamət olaraq Prezidentin diqqət mərkəzində olmuş və bu sahədə mühüm uğurlar əldə edilmişdir. Məhz bu görüşlərin Azərbaycan sahibkarlığının inkişafında mühüm tarixi əhəmiyyətini, habelə ölkənin iqtisadiyyatında sahibkarların artan rolunu, məşğulluğun təmin olunmasında sahibkarlığın inkişafının müstəsna əhəmiyyətini nəzərə alaraq Prezident İlham Əliyevin 21 aprel 2016-cı il tarixli sərəncamına əsasən, hər il aprelin 25-i Azərbaycanda "Sahibkarlar Günü" kimi qeyd olunur.

Ulu Öndərin xalqımız və dövlətimiz qarşısında müstəsna xidmətlərindən biri də onun yolunu davam etdirməyə, ideyalarını daha da zənginləşdirib həyata keçirməyə qadir olan İlham Əliyev kimi yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını dərindən bilən bir siyasətçini yetişdirməsi idi. Ulu Öndərin özü qədər inandığı və gələcəyinə böyük ümidlər bəslədiyi İlham Əliyevin Azərbaycana rəhbərlik etdiyi 20 ildə ölkə iqtisadiyyatının bütün sahələrinin dinamik inkişafı dünya birliyinin diqqət mərkəzində olmuşdur.

2003-cü ildən Heydər Əliyevin siyasi və iqtisadi kursunu uğurla davam etdirən Prezident İlham Əliyev ötən dövr ərzində milli inkişaf prioritetlərini düzgün müəyyənləşdirərək ölkənin bütün potensialını, intellektual resurslarını insan kapitalının gücləndirilməsi yönümündə səfərbər etmişdir.

Məlum olduğu kimi, son illər Azərbaycan xalqı üçün çox əlamətdar olmuşdur. 44 günlük Vətən müharibəsində Prezident-Ordu-Xalq birliyi nəticəsində torpaqlarımız işğaldan azad olunmuş və Azərbaycanın ərazi bütövlüyü bərpa edilmişdir. Azərbaycan torpaqlarının işğaldan azad edilməsi bütün türk dünyasında müsbət əks-səda doğurmuşdur.

Hazırda Prezident İlham Əliyevin rəhbərliyi altında işğaldan azad olunmuş ərazilərdə böyük işlər görülür. İnsanların tezliklə öz yurd-yuvalarına qayıtması, bu torpaqlarda sahibkarlığın inkişaf etdirilməsi, yeni iş yerlərinin yaradılması, işğal altında olmuş ərazilərimizdə həyatın yenidən canlanması üçün mühüm tədbirlər həyata keçirilir. Prezident Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında həyata keçirilən layihələrə şəxsən nəzarət edir, müxtəlif yeni obyektlərin təməlini qoyur, hazır olan infrastruktur obyektlərinin açılışını edir. Cari il mart ayının 16-da keçirilmiş Türk Dövlətləri Təşkilatının Dövlət Başçılarının Fövqəladə Zirvə görüşündə Prezident bir daha qeyd etdi ki, keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına dönüşü üçün Böyük qayıdış proqramının icrasına başlanılmışdır.

Prezident Qarabağ və Şərqi Zəngəzura səfəri zamanı iş adamlarına müraciət edərək onları işğaldan azad edilmiş bütün ərazilərə sərmayə qoymağa çağırmışdır. Azərbaycanda yeni biznes qurmaq və sahibkarlığın inkişafı üçün çox gözəl şəraitin yaradıldığını vurğulayan Prezident qeyd etmişdir ki, "Əlbəttə ki, bölgələrdə infrastruktur layihələrinin icrası sahibkarlıq üçün də gözəl imkanlar yaradır. Ona görə Azərbaycan sahibkarları gərək azad edilmiş torpaqlara gəlsinlər və burada müəssisələr qursunlar, iş yerləri yaratsınlar".

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası Prezidentin bu çağırışını dəstəkləyir və bildirir ki, iqtisadi siyasətimizin istiqamətlərini nəzərə alaraq azad edilmiş torpaqlarda sahibkarlığın inkişafı Böyük qayıdışın daha tez bir vaxtda həyata keçirilməsinə böyük töhfə verəcəkdir. Konfederasiya öz imkanlarından istifadə edərək azad olunmuş torpaqlarda biznesin inkişafı, mövcud layihələrə xüsusi yanaşmaların tətbiq edilməsi və sahibkarların dövlətin dəstək tədbirlərindən yararlanması üçün təşkilati yardım göstərməyə hazırdır. Yeri gəlmişkən, qeyd edək ki, artıq aqrar, təhsil, emal, mədənçıxarma, ticarət, turizm sahələrini əhatə edən investisiya təklifləri mövcuddur və bunların bir qismi icra mərhələsindədir. Əminik ki, birgə səylərimiz nəticəsində tez bir zamanda Qarabağı və Şərqi Zəngəzuru yenidən dirçəldəcək, insanların öz doğma yurdlarına dönməsinə nail olacağıq.

Bu sahədə dövlətlə özəl sektor arasında dialoqun, əməkdaşlığın olması da xüsusi əhəmiyyət daşıyır. Dövlət Şərqi Zəngəzur və Qarabağ iqtisadi zonalarında yerli və xarici sahibkarları bərpa-quruculuq işlərində dəstəkləmək üçün müxtəlif stimullaşdırıcı addımlar atır. Sahibkarlar isə öz növbəsində dövlətimizə inanaraq iri layihələrdə iştirak etmək arzusunda olduqlarını bildirirlər.

Azərbaycan Sahibkarlar Konfederasiyasının Rəyasət Heyətinin qərarı ilə Qarabağda iş qurmaq istəyən ölkə sahibkarlarının təkliflərini toplamaq üçün işçi qrupu yaradılmış və sahibkarların təqdim etdiyi 70-ə yaxın təklif hökumətə təqdim edilmişdir. Artıq bir çox layihənin həyata keçirilməsi nəzərdə tutulur. Bunlar "Yeni memarlıq", "Ağıllı şəhər", "Ağıllı kənd", "Yeni iqtisadiyyat" və digər layihələrdir.

Prezident İlham Əliyev tərəfindən müəyyənləşdirilmiş iqtisadi inkişaf strategiyası nəinki ölkəmizin inkişafında müstəsna rol oynayır, hətta model olaraq keçid iqtisadiyyatı ölkələrinin iqtisadi inkişafı baxımından nümunəyə çevrilir. Məlum olduğu kimi, 2022-ci ildə dünya iqtisadiyyatında qeyri-müəyyənliklər və resessiya riskləri daha da artmışdır. Təchizat zəncirində yaranmış problemlər, həmçinin enerji daşıyıcılarının və ərzaq məhsullarının qiymətlərinin qalxması qlobal inflyasiyanın yüksək səviyyəyə qalxmasına səbəb olmuşdur. Amma bu proseslər fonunda Azərbaycan iqtisadiyyatında yüksək artım dinamikası davam etmişdir. 2022-ci ildə iqtisadi artım 4,6 faiz təşkil etmiş, o cümlədən qeyri-neft sektorunda məhsul istehsalı 9,1 faiz artmışdır. Həmin dövrdə qeyri-neft-qaz sektoruna yönəldilən vəsaitin həcminin 14 faiz artması, əsas kapitala yönəldilmiş investisiyaların 70 faizinin qeyri-neft-qaz sektoruna yönəldilməsi isə ölkədə sahibkarlığın inkişafının real göstəricisi olmuşdur.

❖❖❖

Davamlı olaraq həyata keçirilən kompleks islahatlar, inzibati prosedurların sadələşdirilməsi, qanunvericiliyin təkmilləşdirilməsi, investisiya mühitinin yaxşılaşdırılması tədbirləri və institusional dəstək mexanizmlərinin tətbiqi sahibkarlığın inkişafını daha da sürətləndirmiş, bütün regionları əhatə etməklə yeni istehsal və xidmət sahələri yaradılmış, ölkəmizin rəqabətqabiliyyətli məhsul istehsalı imkanları genişlənmiş, özəl bölmənin ümumi daxili məhsulda və məşğulluqda xüsusi çəkisi artmışdır. Prezidentin rəhbərliyi ilə həyata keçirilən islahatlar nəticəsində ölkəmizdə özəl sektor iqtisadiyyatın aparıcı qüvvəsinə çevrilmişdir. 2022-ci ilin yekunlarına görə, sahibkarlığın *ümumi daxili məhsulda payı 83 faizi ötmüş, məşğulluqda payı isə 70 faizdən çox olmuşdur.* Onu da qeyd edək ki, ölkə üzrə sahibkarlıq subyektlərinin 99 faizi kiçik və orta sahibkarlıq subyektləridir və onların əlavə dəyərin yaradılmasında, ixrac, məşğulluq və investisiyalarda payı ildən-ilə artmaqda davam edir.

Sahibkarlıq sahəsində lisenziya tələb olunan fəaliyyət növlərinin əhəmiyyətli dərəcədə azaldılması, sərmayə qoyuluşunun stimullaşdırılması məqsədilə investisiya təşviqi sənədinin verilməsi, satınalmalar sahəsində kotirovka sorğusu prosedurunun tamamilə elektronlaşdırılması və vahid internet portalı vasitəsilə həyata keçirilməsi, vergi qanunvericiliyində köklü islahatlar da özəl sektorun fəaliyyətinin gücləndirilməsini, şəffaflığın və hesabatlığın artırılmasını, rəqəmsallaşmanın geniş vüsət almasını, rəqabət mühitinin inkişafını şərtləndirir. Sahibkarlıq sahəsində hüquqi bazanın təkmilləşdirilməsi, sahibkarların hüquqlarının müdafiəsi məqsədilə indiyədək bir çox qanun qəbul olunub. Sahibkarlığın inkişafına töhfə verən qanunlardan biri olan "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" qanunda sahibkarlıq sahəsində aparılan yoxlamaların məqsəd və prinsipləri, təşkili və aparılması qaydaları, yoxlayıcı orqanların hüquq və vəzifələri, sahibkarların maraqlarının müdafiəsi ilə bağlı məsələlər öz əksini tapmışdır.

Bu il martın 13-də Berlində Prezident İlham Əliyev Almaniyanın aparıcı şirkətlərinin rəhbərləri ilə görüşündə demişdir: "Bizim hər beş ildən bir qəbul olunan beşillik regional inkişaf proqramımız var. Hazırda biz 4-cü proqramın yekunlaşdırılması prosesindəyik. Bu proqramlar konkretdir və beş il ərzində Azərbaycanda həyata keçiriləcək layihələri əks etdirir. Eyni zamanda biz artıq 2030-cu ilə qədər 42-50 milyard ABŞ dolları investisiya həcmində milli inkişaf strategiyasını təsdiqləmişik. Bu investisiyaların əksəriyyəti dövlət tərəfindən maliyyələşəcək. Eyni zamanda özəl-dövlət tərəfdaşlığı layihələri də olacaq". Görüşdə habelə qeyd olunmuşdur ki, hazırda Azərbaycanda güzəştli maliyyələşmənin illik həcmi avro ekvivalentində 100 milyona bərabərdir. Kredit əsasən kiçik və orta sahibkarlıq subyektlərinə 7 illik müddətinə verilir və məqsəd müəssisələrin müasirləşdirilməsidir.

Sahibkarlığın inkişafı sahəsində həyata keçirilən sistemli tədbirlər nəticəsində 2022-ci ildə də nüfuzlu beynəlxalq qurumların reytinqlərində Azərbaycan iqtisadi göstəricilərinə görə yuxarı sıralarda yer almışdır. Belə ki, Fiç Reytinq beynəlxalq kredit reyting agentliyi Azərbaycan Respublikasının uzunmüddətli yerli və xarici valyutada reytinqini "BB+" səviyyəsində bir daha təsdiq edərək proqnozun "sabit"dən "pozitiv"ə yüksəldiyini bildirmişdir. Bununla bağlı Azərbaycan Respublikasının xalis suveren aktivlərinin 2023-2024-cü illərdə 14 faizdən çox artması ümumi daxili məhsulun 78 faizə çatacağını proqnozlaşdırır ki, bu da reytinq qrupunda ən yüksək göstəricidir.

❖❖❖

Sərbəst bazar münasibətlərinə, özünütənzimləməyə əsaslanan iqtisadi sistemdə insanların sosial müdafiəsinə və rifahına hesablanmış müxtəlif layihələrin, ən başlıcası, mənəvi-etik dəyərlərin yad təsirlərdən qorunması xüsusilə aktualdır. Bu təsirləri zərərsizləşdirmək isə yalnız yüksək mənəviyyatlı şəxsiyyətlərin üzərinə düşür. Hazırda bu nəcib missiyanı yüksək mənəvi məsuliyyətlə üzərinə götürərək təmənnasız həyata keçirən insanlar arasında Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva ön sırada dayanır. İnamla deyə bilərik ki, Ulu Öndərin ali ideyalarına əsaslanan, dövlət başçısı İlham Əliyevin həyata keçirdiyi çoxşaxəli siyasətə layiqli töhfələrini verən Azərbaycanın Birinci vitse-prezidentinin milli mədəniyyətin, mənəvi dəyərlər sisteminin qorunmasında, cəmiyyətə sağlam dəyərlərin aşılanmasında müstəsna xidmətləri vardır.

Mehriban xanım Əliyeva Azərbaycan Respublikasının Birinci vitse-prezidenti olduğu müddətdə öz zəngin fəaliyyəti ilə təkcə ölkəmizdə deyil, bütün dünyada yüksək nüfuz, dərin ehtiram qazanmış, Azərbaycanın inkişaf etmiş dövlətlər səviyyəsinə çatdırılmasının qarşıda duran ən başlıca məqsəd olduğunu bəyan etmişdir. Azərbaycan sahibkarları Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın sahibkarlığın inkişafına verdiyi töhfəni yüksək dəyərləndirirlər. Belə ki, son illərdə ölkədə qadın sahibkarların sayı əhəmiyyətli dərəcədə artmışdır ki, bu işdə Mehriban xanımın rolu danılmazdır.

Ölkədə qadınların əmək bazarında kişilərlə bərabərhüquqlu iştirakına imkan yaradılması onların idarəetmə, biznes və hakimiyyət strukturlarında daha geniş təmsil olunması ilə nəticələnir. Özündə minlərlə sahibkarlıq subyektini, o cümlədən 70-ə qədər assosiasiya və birlikləri birləşdirən Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası bu tədbirlərin uğurla həyata keçirilməsi istiqamətində öz qüvvə və imkanlarını səfərbər etmişdir.

❖❖❖

Azərbaycan Sahibkarlar Konfederasiyası ölkə sahibkarlarını təmsil edən bir təşkilat olaraq həm əldə etdiyimiz uğurları dəyərləndirir, həm də müasir çağırışları dərindən təhlil edir, bununla bağlı silsilə və ardıcıl tədbirlər həyata keçirir. Bu, istər qanunvericilik aktlarının təkmilləşdirilməsi, istər sahibkarlıq subyektlərinin problemlərinin öyrənilib əlaqədar təşkilatlar tərəfindən onların həllinə nail olunması, istərsə də sahibkarların maarifləndirilməsi işinin daha da dərinləşdirilməsi ilə bağlıdır. Azərbaycan Sahibkarlar Konfederasiyası hazırda qeyri-neft sektorunun inkişafı istiqamətində ölkənin özəl sektorunda sağlam qüvvələrin birləşməsi əsasında öz işini qurur, sahibkarlara göstərilən xidmətlərin əhatə dairəsini genişləndirir, günün tələblərinə cavab verən mövzular üzrə treninqlər, seminarlar, konfranslar keçirir və sahibkarların hüquq və vəzifələrinin qorunması istiqamətində mütəmadi olaraq iş aparır. Sahibkarlarımız da öz müəssisələrini müasir tələblərə uyğun qurmalı, ixrac bazarlarında rəqabətqabiliyyətli məhsullar istehsal etməli, xarici bazarlarda mövcud olan geniş imkanlardan faydalanmaq məqsədilə peşəkarlıqlarını artırmalı, ixrac menecerləri cəlb etməlidirlər.

❖❖❖

Azərbaycan Hökuməti, Azərbaycan Həmkarlar Konfederasiyası və Azərbaycan Sahibkarlar Konfederasiyası sosial dialoqun bərabərhüquqlu subyektləri kimi kollektiv müqavilə və sazişlərin bağlanması, onlara əlavə və dəyişikliklərin edilməsi, bir sıra əmək və sosial iqtisadi məsələlərin həlli istiqamətində birgə tədbirlər həyata keçirirlər. Azərbaycan Respublikası Nazirlər Kabineti, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası və Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası arasında 2022-2024-cü illər üçün sosial əmək münasibətləri üzrə razılaşdırılmış mövqelərini və birgə fəaliyyət istiqamətlərini müəyyən edən Baş Kollektiv Saziş imzalanmış, bu sahədə müvafiq işlər həyata keçirilir.

Bunlarla yanaşı, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən iqtisadi islahatlara müvafiq olaraq Azərbaycan Sahibkarlar Konfederasiyası bir çox ölkənin sahibkarlıq təşkilatları, xarici ölkələrin Azərbaycandakı və Azərbaycanın xaricdəki səfirlikləri, Dünya Bankı, Avropa İttifaqının komissiya və təşkilatları və digər beynəlxalq təşkilatlarla qarşılıqlı faydalı əməkdaşlıq edir və bunun nəticəsində yerli iş adamlarına Azərbaycanda və ölkə hüdudlarından kənarda tərəfdaşlar ilə işgüzar əlaqənin yaradılmasında və sahibkarlığın inkişafı məqsədilə investisiya qoyuluşunda onlara müvafiq şərait yaradır.

Konfederasiya Azərbaycan iqtisadiyyatının inkşafında sahibkarlığın rolunun qorunub saxlanmasında və inkişaf etdirilməsində genişmiqyaslı işlər aparır. Bu gün hər bir sahibkar anlayır ki, Azərbaycanın tərəqqisi və gələcək inkişafı üçün Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən genişmiqyaslı tədbirlər davam etdirilməli və onlar sahibkar olaraq bu işdə yaxından iştirak etməlidirlər. Bütün müharibə dövründə ölkə başçısının ətrafında sıx birləşərək "dəmir yumruğ"un bir parçası olmağı bacarmış Azərbaycan sahibkarları Qarabağın və Şərqi Zəngəzurun yenidən firavanlığına qovuşması, işğaldan azad olunmuş torpaqların iqtisadi cəhətdən dirçəlməsi naminə səylərini daha da gücləndirməlidirlər.

❖❖❖

Məlum olduğu kimi, Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinin dövlət səviyyəsində qeyd olunmasını təmin etmək məqsədilə Prezident İlham Əliyevin 29 sentyabr 2022-ci il tarixli sərəncamı ilə Azərbaycanda 2023-cü il "Heydər Əliyev İli" elan edilmişdir. Azərbaycan Sahibkarlar Konfederasiyası üzv sahibkarları ilə birlikdə "Heydər Əliyev İli" çərçivəsində silsilə tədbirlər keçirir, dövlət tədbirlərində yaxından iştirak edərək Ulu Öndərin irsinin gənc nəslə çatdırılması istiqamətində öz fəaliyyətini genişləndirir.

Heydər Əliyevin zəngin irsinə nəzər salarkən məlum olur ki, onun ölkə üçün gördüyü nəhəng işləri, dəyərli və əzəmətli ideyalarının həyata keçirilməsini hər kəs öz sahəsində hiss edir. Hər kəs bir həqiqəti qəbul edir ki, Azərbaycanın bütün sahələrdə əldə etdiyi uğurlar məhz Ümummilli Lider Heydər Əliyevin milli inkişaf strategiyasının həyata keçirilməsi nəticəsində mümkün olmuşdur.

Tarixdə nadir şəxsiyyətlərdən biri kimi iz qoyan Ümummilli Liderin xidmətləri və onun zəngin irsi həmişə dərin, əhatəli, ətraflı elmi əsaslarla öyrənilərək gələcək nəsillərə çatdırılacaqdır. Heydər Əliyevin gələcək üçün nəzərdə tutduğu iqtisadi ideyalar və arzular artıq gercəkliyə cevrilmiş, bütün mənalı həyatını öz xalqına bəxş etmiş dövlət xadimi kimi zəngin fəaliyyəti Azərbaycanın tarixində dərin iz buraxaraq əsl dövlət idarəciliyi məktəbinə cevrilmişdir. Hələ neçə-neçə nəsil bu böyük məktəbdən, Heydər Əliyevin zəngin siyasi irsindən ölkəmizin inkişafı, xalqımızın rifahı naminə faydalanacaqdır.

Buna görə də əminliklə deyə bilərik ki, istər çağdaş Azərbaycan tarixində, istərsə də xalqın yaddaşında Heydər Əliyevin adı müstəqil və suveren dövlətin banisi, dahi siyasətçi, misilsiz şəxsiyyət, cəsur insan, qeyri-adi zəka, fitri istedad sahibi, müdrik dövlət xadimi və əbədiyaşarlıq hüququ qazanmış ən böyük vətəndaş - azərbaycanlı kimi əbədi həkk olunub. Bu ad əsrlər boyu qalacaq və hər zaman dərin hörmətlə, ehtiramla anılacaqdır.

Heydər Əliyevin həmişəyaşar ideyalarına sadiqlik nümayiş etdirən sahibkarlarımız Azərbaycan iqtisadiyyatının inkişafında özəl sektorun rolunun qorunub saxlanmasında və inkişaf etdirilməsində səlahiyyətlərimiz daxilində əllərindən gələni əsirgəməyəcəklər.

***Məmməd MUSAYEV,***
***Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti***



# Heydər Əliyev İli 2023

## Milli Aviasiya Akademiyasında "Azərbaycanda nəqliyyatın aktual problemləri" XXIV Elmi-texniki tələbə konfransı keçirilib

**Mayın 4-də "Azərbaycan Hava Yolları" QSC-nin Milli Aviasiya Akademiyasında (MAA) Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr edilmiş "Azərbaycanda nəqliyyatın aktual problemləri" XXIV Elmi-texniki tələbə konfransı keçirilib.**




AZƏRTAC xəbər verir ki, əvvəlcə konfrans iştirakçıları Ümummilli Lider Heydər Əliyevin akademiyanın həyətindəki büstünün önünə əklil qoyub, əziz xatirəsini ehtiramla yad ediblər.

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi və "Azərbaycan Hava Yolları" QSC tərəfindən təşkil olunan konfransda 8 bölmə üzrə 170-ə yaxın məruzə dinlənilib. Tədbirə MAA-nın tələbələri ilə yanaşı, respublikanın digər ali təhsil müəssisələrinin, o cümlədən Bakı Dövlət Universiteti, Azərbaycan Texniki Universiteti, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Mingəçevir Dövlət Universitetinin tələbələri də qatılıblar.

Konfransı giriş sözü ilə açan akademiyanın birinci prorektoru professor Ədalət Səmədov Milli Aviasiya Akademiyasının rektoru akademik Arif Paşayevin konfrans iştirakçılarına salamlarını çatdırıb və gənc tədqiqatçılara uğurlar arzulayıb.

Qeyd olunub ki, Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə 2023-cü il "Heydər Əliyev İli" elan edilib. Akademiya bununla əlaqədar tədbirlər planı hazırlayaraq təsdiqləyib. Tədbirlər planına uyğun olaraq, akademiya "Heydər Əliyev və Azərbaycanın milli aviasiyası" kataloqunu, "Səma" jurnalının xüsusi nömrəsini hazırlayıb və dərc edib. Bundan başqa, "Heydər Əliyev zirvəsi"nə yürüş təşkil olunub, ağacəkmə aksiyası və müxtəlif intellektual oyunlar keçirilib. Hazırda akademiyada "Bir tələbə, bir layihə" konsepsiyası həyata keçirilir.

Prorektor diqqətə çatdırıb ki, müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyev hələ Sovet ittifaqı dövründə milli kadrların yetişməsini və Azərbaycanın inkişafına töhfə verməsini düşünmüşdü. Məhz Ulu Öndərin təşəbbüsü ilə 1970-ci illərdə minlərlə Azərbaycan gənci təhsil almaq üçün Rusiya və Ukraynanın ali məktəblərinə göndərilmişdi. Heydər Əliyev həmin gənclərin nadir peşə sahiblərinə çevrilməsini istəyirdi ki, respublikamızda geridə qalan sahələr gələcəkdə inkişaf etsin. Təsadüfi deyil ki, bu gün AZAL-da Heydər Əliyev dövründə təhsil almış 48 mütəxəssis çalışır.

Vurğulanıb ki, Ulu Öndər milli aviasiyanı da unutmamış, bu sahədə yüksəksəviyyəli kadrların yetişməsi istiqamətində səmərəli addımlar atmışdı. Müstəqillik dövründə Ümummilli Lider yeni hava limanlarının tikintisinə, aviasiya sahəsində təhsil sisteminin formalaşmasına, təyyarə parkının yenilənməsinə nail oldu.

Plenar iclasda akademiyanın İqtisadiyyat və hüquq fakültəsinin 4-cü kurs bakalavr tələbəsi İsmayıl Qəmbərli "Heydər Əliyev çağdaş Azərbaycan dövlətinin banisidir", Nəqliyyat texnologiyaları fakültəsinin tələbəsi Aytac Mustafayeva "Heydər Əliyevin Azərbaycan nəqliyyatının inkişafında rolu", Hava nəqliyyatı fakültəsinin magistr tələbəsi Qeybullah Məmmədov "Perspektiv mikro turboreaktiv mühərrikin yağlama sisteminin simulyasiyası", Fizika-texnologiya fakültəsinin tələbəsi İsrafil Süleymanov "Avtomobil tunellərində karbon qazının konsentrasiyasına nəzarət edən avtomatik sistem" mövzularında məruzələrlə çıxış ediblər.

Daha sonra "Ümummilli Lideri Bakıya gətirən pilotun 27 illik sirri" filmi nümayiş etdirilib.

Film ətrafında çıxışlarda AZAL-ın vitse-prezidenti, MAA-nın Hava gəmilərinin uçuş istismarı kafedrasının müdiri, Əməkdar pilot İlham Əmirov, "Tu 154" laynerinin kapitanı Firudin Əliyev və "Tu 154" və "Tu 134" hava gəmilərinin şturmanı Rafiq Məmmədov Ulu Öndər Heydər Əliyevlə bağlı xatirələrini bölüşüblər.

## "Heydər Əliyev və Milli Kitabxana" kitabının təqdimat mərasimi olub

**Mayın 4-də Heydər Əliyev Mərkəzində Azərbaycan xalqının Ümummilli Lideri, Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinin Milli Kitabxana ilə birgə nəşr etdiyi "Heydər Əliyev və Milli Kitabxana" kitabının təqdimat mərasimi keçirilib.**




AZƏRTAC xəbər verir ki, əvvəlcə Ulu Öndər Heydər Əliyevin 1995-ci il iyunun 3-də ilk dəfə Azərbaycan Milli Kitabxanasına gələrkən miniatür kitab sərgisinin açılışında və "Vətənə, dövlətə, xalqa sədaqət andı" kitabının təqdimat mərasimində çıxışı tədbir iştirakçılarının nəzərinə çatdırılıb.

Tədbirin moderatoru, Azərbaycan Mətbuat Şurasının sədri Rəşad Məcid Ulu Öndər Heydər Əliyevin Milli Kitabxanaya etdiyi səfərlərdən, kitabxanaya gəlişi zamanı öz şəxsi kitabxanasından 300 nüsxəyə yaxın kitab hədiyyə etməsindən bəhs edib. R.Məcidin sözlərinə görə, Milli Kitabxananın başlatdığı "Qarabağa kitabla gedək" layihəsini həmin ənənənin davamı olduğunu söyləmək olar.

Mədəniyyət nazirinin müavini Səadət Yusifli bildirib ki, bu gün ölkənin hər yerində Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi qeyd edilir. Heydər Əliyevin rəhbərlik etdiyi dövrü Azərbaycan mədəniyyətinin intibah dövrü hesab etmək olar.

S.Yusifli çıxışı zamanı Ulu Öndərin kitabxanaya etdiyi səfərlərdən bəhs edərək hər bir səfərin Milli Kitabxana üçün böyük əhəmiyyət daşıdığını və gözəl ənənənin əsasını qoyduğunu vurğulayıb: "Milli Kitabxanada bu gün elektron kataloq və elektron kitabxana inkişaf edir. Heydər Əliyevin qoyduğu ənənələrin davamı olaraq, 2004-cü ildə Prezident İlham Əliyevin imzaladığı sərəncamlarla kitabxanaların kitab təchizatı ilə bağlı məsələlərə xüsusi diqqət yetirilir. Ölkə başçısının müvafiq sərəncamlarına əsasən, Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi nəticəsində 6 milyondan artıq kitab çap edilərək kitabxanalara pulsuz paylanılıb. Mədəniyyət Nazirliyinin Milli Kitabxana ilə birgə nəşr etdiyi "Heydər Əliyev və Milli Kitabxana" kitabı xüsusilə əhəmiyyətlidir və Heydər Əliyevin 100 illiyinin məhz Milli Kitabxananın 100 illik yubileyinə təsadüf etməsi isə rəmzi məna daşıyır. İnanırıq ki, Milli Kitabxana növbəti illərdə də vəzifəsinin öhdəsindən layiqincə gələcək".

AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli çıxışında bildirib ki, təqdim olunan "Heydər Əliyev və Milli Kitabxana" kitabı Heydər Əliyevin kitabxana işi sahəsində professional xidmətlərini görməyə imkan verir. Heydər Əliyev bizim müstəqilliyimizin xilaskarıdır. Məhz onun qayğısı nəticəsində Milli Kitabxananın özəlləşdirilməsinin qarşısı alınıb. Bu kitab Heydər Əliyevə olan minnətdarlıq duyğusunu ifadə edir. Akademik bu kitabın həmin günlərin və Ulu Öndərin Milli Kitabxanaya olan 4 tarixi səfərinin canlı iştirakçısı olan professor Kərim Tahirov tərəfindən yazılmasının kitabın uğurlu alınmasına təsir edən əsas amillərdən biri olduğunu xüsusi qeyd edib.

Elm və təhsil nazirinin müavini Firudin Qurbanov bildirdi ki, Heydər Əliyevin mədəniyyətə verdiyi diqqətin səbəblərindən biri, onun kitabxanalara, kitaba, mütaliəyə verdiyi dəyərdən başlayır. "Heydər Əliyev və Milli Kitabxana" kitabında Heydər Əliyevin Milli Kitabxana ilə olan əlaqələrindən, onun kitabxanaya etdiyi səfərlərindən bəhs edilir. Bu kitab Heydər Əliyevin 100 illik yubileyinə böyük hədiyyədir.

Azərbaycan Yazıçılar Birliyinin birinci katibi, Xalq yazıçısı Çingiz Abdullayev qeyd edib ki, kitabda Heydər Əliyevlə bağlı çox maraqlı sitatlar və şəkillər yer alıb. Ulu Öndər mədəniyyətə çox böyük dəyər verirdi. Milli Kitabxana millətin sərvətidir. Kitabxananın bu gün çoxlu sayda oxucuları vardır və kitabxananın bugünkü tərəqqisində, uğurlu fəaliyyətində Ulu Öndərin böyük rolu var. Bu cür kitablar mütləq gələcək nəsillər üçün qorunub saxlanmalıdır.

ADU-nun rektoru, akademik Kamal Abdulla, Milli Məclisin deputatı, professor Anar İsgəndərov, AMEA-nın Mexanika və Riyaziyyat İnstitutunun baş direktoru Misir Mərdanov, BDU-nun Kitabxanaçılıq və informasiya fakültəsinin dekanı, dosent Ələmdar Cabbarlı, Naxçıvan Muxtar Respublikasının Bakı şəhərindəki Daimi Nümayəndəliyinin rəhbəri Bəxtiyar Əsgərov çıxışlarında Ulu Öndər Heydər Əliyevin Milli Kitabxanaya olan münasibətindən, "Heydər Əliyev və Milli Kitabxana" kitabının nəfis tərtibatından bəhs ediblər.

Qeyd edilib ki, Heydər Əliyev haqqında çoxsaylı kitablar, məqalələr yazılıb, filmlər çəkilsə də, onun irsi hələ də araşdırılmaqdadır.

Sonda "Heydər Əliyev və Milli Kitabxana" kitabının müəllifi, Milli Kitabxananın direktoru, professor Kərim Tahirov çıxış edərək bütün tədbir iştirakçılarına təşəkkürünü bildirib.

Qeyd edib ki, bu günlərdə Azərbaycan xalqı tarixi bir günü qeyd edir. Mayın 10-da nəinki Azərbaycanın, eləcə də dünyanın görkəmli və dahi şəxsiyyətlərindən biri olan Ulu Öndər Heydər Əliyevin doğum günüdür. Ümummilli Lider Heydər Əliyev kitaba, kitabxanaya, ədəbiyyata, milli-mənəvi dəyərlərimizə mühüm əhəmiyyət verirdi. Bunun nəticəsidir ki, Ümummilli Liderimiz milli mədəniyyətin ayrılmaz tərkib hissəsi olan kitabxana işinin inkişafı sahəsində xeyli işlər görüb.

K.Tahirov çıxışı zamanı Ulu Öndərlə bağlı qürur duyduğu məqamlardan və xatirələrindən bəhs edib.

## AHİK sədri: "Ulu Öndərin hakimiyyətə qayıdışı ilə həmkarlar ittifaqlarının həyatında köklü dəyişikliklər baş verib"

**Mayın 4-də Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) təşkilatçılığı ilə Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə "Heydər Əliyev və Azərbaycan həmkarlar ittifaqları" mövzusunda tədbir keçirilib.**



Tədbirdə Prezident Administrasiyasının Qeyri-Hökumət Təşkilatları ilə İş üzrə Kommunikasiya şöbəsinin əməkdaşı Əli Pənahov, Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti Məmməd Musayev və digər rəsmi şəxslər iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, Bakı Konqres Mərkəzində təşkil olunan tədbirdən əvvəl AHİK-in rəhbərliyi və kollektivi, həmçinin üzv təşkilatların rəhbərləri və əməkdaşları Fəxri xiyabanda Ulu Öndər Heydər Əliyevin xatirəsini dərin ehtiramla yad edib, məzarı önünə əklil və gül dəstələri qoyublar.

Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi ehtiramla anılıb, məzarı üzərinə gül dəstələri düzülüb. Həmçinin iştirakçılar görkəmli dövlət xadimi Əziz Əliyevin və tanınmış həkim-alim Tamerlan Əliyevin məzarları üzərinə gül dəstələri düzüblər.

Tədbirdə Azərbaycanın Dövlət Himni səsləndirildikdən sonra Ümummilli Lider Heydər Əliyevin və Vətən uğrunda canlarından keçən şəhidlərimizin xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Sonra Ulu Öndər Heydər Əliyevin siyasi fəaliyyətindən və həmkarlar ittifaqlarına göstərdiyi diqqət və qayğıdan bəhs edən videoçarx nümayiş olunub.

AHİK sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev çıxış edərək Ümummilli Lider Heydər Əliyevin həyatından və siyasi fəaliyyətindən, həm sovet dövründə, həm də müstəqil Azərbaycana rəhbərlik etdiyi illərdə xalqımız üçün gördüyü işlərdən, xilaskarlıq missiyasından, dövlət quruculuğu siyasətindən, həmkarlar ittifaqlarına göstərdiyi hərtərəfli dəstəkdən, verdiyi qiymətli tövsiyələrdən danışıb.

Bildirilib ki, xalqına, dövlətinə ən ali hisslərlə bağlı olan Heydər Əliyev bütün azərbaycanlıların Ulu Öndəri, Ümummilli Lideridir. Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi hər iki dövrdə dövlətçiliyimizin təməllərini elə mükəmməl formalaşdırıb ki, bu, yüzilliklər boyu ölkəmizin uğurlu inkişafını təmin etməyə imkan verib.

Qeyd edilib ki, Ulu Öndər hələ sovet hakimiyyəti illərində həmkarlar ittifaqlarını daim dəstəkləyir, onun hərtərəfli inkişafına şərait yaradırdı. Məhz onun respublikaya rəhbərliyi dövründə yeni istirahət mərkəzləri və sanatoriyalar, uşaq düşərgələri istifadəyə verilib.

"Heydər Əliyevin Azərbaycanda hakimiyyətə qayıdışı ilə həmkarlar ittifaqlarının həyatında köklü dəyişikliklər baş verib, kurort-turizm obyektlərinin genişləndirilməsinə, idman obyektlərinin, inzibati binaların yenidən qurulmasına başlanılıb, "Həmkarlar ittifaqları haqqında" qanun qəbul edilib. Beləliklə, təşkilatın fəaliyyəti genişlənib, əvvəlki nüfuzu özünə qaytarılıb", - deyə Səttar Möhbalıyev vurğulayıb.

Digər çıxış edənlər Ümummilli Lider Heydər Əliyevin Azərbaycan dövlətçiliyinin möhkəmlənməsində gördüyü işlərdən, onun müəyyənləşdirdiyi daxili və xarici siyasətin ölkəmizin inkişafına və möhkəmlənməsinə verdiyi töhfələrdən danışıblar. Natiqlər Ulu Öndərin həmkarlar ittifaqlarının inkişafına, təhsil, gənclər və idman sahəsinə olan xüsusi diqqətini qeyd ediblər.

Tədbirdə həmçinin Ümummilli Liderin layiqli davamçısı Prezident İlham Əliyevin müdrik rəhbərliyi ilə ölkəmizin əldə etdiyi nailiyyətlərdən, bütün sahələrdə qazanılan uğurlu göstəricilərindən, həmçinin Şərqi Zəngəzurun və Qarabağın Ermənistan işğalından azad olunmasında, hazırda həmin ərazilərdə aparılan abadlıq-quruculuq işlərindən danışılıb.

## Qərbi Azərbaycan İcmasında "Heydər Əliyevin milli dövlətçilik strategiyası" mövzusunda konfrans keçirilib

**Qərbi Azərbaycan İcmasında Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Heydər Əliyevin milli dövlətçilik strategiyası" mövzusunda konfrans keçirilib.**

AZƏRTAC xəbər verir ki, konfransı giriş sözü ilə açan Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin sədri, Milli Məclisin deputatı Əziz Ələkbərli xalqımızın xilaskarı, dahi şəxsiyyət, Ulu Öndər Heydər Əliyevin həyat və yaradıcılıq fəlsəfəsinin hər zaman Azərbaycana, xalqına sədaqətlə xidmət etmək, respublikamızı müstəqil dövlət kimi formalaşdıraraq dinamik inkişafını təmin etmək olduğunu bildirib. Deyib ki, Ulu Öndərin irsini daim öyrənmək, qorumaq, təbliğ etmək bugünkü, eləcə də gələcək nəsil üçün vacib məsələdir. Əziz Ələkbərli Ümummilli Liderin Qərbi Azərbaycandan olan qaçqınlara göstərdiyi qayğı və bu mövzuya ayırdığı diqqət barədə geniş danışıb.

Sonra Qərbi Azərbaycan İcmasının Müşahidə Şurasının sədri, Riyaziyyat və Mexanika İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü, fizika-riyaziyyat elmləri doktoru, professor Misir Mərdanovun "Heydər Əliyevin milli dövlətçilik strategiyası" mövzusunda məruzəsi dinlənilib. Vurğulanıb ki, Ümummilli Lider Heydər Əliyev 1969-cu ilin iyulunda Azərbaycana rəhbərliyə başladığı ilk gündən xalqına olan sevgisini və sədaqətini açıq şəkildə nümayiş etdirib. Məhz Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illərdə bugünkü dövlət müstəqilliyimizin möhkəm təməli qoyulub, milli ruh, azərbaycançılıq məfkurəsi yüksəlməyə başlayıb.

O, Ulu Öndərin SSRİ dövründə Azərbaycan xalqının maraqlarını hər şeydən uca tutduğunu xüsusi vurğulayıb. Heydər Əliyevin Mixail Qorbaçovun yeritdiyi səbatsız və anti-Azərbaycan siyasi xəttinə etiraz olaraq 1987-ci ildə tutduğu vəzifələrdən istefa verməsini, 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə sovet qoşunlarının Bakıda törətdiyi qətliamı pisləyən bəyanat verməsini və az sonra Sov.İKP sıralarını tərk etməsini bu müstəvidə qeyd edib.

İcmanın Nəzarət-Təftiş Komissiyasının sədri, Azərbaycan Auditorlar Palatasının sədri, iqtisad elmləri doktoru, professor Vahid Novruzov çıxışında Ümummilli Lider Heydər Əliyevin 20 Yanvar faciəsindən sonra böyük əngəllərə baxmayaraq, Azərbaycana qayıtması, əvvəl muxtar respublikanın Ali Məclisinin sədri, sonra 1993-cü ildə isə xalqın təkidli tələbi ilə dövlət başçısı seçilməsi ilə ölkənin müstəqilliyini, sabitliyini, təhlükəsizliyini və rifahının təmin edilməsindən bəhs edib.

İcmanın Ağsaqqallar Şurasının üzvü, Bakı Dövlət Universitetinin kafedra müdiri, AMEA-nın həqiqi üzvü, kimya elmləri doktoru, professor Abel Məhərrəmov vurğulayıb ki, müstəqilliyimizin ilk on ili ərzində Ulu Öndər Heydər Əliyevin uzaqgörən siyasəti sayəsində ölkənin müstəqilliyinin dönməz, əbədi və daimiliyi təmin edildi. Məhz Ümummilli Liderin səyləri nəticəsində müstəqil beynəlxalq ictimaiyyət Qarabağ məsələsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinə birmənalı dəstək ifadə etdi.

Ziyalılar Şurasının sədri, Sumqayıt Dövlət Universitetinin rektoru, professor Elxan Hüseynov bildirib ki, Ulu Öndərin Azərbaycana rəhbərliyi dövründə bütün sahələrdə nəhəng irəliləyişlər əldə olunub, "Əsrin müqaviləsi" imzalanıb, ölkəmiz qlobal enerji və nəqliyyat layihələrinin bilavasitə təşəbbüskarı olmağa başlayıb. Ümummilli Lider sahibkarlar üçün əlverişli investisiya mühiti yaradılmasına, mükəmməl qanunvericilik bazasının formalaşdırılmasına böyük diqqət ayırıb.

İcmanın Qadınlar Şurasının sədri, Milli Məclisin deputatı Məlahət Həsənova diqqətə çatdırıb ki, bugünkü Azərbaycanın banisi olan Ümummilli Lider Heydər Əliyev daim xalqımızın tarixində və qəlbində əbədi yaşayacaq, dahi şəxsiyyətin adı hər zaman sevgi və sayğı ilə anılacaq. Azərbaycan dövləti və xalqı Ulu Öndərin siyasi kursunu davam etdirən möhtərəm Prezident, xalq və ordu vəhdəti ilə ərazi bütövlüyümüzü yenidən bizə bəxş edən Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə bundan sonra da öz tarixinin şanlı səhifələrini yazacaq, zirvələr fəth etməkdə davam edəcək.

Sonra icmanın Qadınlar Şurasının sədr müavini, Teleradio Akademiyasının rektoru, AzTV Yayım Şurasının üzvü, Əməkdar mədəniyyət işçisi Telli Pənahqızı, icmanın İdarə Heyətinin üzvü, Azərbaycanın Milli Qəhrəmanı, general-mayor Fəxrəddin Cəbrayılov və icmanın Ağsaqqallar Şurasının üzvü, Azərbaycan Dövlət İqtisad Universitetinin kafedra müdiri, iqtisad elmləri doktoru, professor, Əməkdar müəllim Əvəz Ələkbərov Ümummilli Lider Heydər Əliyevin çoxşaxəli fəaliyyətinin ayrı-ayrı istiqamətləri üzrə çıxış ediblər.

Çıxışlarda Prezident İlham Əliyevin ölkənin ərazi bütövlüyünü bərpa etməsini, iqtisadi qüdrətini artırmasını və sosial-mədəni inkişafı təmin etməsini Ümummilli Liderin siyasi kursunun layiqli davamı kimi yüksək qiymətləndiriblər.



# Hayastan müharibədən dərs çıxarmalıdır

## Sülh istəməyən haylar bunun ağır nəticələrini də görəcəklər

***"Demişəm ki, əgər Ermənistan sülh istəmirsə, sülh olmayacaq".* Prezident İlham Əliyev mayın 3-də Qarabağın baş tacı Şuşadan dünyaya qətiyyətlə bəyan etdi ki, sülh müqaviləsinin bağlanmasını süni əngəllərlə yubatması elə Hayastanın özünə baha başa gələcək.**

Mədəniyyət paytaxtımızda Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Böyük Avrasiya geosiyasətinin formalaşması: keçmişdən bu günə və gələcəyə" mövzusunda dördüncü beynəlxalq konfransda dövlət başçısı onu da vurğuladı ki, bu, Ermənistan üçün yaxşı olmayacaq.

### Hay "taktika"sı - bir addım irəli, beş addım geri

Vətən müharibəsindən ötən iki ildən çox müddət ərzində Hayastan sülh müqaviləsinin imzalanması istiqamətində heç bir əməli addım atmayıb, əksinə, barışıq prosesinə əngəl olmaq üçün bəzi beynəlxalq havadarlarına güvənərək davamlı olaraq Azərbaycana qarşı hərbi və siyasi təxribatlar törədib. 10 noyabr üçtərəfli Bəyanatı ilə üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməyən və onun müddəalarını kobud şəkildə pozan Hayastan Qarabağda fəaliyyət göstərən qanunsuz erməni hərbi birləşmələrini hələ də ərazilərimizdən çıxarmayıb. Yalnız humanitar məqsədlər üçün nəzərdə tutulan Laçın yolundan hərbi təyinatlı yüklər daşıyaraq Qarabağdakı hərbi tör-töküntülərini silah-sursatla təmin edib, onların Azərbaycana qarşı təxribat törətmələrinə zəmin yaradıb. Bir sözlə, haylar xislətlərindəki xəbis əməllərə xas davranaraq bölgədə əldə olunacaq dayanıqlı sülhə mane olmağa çalışıblar.

Torpaqlarımızı işğal altında saxladıqları üç onillik ərzində ermənilər indi artıq tarixin arxivinə göndərilmiş Minsk qrupu ilə əlbir olub bu münaqişənin sonsuzadək uzadılmasına çalışmışdılar və hazırda da məkrli və hiyləgər hayların eyni üsuldan istifadə etmək niyyətləri göz qabağındadır.

Şuşadakı konfransda sözügedən məsələyə toxunan Prezident İlham Əliyev iştirakçıların diqqədinə çatdırdı ki, münaqişənin sülh yolu ilə həllini tapa bilməməsinin əsas səbəbi o idi, Ermənistan bunu istəmirdi: "Onlar sadəcə bu taktikadan istifadə edirlər, prosesi ləngidirlər, bir addım irəli, iki, üç və ya hətta beş addım geriyə atırlar. Onlar vəziyyətin olduğu kimi qalmasını və onu dondurmaq istəyirdilər".

### Haylar özlərinə yeni ağalar axtarır

Lakin BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi 4 qətnaməni özü icra edərək torpaqlarını işğaldan azad edən Azərbaycan ədaləti güc yolu ilə döyüş meydanında təmin etdi. Hayastan və ona qəhmər çıxan beynəlxalq qurumların "münaqişənin hərbi yolla həlli yoxdur" iddialarını alt-üst edərək real şəkildə göstərdi ki, sülh olmazsa, "dəmir yumruq" bu münaqişənin hərbi yolla həllini qətiyyətlə gerçəkləşdirməyə qadirdir.

Buna qədər isə özgə torpağına tamah salan haylar elə düşünürdülər ki, sülh danışıqlarını uzatdıqca Azərbaycanı işğalla barışmağa məcbur edə biləcəklər. Amma ötən zaman Azərbaycanın lehinə, Ermənistanın isə əleyhinə işləyirdi. Bir tərəfdə sürətlə inkişaf edən, siyasi, iqtisadi, hərbi, ümumiyyətlə, bütün sahələrdə müasir tərəqqiyə sahib olan və bölgədə söz sahibinə çevrilən Azərbaycan, digər tərəfdə isə gündən-günə uçuruma sürüklənən, bütün sferalarda iflasa uğrayan, müstəqilliyini itirərək boyunduruğunu onun-bunun əlinə verən Ermənistan var idi və elə hazırda da Hayastan bu vəziyyətdədir, hətta ondakından da pis.

Vətən müharibəsinin diktə etdiyi reallıqlar fonunda dalana dirənən, əli hər yerdən üzülən, güvəndiyi dağlara qar yağan Hayastan indi son çarəni sülh müqaviləsinin imzalanmasını yubatmaqda görür.

"Möcüzəni, dəyişiklikləri gözləyirlər. Hesab edirəm ki, onlar imkanları əldən verəcəklər. Çünki demək olar ki, otuzillik işğal onlara heç bir üstünlük vermədi. Əksinə, onlar regional inkişaf proseslərindən təcrid edildilər" deyən İlham Əliyev bildirdi ki, onlar rəsmən, lakin faktiki surətdə həqiqətən də müstəqil ölkə olmaq şansını itirdilər. Onlar indi özlərinə yeni ağa və ya ağalar axtarırlar. Lakin tarix onlara dərs verməlidir. Ümid edirik ki, onlar bunu başa düşəcəklər.

### Sülh sazişinin mətnində qondarma iddialar əks oluna bilməz

Müharibənin qalib tərəfi olmasına baxmayaraq, Azərbaycan Hayastana beynəlxalq hüquqa dayanan təkmil sülh modeli təklif edib. O da faktdır ki, əslində, sülh sazişi ilk növbədə elə Hayastanın marağına uyğundur. Çünki hazırda dalan ölkə olan Hayastan kommunikasiyaların açılması sayəsində müxtəlif bazarlara çıxış əldə etmək imkanı qazana bilər.

Lakin sülh prosesi ilə bağlı hadisələrin ötən müddət ərzində gedişatı onu göstərir ki, Hayastan 44 günlük müharibədən nəticə çıxarmayaraq, nəinki özünün qurtuluşu olan sülh müqaviləsini bağlamağa cəhd göstərir, hətta Azərbaycana qarşı ərazi iddiasından əl götürmədiyini açıq nümayiş etdirmək kimi ağılsız yol tutur.

Belə ki, sülh sazişinin layihə variantına hayların sonuncu şərhlərində yenə də Azərbaycana qarşı ərazi iddialarının mövcud olduğunu görürük və bu da bir daha göstərir ki, Ermənistan qətiyyən sülh istəmir.

Prezident İlham Əliyev mayın 3-də Şuşada sözügedən məsələyə toxunaraq vurğuladı ki, sülh sazişinin mətninə mövcud olmayan qondarma "Dağlıq Qarabağ Respublikası"nı salmaq üçün istənilən cəhd qeyri-məhsuldardır.

O da başqa reallıqdır ki, dövlət başçısının ifadə etdiyi kimi, 2020-ci il noyabrın 10-da bağlanan üçtərəfli Bəyanat nə atəşkəs haqqında razılaşma, nə də sülh sazişidir. Buna görə də Hayastan necə ki gec deyil, qıt ağlını başına yığıb tezliklə sülh müqaviləsini bağlamalıdır. Çünki sülh sazişinin bağlanmayacağı təqdirdə Azərbaycanın yox, elə Hayastanın özünün itirəcəyi çox şey var.

Vətən qibləmiz Şuşadan qalib lider İlham Əliyev açıq şəkildə bəyan edərək bildirdi ki, sadəcə, sülh olmayacaq, kommunikasiyalar açılmayacaq. Onlar yenə də təcrid olunacaqlar və onlar bu yeni geosiyasi konfiqurasiyada özlərinə yer tapmalı olacaqlar: "Çünki bütün geosiyasi vəziyyət, - söhbət təkcə regiondan deyil, qlobal vəziyyətdən gedir, - dəyişib. Bizim orada öz yerimiz var. Bu yer çox sabitdir və getdikcə daha da möhkəmlənir".

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Ümumavropa qaz təchizatçısı

## Azərbaycan qlobal enerji mərkəzinə çevrilir

**"Uzun illər bundan əvvəl Azərbaycanın nefti yoxdur deyənlər, indi Azərbaycanın qazı yoxdur deyirlər. Bu yaxınlarda mənə məlumat verildi ki, Avropa İttifaqının enerji məsələləri üzrə komissarı xanım Simson Azərbaycanı ümumavropa qaz təchizatçısı adlandırıb. Bu, doğrudur. Bu yaxınlarda mən söylədim ki, biz maksimum bir neçə ilə 10 ölkəni, o cümlədən 8 Avropa ölkəsini qazla təchiz edəcəyik".**

Bu sözləri Prezident İlham Əliyev Şuşada "Böyük Avrasiya geosiyasətinin formalaşması: keçmişdən bu günə və gələcəyə" mövzusunda beynəlxalq konfransda söyləyib. Dövlət başçısı bildirib ki, layihələri təkcə kommersiya nöqteyi-nəzərindən deyil, həm də strateji nöqteyi-nəzərdən planlaşdırmağa ehtiyac var.

Göründüyü kimi, Azərbaycan yalnız neft deyil, həm də qaz istehsalçısıdır. Eyni zamanda enerji sahəsində Avropanın etibarlı tərəfdaşıdır. Avropa İttifaqı növbəti qış aylarında qaz təchizatında problemlərlə üzləşəcəyini hesab etdiyi üçün Azərbaycan qazını daha çox nəql etməklə problemin qismən də olsa, həllinə çalışır.

Ötən ilin iyulunda Azərbaycan ilə Avropa İttifaqı arasında "Azərbaycan Respublikası ilə Avropa Komissiyası tərəfindən təmsil olunan Avropa İttifaqı arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu"nun imzalanması da bundan xəbər verir. Sənəd Aİ ilə Azərbaycan arasında enerji tərəfdaşlığını gücləndirməklə yanaşı, ölkəmizdən Avropa İttifaqına qaz təchizatını 2 dəfə artırmağı nəzərdə tutur.

Xatırladaq ki, "Cənub qaz dəhlizi" ilə 2021-ci ildə Avropaya 8,2 milyard kubmetr qaz nəql edilib. 2022-ci ildə bu göstərici 9,3 milyard kubmetr olub. Bu il ixrac olunan qazın həcminin 12 milyard kubmetrə çatdırılması proqnozlaşdırılır. Anlaşmaya görə, bu həcm 20 milyard kubmetrə çatdırılacaq. Növbəti illərdə isə Azərbaycan bu həcmi artırmaq niyyətindədir.

Bu potensialı nəzərə alaraq Avropa ölkələri Azərbaycanla əməkdaşlığa üstünlük verir. Son olaraq Sofiyada Bolqarıstan, Rumıniya, Macarıstan, Slovakiyanın ötürücü sistem operatorları və SOCAR arasında imzalanan anlaşma memorandumu da bu ölkələr arasında əməkdaşlığın gücləndirilməsində atılan növbəti addım kimi dəyərləndirilir.

### Azərbaycan 10-dan çox ölkəyə qaz ixrac edə bilər

"Cənub qaz dəhlizi" reallaşan zaman Azərbaycan mavi qazının 6 ölkəyə çıxarılması nəzərdə tutulurdu. İndi isə bunun coğrafiyası genişlənir. Ölkəmiz Avropanın ən azı 10 ölkəsinə enerji nəql edəcək. Ölkələrin sayı növbəti illərdə daha da arta bilər. Çünki enerji təhlükəsizliyini təmin etmək üçün, etibarlı tərəfdaş qismində Azərbaycana müraciət edən dövlətlərin sayı gündən-günə artmaqdadır.

Bu il Azərbaycanda 47,2 milyard kubmetr qaz hasilatı planlaşdırılır ki, onun da 24,5 milyard kubmetri ixrac üçün nəzərdə tutulur. Ötən il isə hasil edilən 46,7 milyard kubmetr qazın 22,3 milyard kubmetri ixrac olunmuşdu.

Azərbaycan İlham Əliyevin təşəbbüsü ilə həyata keçirilən böyük layihələrlə həm də gələcəyə yatırımlar edir.

Dövlət başçısı mayın 3-də Şuşada keçirilən konfransda çıxışında bu məsələyə də toxunaraq qeyd edib ki, Azərbaycan həmişə planlarını gələcəyi nəzərə alaraq tənzimləyib, çünki Ulu Öndər Heydər Əliyevin baxışı belə olub: "...Bakı-Tbilisi-Ceyhanın tutumu 50 milyon tondur. Yeri gəlmişkən, bu, heç vaxt belə olmayıb, bəlkə bir il buna yaxın olub. Lakin indi bizə Mərkəzi Asiyadan, Rusiyadan neft nəql olunur, bu mənbələrdən daha çox neft nəql olunacaq. Bizim "Şahdəniz"də kondensatımız var. Ümidvaram ki, bu il "Abşeron"dan və bir çox başqa yataqlardan kondensat hasil edəcəyik".

Prezident gələcək imkanlardan da söz açaraq vurğulayıb ki, gələcək qaz istehsalına və nəqlinə gəlincə, tezliklə bir neçə yeni yataq işə salınacaq. 300 milyard kubmetr həcmində "Abşeron"dan, minimum o həcmdə isə "Azəri-Çıraq-Günəşli"dən "dərin qaz" hasil ediləcək. İş artıq başlayıb.

Xatırladaq ki, hazırda "Cənub qaz dəhlizi"nin əsas hissəsi olan TANAP vasitəsilə 16 milyard kubmetr, TAP-la isə 10 milyard kubmetr qaz nəql oluna bilir. Amma TAP-ın illik ötürücülük gücünün 20 milyard kubmetrə qədər artırılma imkanı var. Avropada qaza olan tələbatın artması isə bu gücün artırılmasına zərurət yaradır.

### Ənənəvi enerjidən "yaşıl enerji"yə

"Cənub qaz dəhlizi" 4 layihəni - "Şahdəniz-2", Cənubi Qafqaz Boru kəməri (CQBK), Trans-Anadolu Boru Kəməri (TANAP) və Trans-Adriatik Boru Kəmərini (TAP) özündə birləşdirərək Avropaya qaz nəqlini həyata keçirir.

2.6 trilyon kubmetr həcmində qaz ehtiyatları olan, üç ilə yaxındır Avropaya mavi qaz ixrac edən Azərbaycan xüsusən Şərqi Avropa ölkələrinin enerji təminatında mühüm rol oynayır.

Ölkəmiz enerji sahəsində meqa-layihələrin təşəbbüskarı kimi çıxış edir. Qaz ixracatından əlavə, növbəti illərdə ölkəmiz bərpaolunan enerji istehsalçısına çevrilməklə Avropaya "yaşıl enerji" də ixrac edəcək.

Azərbaycanın bu sahədə də potensialı kifayət qədər böyükdür. Belə ki, quruda külək və günəş enerjisinin həcmi 27 qiqavatdan çox, Xəzər dənizinin Azərbaycan sektorunda isə külək enerjisi 157 qiqavat təşkil edir. Ölkəmiz strateji investorlardan biri ilə 2027-ci ilə qədər 3 qiqavat külək və 1 qiqavat günəş enerjisini istehsal etməyi planlaşdırır. Onların 80 faizi ixrac olunacaq.

Konfransda bərpaolunan enerji layihələri ilə bağlı məsələyə toxunan dövlət başçısı qeyd edib ki, Qara dəniz kabeli ilə bağlı ilkin hədəf 1 qiqavat idi. Azərbaycan layihəyə qoşulanda bu, 4 qiqavatadək artırılıb: "Çünki biz Azərbaycanda 25 qiqavat günəş və külək enerjisi istehsal olunması ilə bağlı artıq beynəlxalq şirkətlərlə müqavilələr və anlaşma memorandumları imzalamışıq. Beləliklə, bu aparıcı şirkətlərlə anlaşma memorandumları faktiki olaraq müqavilə deməkdir. Beləliklə, 25 qiqavat burada, Xəzər dənizində, quruda istehsal olunacaq və bizim tutuma, ötürməyə ehtiyacımız var. Əgər hər kəs bizim bu gün nələri təşviq etdiklərimizə qulaq asdısa, düşünürəm ki, Avropanın enerji təhlükəsizliyi daha yaxşı qorunacaq".

### Azərbaycanın bir çox dövlətin enerji təhlükəsizliyindəki rolu artır

Ümumilikdə, növbəti illərdə qaz hasilatımızın artacağı, yeni yataqlardan təbii qaz əldə olunacağı gözlənilir ki, bu da ölkəmizin enerji sahəsində böyük potensialını bir daha ortaya qoyacaq. Həmçinin qazla təchizat üçün dövlətimizlə əməkdaşlıq etmək istəyən ölkələrin sayı da artacaq.

Hazırda Azərbaycan Avropanın bir neçə ölkəsinə mavi qaz ixrac edir. Bütün lazımi interkonnektorlar olduğu halda isə bu ilin sonundan etibarən Azərbaycan qazı Macarıstana və Slovakiyaya da çatdırılacaq.

Təbii ki, artan qaz hasilatı, Prezident İlham Əliyevin təşəbbüsləri ilə həyata keçirilən meqa-layihələr, növbəti illərdə alternativ enerjinin ixracı sayəsində Azərbaycanın bir çox dövlətin enerji təhlükəsizliyinin formalaşmasındakı rolu da artacaq. Ölkəmiz Avrasiyanın qlobal enerji mərkəzinə çevriləcək.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Azərbaycanla hədə və terror dili ilə danışmaq olmaz

## Münasibətləri normallaşdırmaq istəyən İran əvvəlcə ölkəmizin tələblərini yerinə yetirməlidir

**Şuşada Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Böyük Avrasiya geosiyasətinin formalaşması: keçmişdən bu günə və gələcəyə" mövzusunda dördüncü beynəlxalq konfransda Prezident İlham Əliyevin cavablandırdığı suallardan biri də İranla əlaqələr barədə oldu. Dövlət başçısının dediyi kimi, Azərbaycanın tələbləri yerinə yetirilərsə, onda biz normallaşma haqqında danışa bilərik.**

### Ermənistanın nəfəsliyi

Azərbaycan İranla münasibətlərdə hər zaman səmimi olub. Xüsusən Cənubi Azərbaycanda on milyonlarla azərbaycanlının yaşadığını, bununla yanaşı, mənəvi yaxınlığı nəzərə alaraq Bakı cənub qonşusu ilə münasibətlərə xüsusi önəm verib. Xüsusilə qeyd edilməlidir ki, Azərbaycan İrana qarşı beynəlxalq sanksiyalara heç vaxt qoşulmayıb, habelə bu ölkənin daxilindəki vəziyyətə heç vaxt qarışmayıb.

İrana gəldikdə, bu ölkə Azərbaycanla münasibətlərdə özünü rəsmi formada səmimi göstərməyə çalışsa da, əslində, vəziyyət daim fərqli olub. Məsələn, bu ölkənin siyasi və hərbi dairələri hər zaman Azərbaycana qarşı davamlı olaraq "ideoloji mübarizə" aparıb, KİV-də mütəmadi olaraq azərbaycanlıları təhqir ediblər. Molla rejimi illər boyu dini təsir və digər vasitələrlə Azərbaycanın daxili işlərinə qarışmağa, Xəzərdə ölkəmizə təzyiqlər göstərməyə cəhd edib.

Bu gün özünü dünyada müsəlman təəssübkeşi kimi göstərən İran nədənsə Azərbaycan torpaqlarının işğal olunmasına heç vaxt etirazını bildirməyib. Hətta Şuşa Azərbaycan və Ermənistanın İranda danışıqlar apardığı bir vaxtda işğal olunmuşdu. Tədricən o da aydınlaşır ki, 1990-cı illərdə Ermənistanın Azərbaycan ərazilərinin işğalına dair planları ilə bağlı İranın əvvəlcədən məlumatı olub. Bu məkrli siyasətin davamı kimi onilliklər ərzində Ermənistana davamlı iqtisadi dəstək göstərib. Ermənilər boş yerə İranın onlar üçün nəfəslik olduğunu demirdilər.

Bütün bunlar İran rejiminin şimalda müstəqil Azərbaycan dövlətinin mövcudluğu ilə barışa bilməməsindən irəli gəlib.

### Fars-molla rejimi Azərbaycanın zəfərini həzm edə bilmir

Azərbaycanın zəfəri ilə başa çatan 44 günlük müharibə İranın hərbi-siyasi dairələrində şok effekti yaradıb. Qələbəmizi həzm edə bilməyən İranın molla rejimi müharibədən sonra yol verdiyi hərəkətlərlə həm də əsl simasını ortaya qoydu. Bir daha aydın oldu ki, İranın islam təəssübkeşliyi ilə yaxından-uzaqdan, ümumilyyətlə, heç bir əlaqəsi yoxdur və molla rejimi belə şüarların arxasında sadəcə gizlənibmiş. Əgər İran hakimiyyəti islam dəyərlərinə önəm versəydi, Qarabağ və Şərqi Zəngəzurda məscidlərin və digər dini dəyərlərin dağıdılmasına görə Ermənistana etirazını bildirərdi. Amma bunu etməyən İran Ermənistanda konsulluq açaraq bir daha əsl xislətini ortaya qoydu.

Prezident İlham Əliyevin İranın qeyri-dost və mənəvi dəyərlərlə ziddiyyət təşkil edən mövqeyi ilə bağlı konfransda diqqətə çatdırdığı faktlar, nömrəsi dəyişdirilmiş İran maşınları ilə Azərbaycanın Qarabağ bölgəsinə yüklərin daşınması, bu barədə ölkəmizin etirazlarına məhəl qoymayaraq qanunsuz yük daşımasını davam etdirməsi, sərhəddə hərbi təlimlər keçirməsi göstərdi ki, fars-molla rejimi Azərbaycanın zəfərini həzm edə bilmir. Ermənistanın ərazilərimizi 30 ilə yaxın işğalda saxladığı dövrdə bir dəfə də olsun Azərbaycanla sərhəddə hərbi təlim keçirməyən İranın Vətən müharibəsindən ötən qısa vaxt ərzində Azərbaycanla yaxınlıqda düz 3 dəfə hərbi təlim keçirməsi, tanklarla Araz çayının keçilməsini məşq etməsi, Ermənistanın sərhədlərini özünün "qırmızı cizgisi" elan etməsi təbii ki, Azərbaycana qarşı düşmənçilik etməkdən başqa heç bir məna vermir.

Azərbaycan güclü və qətiyyətli dövlətdir və təbii ki, İranın bu hərəkətləri cavabsız qala bilməzdi. Azərbaycan İranın yük maşınlarının Qarabağa qanunsuz səfərinin qarşısını aldı, üstəlik sərhədə yaxın hərbi təlimlər keçirərək istənilən təhdidə qarşı cavab vermək gücündə və imkanında olduğunu göstərdi.

### İlham ƏLİYEV: "Tələblərimiz legitim və əsaslıdır"

Bu ilin yanvarında Azərbaycanın səfirliyinə edilən hücum isə İranın terrorçu dövlət olmasını bir daha təsdiq etməklə yanaşı, münasibətlərin səviyyəsini minimuma endirdi. Səfirliyimizə edilən xain və terrorçu hücum elə Azərbaycana qarşı terror törətmək demək idi. Və ya bu hadisə elə Azərbaycan dövlətinə hücum etmək idi. Dövlət başçısının dediyi kimi, bu, diplomatlarımızı və onların ailə üzvlərini qətlə yetirmək məqsədilə qəsdən təşkil olunmuş terror aktı idi.

Daha sonra Milli Məclisin deputatı Fazil Mustafaya qarşı terror aktı törədildi. Hüquq-mühafizə orqanlarının apardığı araşdırmalardan sonra məlum oldu ki, bu hadisəni törədənlər təlimatları İrandan alıblar.

Bəli, bütün bunları edən müsəlman İrandır. İslam qaydalarını dövlət siyasəti edən, amma bir dəfə də olsun Qarabağdakı məscidlərin Ermənistan tərəfindən dağıdılmasına etirazını bildirməyən İran. O İran ki işğal dövründə məscidlərimizdə donuz saxlayan Ermənistanla bu gün ən yaxın tərəfdaş olub, ermənilərin təhlükəsizliyini özünün prioriteti elan edib. O İran ki islam dininin, müsəlmanların inanclarını təhqir edənləri Tehranda məscidlərə aparıb. Qadınla əl uzadıb görüşməyi haram sayanlar Paşinyanın donuz ətinə dəymiş əlini sıxmaqla, hətta üzünü öpməklə necə müsəlman olduqlarını göstərdilər.

Münasibətlərin normallaşması ilə bağlı İran rəsmilərindən bəzi məktubların alındığını, telefon danışıqlarının olduğunu deyən Prezident İlham Əliyev onu da bildirdi ki, birmənalı olaraq, tələblərimiz legitim və əsaslıdır: "Əgər bu tələblər yerinə yetirilərsə, onda biz normallaşma haqqında danışa bilərik. Əgər yox, bu, belə də qalacaq. Bir daha deyirəm ki, bu, bizim seçimimiz deyil. Lakin İranda hər kəs, bütün dairələr, nəhayət, anlamalıdır ki, hədə və terror dili Azərbaycanla işləməyəcək. Onlar bunu nə qədər tez anlasalar, biz normallaşma əlamətlərini bir o qədər tez görə bilərik".

Bu gün islam dünyasında məzhəb ayrı-seçkiliyinin, dini bölücülüyün geniş şəkildə baş qaldırması, bəzi müsəlman ölkələrində qanlı qarşıdurmaların yaranması məhz İranın yürütdüyü siyasətin nəticəsidir. Elə bu cür siyasətinə görə İranın həm islam, həm Qərb dünyası ilə münasibətləri gərgin olub və bu indi də davam edir. Azərbaycan isə güclü dövlətdir və İranın bütün məkrli planlarının qarşısı bundan sonra da qətiyyətlə alınacaq.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*

# Milli Məclisdə görüş



**Mayın 4-də Milli Məclisin Rusiya ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupu ilə ölkəmizdə səfərdə olan Rusiyanın Moskva Şəhər Dumasının deputatlarından ibarət nümayəndə heyəti arasında görüş keçirilib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Rusiya ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Nizami Səfərov Moskva Şəhər Dumasının sədri Aleksey Şapoşnikovun rəhbərlik etdiyi nümayəndə heyətini salamlayaraq onları Milli Məclisdə görməkdən məmnun olduqlarını bildirib.

Nizami Səfərov ölkələrimiz arasında diplomatik münasibətlərin qurulmasından ötən 30 il ərzində ticarət-iqtisadi, nəqliyyat, energetika, humanitar və digər sahələrdə yüksələn xətt üzrə inkişaf edən əlaqələrimizdən söz açıb. O, qarşılıqlı münasibətlərdə intensiv regional əməkdaşlığın inkişafına toxunub, Rusiya Federasiyasının subyektləri ilə ikitərəfli əlaqələrdən bəhs edib. Bildirib ki, bu günədək iki ölkə arasında geniş spektri əhatə edən dövlətlərarası və hökumətlərarası sənədlər qarşılıqlı əlaqələrin və əməkdaşlığın zəngin qanunvericilik bazasını formalaşdırıb. Vurğulanıb ki, Azərbaycan Prezidenti İlham Əliyevin və Rusiya Prezidenti Vladimir Putinin qarşılıqlı etibara əsaslanan münasibətləri əsasında əlaqələrimiz daim inkişaf edib, xüsusən də 2022-ci ilin fevralında imzalanmış "Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında" Bəyannamə münasibətlərimizi yeni səviyyəyə qaldırıb.

Nizami Səfərov görüşdə 44 günlük Vətən müharibəsindən sonrakı vəziyyət, Azərbaycanın regionda dayanıqlı sülhün bərqərar olması üçün gördüyü işlər və irəli sürdüyü təşəbbüslər barədə məlumat verib. Bildirib ki, regionda davamlı sülhün və iqtisadi əməkdaşlığın inkişafı üçün beynəlxalq hüququn prinsipləri əsasında sülh müqaviləsinin imzalanması vacibdir.

Moskva Şəhər Dumasının sədri Aleksey Şapoşnikov ölkələrimiz arasında münasibətlərin dinamik inkişafından danışıb. O, iqtisadi, ticarət, humanitar, təhsil sahələrində əlaqələrin bugünkü vəziyyətindən məmnunluğunu bildirib, bu sahələrdə əməkdaşlığın inkişaf potensialına toxunub.

Aleksey Şapoşnikov iki ölkə arasında əlaqələrin inkişafında qanunverici orqanların özünəməxsus rolunu qeyd edib, Milli Məclisin Sədri Sahibə Qafarovanın cari ilin fevralında Rusiya Federasiyasına rəsmi səfəri çərçivəsində imzalanmış "Azərbaycan Respublikası Milli Məclisi ilə Rusiya Federasiyası Federal Məclisi Dövlət Duması arasında əməkdaşlıq haqqında" Anlaşma Memorandumunun əhəmiyyətindən danışıb.

Milli Məclisin Rusiya ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri Mixail Zabelin, Əminə Ağazadə qonaqların səfərinin əlamətdar tarixə - Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü ərəfəsinə təsadüf etdiyini bildirərək Ulu Öndərin əziz xatirəsinin Rusiyada da hörmətlə anıldığını məmnuniyyətlə vurğulayıblar. Deputatlar Milli Məclisin Rusiya Federasiyası, həmçinin federasiyanın subyektləri ilə parlament əlaqələrinin dərinləşməsinə əhəmiyyət verdiyini bildiriblər, Azərbaycan və Rusiya arasında qarşılıqlı anlaşmaya əsaslanan münasibətlərin inkişafı ilə bağlı fikirlərini bölüşüblər.

Söhbətdə parlamentlərarası əməkdaşlığın müxtəlif aspektlərinə və tərəfləri maraqlandıran digər məsələlərə dair fikir mübadiləsi aparılıb.

Görüşdə Milli Məclisin deputatı Anar Məmmədov, Moskva Şəhər Dumasının deputatları Maqomet Yandiyev, Yelena Nikolayeva və digər rəsmi şəxslər iştirak ediblər.

*"Azərbaycan"*

# Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclası keçirilib

**Mayın 4-də Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin növbəti iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, komitə sədri Tahir Mirkişili iclasın gündəliyinə iki məsələnin daxil edildiyini deyib.**



Tahir Mirkişili gündəliyin birinci məsələsini - "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" qanunda dəyişiklik edilməsi barədə (birinci oxunuş) qanun layihəsini təqdim edib. O, layihənin Beynəlxalq Maliyyə Korporasiyası ilə bir yerdə hazırlandığını və beynəlxalq təcrübəyə əsaslandığını, sənədin əsas məqsədinin sahibkarların maraqlarının gücləndirilməsi ilə bağlı qanunvericiliyin təkmilləşdirilməsi olduğunu söyləyib.

Diqqətə çatdırılıb ki, layihədə "Yoxlama obyekti"nin anlayışı və onun əhatə dairəsi müəyyən olunur. Bu yanaşma imkan verəcək ki, yoxlama obyektinin hər hansı biri üzrə yoxlama aparıldıqda, sahibkarın fəaliyyəti bütövlükdə dayandırılmasın. Sənəddə habelə "Risklərin idarə olunması" anlayışı, onun strukturu, struktura daxil olan komponentlərin anlayışları verilir. Bu cür yanaşma risklərin idarə olunmasına aydınlıq, ardıcıllıq və şəffaflıq gətirəcək.

Qeyd olunub ki, qanuna yoxlayıcının və sahibkarın hüquq və vəzifələrini özündə ehtiva edən yeni 1-1-ci fəsil əlavə olunur. Həmçinin 6-1 və 6-2-ci maddələrin əlavə edilməsi təklif olunur ki, burada etik davranış qaydaları və maraqların toqquşmasının qarşısının alınması və yoxlayıcı orqanın fəaliyyətinin qiymətləndirilməsi ilə bağlı məsələlər öz əksini tapıb.

Qanun layihəsində dövlət qulluqçusu olmayan yoxlayıcıların fəaliyyətinin qiymətləndirilməsi qaydasına aydınlıq gətirilir. Qeyd olunur ki, dövlət orqanı ilə yanaşı, publik hüquqi şəxslər də yoxlayıcı orqan hesab olunduğundan, publik hüquqi şəxslərin fəaliyyətinin qiymətləndirilməsinin tənzimlənməsinə zərurət var. Bu isə öz növbəsində, yoxlayıcı orqan səlahiyyəti verilmiş publik hüquqi şəxslərin əməkdaşlarının fəaliyyətinə nəzarəti təmin etməklə onların məsuliyyətini artırır. Sənədə habelə təlim planlarına dair müfəssəl müddəaların əlavə edilməsi təklif olunur. Eyni zamanda illik planların məzmunu və hazırlanma müddətləri göstərilir. Bunlar yoxlayıcı orqanların fəaliyyətində şəffaflığın və məsuliyyətin artırılmasına xidmət edir.

Layihənin bir sıra maddələrində nəzərdə tutulan düzəlişlər yoxlamaların vahid məlumat reyestrinin aparılmasının təkmilləşdirilməsinə, bu prosesdə müəyyənliyin və şəffaflığın artmasına xidmət edir. Təklif olunan digər əlavələrə əsasən, yoxlama prosesində sahibkara səlahiyyətli nümayəndə vasitəsi ilə iştirak etmək hüququ verilir ki, bu da sahibkara yoxlama zamanı əsas fəaliyyəti üzrə işləri dayandırmamağa imkan verməklə, sahibkarlıq fəaliyyətinə rəhbərliyin fasiləsizliyini təmin edir.

Nəzərə çatdırılıb ki, qanun layihəsində nümunələrin dəyərinin ödənilməsi ilə bağlı təkliflər əks olunub. Təkliflərə əsasən, götürülən məhsul nümunələrinin dəyərinin ödənilməsi, onların saxlanılması, tədqiq edilən parametrlərin dəyişməz saxlanılması, daşınması, tədqiqi, alınmış nəticələr barədə məlumat verilməsi, məhsulun daha sonrakı satışı və ya utilizasiyası ilə əlaqədar yaranan xərclər yoxlayıcı orqan tərəfindən ödənilir.

Təklif edilən digər düzəlişlərdə məhdudlaşdırıcı tədbirin tətbiqi barədə qərarda göstərilən tədbirlərin yerinə yetirilməsinin yoxlanılması üçün şərt daxil edilir. Habelə yoxlayıcı orqanların qərarlarından və hərəkətlərindən şikayət verilməsi qaydası dəqiqləşdirilir. Qeyd edilir ki, qərarları və hərəkətləri barəsində şikayət olunan yoxlayıcı orqanların yuxarı dövlət orqanı olmadıqda, sahibkarlar müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana şikayətlə müraciət edə bilərlər.

Bildirilib ki, layihədə nəzərdə tutulan dəyişikliklər sahibkarların fəaliyyətinə edilən lüzumsuz müdaxilələrin və onların inzibati yükünün artmasının qarşısının alınmasına, ümumilikdə isə, sahibkarlığın inkişafına, biznes mühitinin daha da yaxşılaşdırılmasına xidmət edəcək.

İclasda iştirak edən İqtisadiyyat Nazirliyinin Sahibkarlığın inkişafı siyasəti şöbəsinin müdiri Elçin İbrahimov qanun layihəsi ilə bağlı fikirlərini açıqlayıb. O, sənədin geniş müzakirə olunduğunu deyərək onun sahibkarların yoxlamalar zamanı qarşılaşdıqları problemlərin aradan qaldırılmasına xidmət edəcəyini söyləyib.

Elçin İbrahimov diqqətə çatdırıb ki, növbəti addımda, yoxlamaların dayandırılmasının müddəti bitdikdən sonra tam olaraq qanunun işlək vəziyyətə gəlməsinə şərait yaranacaq. Bu prosesdə hər iki tərəfin - həm yoxlayıcıların, həm də sahibkarların hüquq və mənafelərinin, onların vəzifələrinin dəqiq müəyyən olunması təmin edilir.

Məsələ ətrafında aparılan müzakirələrdə çıxış edən komitənin sədr müavini Əli Məsimli, üzvləri Məşhur Məmmədov, Vüqar Bayramov, Vahid Əhmədov, Rüfət Quliyev, Məzahir Əfəndiyev, İqbal Məmmədov, Aydın Hüseynov təklif olunan dəyişiklikləri müsbət qiymətləndiriblər, qanun layihəsinin bu sahədəki məsələlərin təkmilləşdirilməsi baxımından əhəmiyyətindən bəhs ediblər. Deputatlar həmçinin bəzi qeyd və təkliflərini də səsləndiriblər.

Sonra İqtisadiyyat Nazirliyinin Sahibkarlığın inkişafı siyasəti şöbəsinin müdiri Elçin İbrahimov deputatların suallarını cavablandırıb. Müzakirələrin yekununda qanun layihəsi birinci oxunuşda Milli Məclisin plenar iclasına tövsiyə olunub.

İclasda Torpaq Məcəlləsində, Şəhərsalma və Tikinti Məcəlləsində, "Torpaq islahatı haqqında", "Energetika haqqında", "Torpaq icarəsi haqqında", "Dövlət torpaq kadastrı, torpaqların monitorinqi və yerquruluşu haqqında", "Torpaq bazarı haqqında", "Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında", "Bələdiyyə torpaqlarının ayrılmasına dair sənədlərin hazırlanması və razılaşdırılması qaydaları haqqında Əsasnamənin təsdiq edilməsi barədə" və "Elektrik enerjisi istehsalında bərpaolunan enerji mənbələrindən istifadə haqqında" qanunlarda dəyişiklik edilməsi barədə (ikinci oxunuş) qanun layihəsinə də baxılıb.

Komitə sədri Tahir Mirkişili layihədə adları göstərilən qanunlara təklif edilən dəyişikliklərin uyğunlaşdırma və dəqiqləşdirmə xarakterli olduğunu deyib. O, sənəddə eyni zamanda bərpaolunan enerji mənbələrindən elektrik enerjisi məqsədləri üçün torpaq sahələrinin əldə edilməsinin xüsusiyyətləri, müqavilələrin bağlanması şərtləri və müvafiq icra orqanlarının səlahiyyətləri ilə bağlı dəyişikliklərin nəzərdə tutulduğunu söyləyib.

Qanun layihəsi ikinci oxunuşda Milli Məclisin plenar iclasına tövsiyə olunub.

*"Azərbaycan"*

# Qafqazın qlobal əməkdaşlıq platforması

## İlham Əliyev Şuşadan bir daha dünyaya sülh mesajı verdi

**Mədəniyyət paytaxtımız Şuşa düşmənə gözdağı verən bərpa-quruculuq mərkəzi ilə yanaşı, beynəlxalq tədbirlərə, konfranslara evsahibliyi edən şöhrətli ünvana, dünyaya sülh və barışıq mesajlarının verildiyi unikal məkana çevrilib.**

İndi Şuşa həm də Qafqazın diplomatiya mərkəzi kimi tanınır. Mayın 3-də ADA Universitetinin təşkilatçılığı ilə Şuşada Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Böyük Avrasiya geosiyasətinin formalaşması: keçmişdən bu günə və gələcəyə" mövzusunda dördüncü beynəlxalq konfransın Şuşada təşkil olunması bunun bariz təcəssümüdür.

### Dördüncü Şuşa konfransı, 30-dan çox ölkə, 60-dək nümayəndə

Ümumiyyətlə, ADA Universitetinin 4-cü dəfə təşkil etdiyi bu beynəlxalq konfrans müstəsna və strateji əhəmiyyət kəsb edir. Bu tədbirə bir çox xarici ölkələrdən gələn iştirakçıların səviyyəsi və sayı həm geosiyasi, həm də geoiqtisadi proseslərlə bağlı məsələlərə böyük əhəmiyyət verildiyini göstərir. Heydər Əliyevin 100 illik xatirəsinə həsr olunmuş budəfəki konfransa 30-dan çox ölkənin 60-dək nümayəndəsinin qatılması, ilk növbədə Azərbaycanın artan nüfuzunun real təzahürü, həmçinin İlham Əliyevin yürütdüyü müstəqil siyasətin, etibarlı tərəfdaşlığın təntənəsidir.

Avrasiya regionunda gələcək tendensiyaların müzakirəsi baxımından mühüm əhəmiyyət daşıyan konfransda səslənən fikirlər daha sonra dünyanın bir çox ölkələrində məqalələr şəklində jurnallarda və sosial mediada işıqlandırılır.

Prezident İlham Əliyev beynəlxalq konfransdakı çıxışında Azərbaycan reallıqları, ölkəmizin enerji potensialı, həyata keçirdiyi qlobal layihələr, Qarabağ və Şərqi Zəngəzurdakı tikinti-quruculuq prosesi, dünya düzəni üçün nümunə sayılacaq Azərbaycan-Türkiyə münasibətləri, Avropanın enerji təchizatında ölkəmizin oynadığı rol barədə və Ermənistanla aparılan sülh danışıqlarındakı son vəziyyətlə bağlı ətraflı məlumat verdi.

İlham Əliyev həmçinin Türk Dövlətləri Təşkilatının fəaliyyətinə toxunaraq bildirdi ki, Azərbaycan bütün dövrlərdə təşkilatın güclənməsi üçün fəal rol oynayıb. Dövlət başçısı təşkilatın daha güclü quruma çevrilməsi üçün real imkanların olduğunu da vurğuladı: "Biz təşkilatı daha vacib beynəlxalq oyunçuya çevirə bilsək hər kəs bundan faydalanar. Bizim geniş coğrafiyamız, bəzi ölkələrdə böyük təbii sərvətlər, o cümlədən enerji ehtiyatları, bəzi ölkələrin güclü hərbi imkanları var. Beləliklə, biz bütün bu səyləri birləşdirsək, əlbəttə ki, qlobal səviyyədə ciddi oyunçu görə bilərik. Hesab edirəm ki, təşkilat qlobal güc mərkəzlərindən biri ola bilər və olmalıdır. Bir daha deyirəm, əhali, coğrafiya, nəqliyyat marşrutları, Avrasiya komponenti, enerji ehtiyatları var. Türkiyə NATO-nun ikinci böyük ordusuna malikdir. Azərbaycan öz hərbi imkanlarının olduqca yüksək olduğunu nümayiş etdirib. Bütün bu imkanları birləşdirsək, hər kəs bundan yalnız faydalana bilər".

### Orta dəhlizin nəhəng potensialı var

İlham Əliyev eyni zamanda Türkiyə və Azərbaycanı rəsmi olaraq müttəfiq edən Şuşa Bəyannaməsindən danışdı. Qeyd etdi ki, Şuşada imzalanan bu bəyannamə tarixi hadisə idi. Türkiyə lideri Rəcəb Tayyib Ərdoğanın rəhbərlik etdiyi dövlətlə son iyirmi ildəki əlaqələr iki ölkə rəhbərlərinin heyrətamiz siyasəti nəticəsində qardaşlıq münasibətindən müttəfiqlik zirvəsinə yüksəlib.

Konfransda eləcə də ölkə iqtisadiyyatını, beynəlxalq layihələri şərh edən dövlət başçısı "Bir kəmər, bir yol" təşəbbüsünün həmişə Azərbaycan tərəfindən dəstəkləndiyini və öhdəliyimizi yüksək səviyyədə yerinə yetirildiyini diqqətə çatdırmaqla bildirdi ki, Azərbaycan daim nəqliyyat infrastrukturunu müasirləşdirir. Çünki bu infrastrukturdan istifadə etməyə böyük maraq var. Azərbaycan eyni zamanda iriçaplı iqtisadi layihələrin davamı kimi Bakı-Tbilisi-Qars dəmir yolunun uzadılmasına əlavə vəsaitlər ayırır. Bu da qeyd olunduğu kimi, ölkəmiz tərəfindən gələcək əməkdaşlığın fəal şəkildə qiymətləndilməsi deməkdir.

Cənubi Qafqazın lideri, Şərqlə Qərbin arasında körpü rolunu oynayan Azərbaycan geosiyasi mövqeyindən maksimum yararlanaraq, regionlararası nəqliyyat-logistika imkanlarının genişləndirilməsi prosesində fəal iştirak edir və yeni-yeni qlobal təşəbbüslər irəli sürür. İkinci Qarabağ müharibəsindəki zəfərimizdən sonra Cənubi Qafqazda yaranan reallıqları dəyərləndirən qalib ölkə bu prosesə yeni töhfə vermək üçün ciddi işlər görür. Bunlar - bu ilin martın 11-də İranla imzalanan anlaşma memorandumuna əsasən yaradılacaq Şərqi Zəngəzur-Naxçıvan-İran dəhlizi və Vətən müharibəsindəki zəfərdən sonra açılması qətiləşən tarixi Zəngəzur dəhlizidir. Azərbaycan hər iki dəhlizin tezliklə reallaşmasında olduqca maraqlıdır. Bu ticari körpülərin qurulması ilə Azərbaycanın etibarlı tranzit ölkəsi kimi çoxtərəfli beynəlxalq əməkdaşlığa dəyərli töhfələr verdiyi bir daha təsdiqini tapacaq. Onu da vurğulayaq ki, hazırda Azərbaycan "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizləri layihələrinin fəal iştirakçısı olaraq həm də "Cənub-Qərb" və "Şimal-Qərb" layihələri üzərində iş aparır. Zəngəzur və ya Şərqi Zəngəzur-Naxçıvan-İran dəhlizinin açılması isə Orta dəhlizin (Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu) daha səmərəli və etibarlı marşurut olmasına mühüm töhfə verəcək.

Prezident Orta dəhlizin reallaşması prosesinə də toxunaraq Azərbaycanın üzərinə düşdüyü öhdəlikləri yerinə yetirdiyini söylədi: "Orta dəhliz layihəsi tərəfimizdən tam dəstəklənir və onun nəhəng potensialı var. Burada anlamaq lazımdır ki, biz yalnız yük daşımaları üçün tranzit marşrutu olmamalıyıq. Biz bu imkandan istifadə edərək, marşrutboyu biznes fəaliyyətini stimullaşdırmalıyıq. Orta dəhlizin tərkib hissəsi olan ölkələr yalnız tranzitdən gəlirin əldə olunması ilə kifayətlənməməlidirlər. Bu fürsətdən yerli istehsalın stimullaşdırılmasında istifadə edilməlidir. Bizim Ələt Azad Ticarət Zonasının gələcək fəaliyyəti ilə bağlı böyük gözləntilərimiz var. Zonanın güclü qanunvericilik bazası var, qaydalar, fikrimcə, investorlar üçün cəlbedicidir. İlkin infrastruktur hazırda yaradılır. Biz bundan istifadə edərək yeni istehsal sahələri və yeni biznes imkanları yaratmaq istəyirik".

### Avropanın etibarlı enerji təchizatçısı

Avropanın enerji təminatında açar rolunu oynayan Azərbaycan həyata keçirdiyi layihələrlə bir daha etibarlı tərəfdaş olduğunu dünyaya isbatlayır.

Bu gün İlham Əliyevin reallaşdırdığı qlobal layihələr Avropanın enerji təchizatında mühüm rol oynayır və bu da ölkə sərhədlərindən kənarda, özü də ən yüksək səviyyələrdə etiraf olunur. Bu prosesi dəyərləndirən İlham Əliyev deyir ki, Azərbaycanın başlatdığı və Avropa İttifaqının, o cümlədən tərəfdaş ölkələrin dəstəklədiyi enerji layihələri Avropanın enerji xəritəsini tamamilə dəyişib. Çünki Azərbaycan tərəfdaşları ilə birgə Xəzər dənizini Qara dəniz və Aralıq dənizi ilə birləşdirən neft kəməri çəkməklə yeni rekordlara imza atıb. Dünyanın geosiyasi və geoiqtisadi gündəmini düzgün qiymətləndirən dövlət başçısı verdiyi sözünə, vədinə sadiqliyi ilə Azərbaycana etibarlı tərəfdaş statusunu qazandırıb.

Hazırda Rusiya-Ukrayna müharibəsinə görə rəsmi Moskvaya tətbiq edilən sanksiyalar üzündən Avropanın enerji təminatında əsas ümidi Azərbaycana qalıb. Ötən ilin iyul ayının 18-də Azərbaycan ilə Avropa İttifaqı arasında "Azərbaycan Respublikası ilə Avropa Komissiyası tərəfindən təmsil olunan Avropa İttifaqı arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu"nun imzalanması da bir daha təsdiqlədi ki, Avropanın bu gün Azərbaycan qazına böyük ehtiyacı var.

Avropa İttifaqının enerji məsələləri üzrə komissarı xanım Simson Azərbaycanı ümumavropa qaz təchizatçısı adlandırıb. İlham Əliyev isə vurğulayıb ki, Azərbaycan Avropa ölkələrinə mümkün qədər çox qaz nəql etmək üçün bir sıra digər diplomatik addımlar atır: "Ümumilikdə, bizim Avropa Komissiyası ilə bir çox sahələri əhatə edən enerji dialoqumuz var - təkcə qaz deyil, buraya bərpaolunan enerji və yaşıl hidrogen daxildir. Yəni portfel olduqca genişdir. Konkret rəqəmlərə gəldikdə, anlaşma memorandumuna əsasən, biz 2027-ci il üçün qaz təchizatımızı iki dəfə artıracağıq. Bu, təqribən 20 milyard kubmetrdir. Hesab edirəm ki, bu, tamamilə realdır. Bu, real olmasa idi, biz onu imzalamazdıq. Hər hansı bir forsmajor baş verməsə, bu, tamamilə realdır. 2021-ci ildə bizim Avropa bazarına təchizatımız təqribən 8 milyard kubmetr idi. Bu il isə bu rəqəm 12 milyard kubmetr olacaq. Yəni iki ildə 8-dən 12-yə qalxıb və belə iri addımlarla irəliləsək, 2027-ci ildə 20 milyarda çata bilərik".

### Əgər Ermənistan sülh istəmirsə, sülh olmayacaq

Prezident həmçinin Ermənistanla sülh müqaviləsinin imzalanması ilə bağlı aparılan danışıqlara toxunaraq bildirdi ki, Azərbaycanın 5 prinsipli təklifi qarşı tərəfdən qəbul olunsa da, hələ nəticə yoxdur. Yəni Hayastan yenə də kimlərəsə arxayın olaraq sülh müqaviləsini imzalamaqdan yayınır. Ancaq bu prosesin uzanması yalnız məğlub ölkənin ziyanınadır: "Mən dəfələrlə bu məsələyə dair fikrimi bildirmişəm. Demişəm ki, əgər Ermənistan sülh istəmirsə, sülh olmayacaq. Tarixdən bilirik ki, sülh sazişini imzalamayan ölkələr də var. Bu, nə Ermənistan, nə də region üçün yaxşı olmayacaq. Əlbəttə ki, Azərbaycan üçün də yaxşı olmayacaq. Buna görə də biz hələ də ümid edirik ki, onlar məntiqli davranacaqlar, sabiq Minsk qrupu fəaliyyətdə olanda işğal zamanı istifadə etdikləri taktikadan istifadə etməyəcəklər".

İlham Əliyev bir daha Ermənistana və onun havadarlarına mesaj yollayaraq dedi ki, sülh sazişinə qondarma respublikanın adının daxil edilməsi mümkün olmayacaq: "Sülh sazişinin mətninə mövcud olmayan qondarma "Dağlıq Qarabağ Respublikası"nı salmaq üçün istənilən cəhd qeyri-məhsuldardır. Buna görə biz onların konstruktivliyinə ümid edirik. Əgər onlar konstruktiv olmasalar, biz diplomatik tədbirlərdən başqa hər hansı bir digər tədbirlərə əl atmağı planlaşdırmırıq. Bu qədəri bizə bəsdir. Buna görə, sadəcə, sülh olmayacaq, kommunikasiyalar açılmayacaq. Onlar yenə də təcrid olunacaqlar və onlar bu yeni geosiyasi konfiqurasiyada özlərinə yer tapmalı olacaqlar. Çünki bütün geosiyasi vəziyyət, - söhbət təkcə regiondan deyil, qlobal vəziyyətdən gedir, - dəyişib. Bizim orada öz yerimiz var. Bu yer çox sabitdir və getdikcə daha da möhkəmlənir. Lakin onlar üçün bu, böyük çağırış olacaqdır. Ümid edirəm ki, Vaşinqton danışıqları hətta nəticə verməsə belə, biz tərəqqinin əlamətlərini görə biləcəyik".

Bir sözlə, Azərbaycan liderinin Şuşada keçirilən dördüncü beynəlxalq konfransda səsləndirdiyi fikirləri Ermənistan, o cümlədən sülh yaratmaq istəyən digər ölkə və təşkilatlar tərəfindən düzgün təhlil edilməli, regionun təhlükəsizliyi üçün Azərbaycanın yaratdığı reallıqlardan nəticə çıxarmalıdırlar. Çünki Azərbaycan ənənəvi olaraq tələblərində həmişə haqlı tərəf olub və öz ərazi bütövlüyünü qorumaq ölkəmizin suveren hüququdur.

Hər zaman verdiyi vədlərə, səsləndirdiyi fikirlərə sadiqliyi ilə seçilən Azərbaycan Prezidenti İkinci Qarabağ müharibəsindəki şanlı zəfərdən sonra regionda yaranmış reallıqlar fonunda yeni missiyasını həyata keçirməyə - Cənubi Qafqazda sülhün, sabitliyin təmin edilməsinə, müasir əməkdaşlıq platformalarının yaranmasına çalışır. Bütün bunlar İlham Əliyevin son dövrlərdə keçirdiyi bütün görüşlərdə, tədbirlərdə, konfranslarda səsləndirdiyi fikirlərdə də təsdiqini tapır.

Beynəlxalq birlik, müxtəlif dövlətlər və təşkilatlar tərəfindən səslənən fikirlərə də əsaslanaraq deyə bilərik ki, Azərbaycan Prezidentinin bu addımı təqdir edilir. İlham Əliyevin söylədiyi kimi, regionda dəyişən reallıqları hətta vasitəçilər də etiraf edirlər.

Bu gün İlham Əliyev Ümummilli Lider Heydər Əliyevin müəllifi olduğu müstəqil və milli maraqlara əsaslanan siyasət kursunu sürətlə dəyişən dünyanın geosiyasi reallıqlarına adekvat olaraq çevik, innovativ və hücum taktikasına əsaslanmaqla davam etdirir.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Vaşinqton danışıqları Hayastanın son şansıdır

**Xəbər verildiyi kimi, ABŞ-nin vasitəçiliyi ilə Vaşinqtonda Azərbaycan və Hayastan xarici işlər nazirləri arasında görüşlər keçirilib və "Sülh sazişi" layihəsi üzrə danışıqlar aparılıb. Mövzu ilə bağlı qəzetimizə açıqlama verən Milli Məclisin deputatlarının sözlərinə görə, Vaşinqton görüşləri Azərbaycan-Hayastan münasibətlərinin normallaşması baxımından vacib idi.**





### Bu görüşlər bütün region ölkələri üçün əhəmiyyətlidir

Milli Məclisin deputatı Arzu Nağıyev deyib ki, bir neçə gün davam edən Vaşinqton görüşləri mühüm əhəmiyyət kəsb edir. Deputatın sözlərinə görə, Azərbaycanla Hayastan arasında danışıqlar bir neçə masada həyata keçirilir. Bunlardan ən mühümü isə ABŞ müstəvisində keçirilən görüşlərdir. Həmin danışıqlar zamanı səsləndirilən fikirlər, ümumiyyətlə, ABŞ-nin belə təşəbbüsü onların Cənubi Qafqazda sülhə maraqlı olduğunu göstərir. "Əsas məqamlardan biri də Rusiyanın bu məsələyə reaksiyasıdır. Fikrimcə, Rusiya da Cənubi Qafqazda sülhün bərqərar olmasında maraqlı olmalı, bu istiqamətdə atılan addımları dəstəkləməlidir. Azərbaycanla Hayastan arasındakı danışıqların sülhlə nəticələnməsi təkcə ölkəmiz üçün deyil, bütün regionumuz üçün əhəmiyyətlidir. Biz sülh müqaviləsi çərçivəsində daxili məsələmiz olan Qarabağ haylarının cəmiyyətimizə inteqrasiyası prosesini də nizama salmalıyıq", - deyə A.Nağıyev deyib.

Deputat bildirib ki, Prezident İlham Əliyevin də qeyd etdiyi kimi, əgər bu danışıqlar alınmazsa, haylar özləri bundan zərər görəcəklər: "Bu baxımdan Vaşinqton görüşlərini ciddi qəbul etməlidir. Vəziyyətdən maksimum faydalanmaq lazımdır. Əgər ABŞ danışıqların bir neçə mərhələdə keçirilməsini təmin edirsə, bu mühüm məsələdir. Eyni zamanda ABŞ müstəvisi ilə yanaşı, Avropa və Rusiya məkanında da danışıqlar aparılmalıdır. Nəzərə almaq lazımdır ki, hər bir istiqamətdə aparılan danışıqların özünəxas siyasi əhəmiyyəti və maraqları var. Lakin istənilən halda Azərbaycan bütün görüşlərdə qəti və prinsipial mövqeyini ifadə edir, sülhə hazır olduğunu nümayiş etdirir".

### Hayastan ərazi iddialarından əl çəkməlidir

Milli Məclisin deputatı Tural Gəncəliyev bildirib ki, Azərbaycan və Hayastan rəsmiləri arasında ilk dəfədir ki, danışıqlar belə intensiv, bir neçə gün davam edir. Bu danışıqların nəticəsinin müsbət olacağına, təklif etdiyimiz əsas şərtlərin qəbul ediləcəyinə, regionda sülhün yaranması üçün Hayastanın da dəstək verəcəyinə ümid edirik. Belə rəsmi görüşlərin nəticəsinin ölkəmiz və bütövlükdə region üçün faydalı olmasının fərqindəyik. "Hayastan reallığı dərk və qəbul edərək Qarabağın Azərbaycanın tərkib hissəsi olduğunu rəsmi şəkildə bildirməlidir. Azərbaycan sülh istəyir, lakin bu, daha çox Hayastana lazımdır. Onlar sülhə bizdən daha çox meyilli olmalıdırlar. Acınacaqlı məğlubiyyət, düşdükləri çətin vəziyyət ona dəlalət edir ki, Hayastan nəinki Azərbaycanla, eləcə də Türkiyə və digər qonşuları ilə də normal münasibət qurmalıdır. Onlar beynəlxalq prinsiplərə riayət etməli, digər ölkələrə qarşı ərazi iddialarından əl çəkməlidirlər. Yəqin ki, Vaşinqton danışıqlarının nəticələri ilə yaxın günlərdə tanış olacağıq", - deyə deputat qeyd edib.

Tural Gəncəliyev deyib ki, Hayastan bu danışıqlardan sonra da yenə təxribatlara əl atarsa, Azərbaycan və Türkiyəyə qarşı ərazi iddiaları ilə çıxış edərsə, deməli, bu ölkənin sülh istəməsi yalnız sözdədir: "Onlar əməldə sülhə maraqlı olduqlarını sübut etmirlər. Ümumiyyətlə, biz müxtəlif görüşlərdən sonra Hayastanın təxribatlara əl atdığını, müsbət atmosferi pozmağa çalışdığını, gərginlik mühiti yaratdığını mütəmadi müşahidə edirik. Budəfəki görüşdən sonra isə Hayastanın belə addımlar atmayacağına ümid edirik. Hayastan başa düşməlidir ki, sülh əldə olunarsa, onlar 30 illik təcriddən çıxacaq, sərhədlər açılacaq, iqtisadiyyatları güclənəcək. Deməli, regional əməkdaşlıq, sülhün bərqərar olması elə ilk növbədə Hayastana lazımdır".

Deputatın sözlərinə görə, Azərbaycanın regionun ən inkişaf etmiş ölkələrindən biri kimi güclü iqtisadiyyata malik olduğunu nəzərə almaq lazımdır. Yəni Azərbaycan kimi güclü dövlətlə əməkdaşlıq etmək Hayastanın özünə lazımdır. Hayastan rəhbərliyi yalnız sivil əməkdaşlıq sayəsində rəzil duruma düşmüş ölkəsinin və vətəndaşlarının sosial rifahını yaxşılaşdıra bilər.

*Nəzrin QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Mingəçevirli qazi razılıq edir

**Səhhətində yaranmış problemlə əlaqədar Birinci Qarabağ müharibəsi qazisi, ikinci qrup əlil Ayaz Salahbanov Mingəçevir Şəhər Mərkəzi Xəstəxanasına müraciət etdikdə ona ürəyindən əməliyyat olunmasının vacibliyi bildirildi.**



O, icbari tibbi sığortanın xətti ilə Gəncə şəhərində ürəyindən açıq əməliyyat olundu və artıq evinə qayıdıb.

Bu günlər səhhəti, ehtiyacları, problem və qayğıları ilə maraqlanmaq üçün Mingəçevir Şəhər İcra Hakimiyyətinin başçısı İlham İsmayılov YAP şəhər təşkilatının sədri Bəxtiyar Mustafayevlə birlikdə qazini ziyarət edib. İ.İsmayılov bildirib ki, dövlət başçısı İlham Əliyevin tapşırığına əsasən, Qarabağ müharibəsi şəhidlərinə, qazilərə, veteranlara daim diqqət və dəstək göstərilir: "2020-ci ildə 44 günlük Vətən müharibəsi zamanı Silahlı Qüvvələrin Ali Baş Komandanının rəhbərliyi ilə aparılan uğurlu döyüş əməliyyatları məhz Birinci Qarabağ müharibəsində şücaət göstərən vətən övladlarının başladıqları mübarizənin davamı oldu. Döyüşlərdə şücaət göstərən, ölümdən qorxmayan, torpaqlarımızın qorunmasında, azad olunmasında xidmətləri olan hər bir vətən övladı xalqımızın baş tacıdır".

Ayaz Salahbanov da öz növbəsində dövlət tərəfindən hər cür köməyə görə minnətdarlığını bildirib: "Yaşadığım bu mənzil mənə Prezidentimiz tərəfindən verilib. Sağ olsun! Səhhətimdə yaranan problemə gəldikdə deyim ki, həkimlərimizin şəfalı əlləri sayəsində aparılan uğurlu əməliyyatdan, tibb işçilərinin xüsusi qayğıkeşliyi və göstərilən xüsusi diqqətdən razıyam. Xalqımıza, ölkəmizə əmin-amanlıq, inkişaf və tərəqqi arzulayıram, Allah yurdumuzu qorusun!"

*Lazım QULİYEV,*
*"Azərbaycan"*

## 5 May Əlillərin Hüquqlarının Müdafiəsi Günüdür

**Azərbaycan sosial dövlətdir. Bunu ölkəmizdə aparılan islahatlar, görülən işlər, Prezident İlham Əliyevin sosial müdafiə sahəsinə, həssas qruplara xüsusi diqqət və qayğısı, əlilliyi olan şəxslərin sosial təminatı, onların tibbi-sosial reabilitasiyası və cəmiyyətə inteqrasiyası sahəsində gördüyü işlər, dövlət siyasətinin ildən-ilə güclənməsi deməyə əsas verir. 2006-cı ildə "Əlilliyi olan şəxslərin hüquqları haqqında" BMT-nin Konvensiyasına qoşulan Azərbaycan əlilliyi olan şəxslərin hüquqlarının təmin olunması, onların sağlamlıqlarının bərpası, reabilitasiyası, sosial rifahının yaxşılaşdırılması istiqamətində fəal və məqsədyönlü siyasət həyata keçirən ölkələrdən biridir.**






# Vətəni qəlbin gözü ilə sevməyi bacaranlar





























Əhalinin həssas təbəqəsi olan əlillər birbaşa dövlət nəzarətindədirlər. Onlara olan qayğı və diqqət ilbəil daha da artırılır. Əlillərin məşğulluğunu təmin etmək, normal həyatın fəal iştirakçıları olmaları üçün təxirəsalınmaz tədbirlər görülür. Bu məqsədlə ardıcıl olaraq reabilitasiya və yaradıcılıq mərkəzləri yaradılır. Belə müəssisələrdən biri də Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə sosial cəhətdən həssas qrupların yaradıcı potensialının, istedadlarının, digər bacarıqlarının ortaya çıxarılması və inkişafı, cəmiyyətə təqdim olunması, onların sosial inteqrasiyası məqsədilə yaradılmış, 2021-ci ilin oktyabr ayında açılış mərasimində Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyevanın iştirak etdiyi DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzidir.

Direktor vəzifəsini müvəqqəti icra edən Nigar Məmmədova bizə mərkəz haqqında məlumat verərək qeyd etdi ki, burada əlilliyi olan şəxslərə, şəhid ailələrinin üzvlərinə, müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş insanlara və onların övladlarına, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlara və digər həssas qruplara xidmət göstərilir. Cənubi Qafqazda ilk dəfə olaraq kifayət qədər çoxşaxəli fəaliyyət sahələrini əhatə edən ən böyük inklüziv yaradıcılıq və inkişaf məkanı olan bu mərkəz 121 nəfərlik auditoriyadan, müxtəlif peşə-yaradıcılıq otaq və studiyalardan, kitabxanadan, inzibati otaqlardan, yeməkxanadan ibarətdir. Burada rəqs, təsviri incəsənət, dulusçuluq, musiqi, dərzilik, modelyerlik, xalçaçılıq, toxuma və tikmə, bədii oyma, floristika, bağçılıq və landşaft dizaynı, audio-səsyazma və media, fotoqrafiya sənəti, kulinariya, səhnə ifaçılığı, badminton, publisistika daxil olmaqla, 14 fəaliyyət istiqaməti üzrə təlimlər keçirilir.

Benefisiarlarımızın həyatlarının rəngarəng və maraqlı keçmələri üçün ötən dövrdə DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzində Birinci Qarabağ müharibəsinə və zəfərimizə həsr olunmuş "Köhnə çamadanlar" filminin, İnklüziv ƏSA teatrının iştirakı ilə Molyerin "Xəsis" pyesinin motivləri əsasında hazırlanmış "And" tamaşasının, "Oyun" teatr studiyası ilə əməkdaşlıq çərçivəsində C.Cabbarlının "Solğun çiçəklər" dramı əsasında hazırlanan "Solğun sevgilər" tamaşasının, A.P.Çexovun eyniadlı pyesi əsasında hazırlanmış "Təklif " tamaşasının təqdimatları, autizmlə bağlı "Fərqliliyə qucaq aç" adlı sərgi-satış yarmarkası və konsert proqramı, DOST Könüllülərinin 3 illiyinə həsr olunmuş "Sosial Könüllülər Forumu", Azərbaycan-Yaponiya münasibətlərinin 30 illiyi ilə əlaqədar "True Colors Festival"ı, Badminton Federasiyası ilə əməkdaşlıq çərçivəsində Şən İnklüziv Badminton festivalı keçirilib və bu tədbirlər ictimaiyyət tərəfindən maraqla qarşılanıb. N.Məmmədova dedi ki, hazırda Ulu Öndər Heydər Əliyevin 100 illiyi ilə əlaqədar musiqili tədbir keçirməyi planlaşdırırıq və bu sahədə ciddi iş gedir.

Mərkəzlə tanışlığımız bədii oyma otağından başlayır. Xatırladaq ki, burada təlimçilərin əksəriyyəti də fiziki cəhətdən qüsurlu şəxslərdir. Asif Qasımov öz yetirmələrinə ağac üzərində bədii oyma sənətinin sirlərini öyrədir. Bəri başdan qeyd edək ki, otağa girər-girməz, özümüzü sehirli bir aləmə, əsl sənət dünyasına düşmüş kimi hiss etdik. Hətta təəccübümüzü belə gizlədə bilmədik. Burada ağacdan hazırlanmış sənət nümunələri adamı valeh edir. Asif müəllim deyir ki, 9 ildir ağac üzərində bədii oyma sənəti ilə məşğuldur. İlyarımdır ki, burada çalışır. Asif müəllim işindən məmnunluqla danışır. Deyir ki, çox sevinirəm ki, buraya gələn ipə-sapa yatmayan əlillər həm sənət öyrənir, həm də bu müqəddəs ocağı özlərinin ikinci evləri bilirlər. Təlimlər başa çatdıqdan sonra da bizimlə əlaqəni kəsmirlər.

Asif Qasımov hazırda ağac üzərində "Qarabağa gedən yollar" kompozisiyasının üzərində çalışır. Kompozisiyada Şuşanın və qələbəmizin simvolu Xarıbülbül, Ağdam Cümə məscidi və Zəngilanda yerləşən Gövhər ağa türbəsi öz əksini tapıb. Asif Qasımov əsəri "Heydər Əliyev İli"nə həsr etdiklərini söyləyir. Eyni zamanda iftixarla yetirmələri Elvin Lazımov, Orxan Qurbanov, Rüfət Hüseynov, Ruslan Abışov, Şəms Əhmədova ilə qürur duyduğunu dilə gətirir. Adlarını çəkdiyi benefisiarların sərgisi təşkil olunanda, hər hansı sənət uğuruna imza atanda özünü dünyanın xoşbəxti sanır.

Nigar xanım məlumat verir ki, əlilləri kurslara qəbul edərkən yaradıcılıq imkanlarını öyrənib onlara istiqamət veririk. Bəzən elə olur ki, gələnlərdən kimsə "ixtisas" seçimində yanlışlıq edir. Müsiqi duyumu yaxşı olduğu halda kulinariya ilə məşğul olmaq istədiyini deyir. Bu zaman psixoloqlarımız, təlimçilərimiz onlara öz məsləhətlərini verib daha düzgün istiqamətə yönləndirirlər.

Xalçaçılıq otağındayıq. Təlimçi Ayturan Əliyeva benefisiar Səda Babayeva ilə "Heydər Əliyev İli"nə həsr olunan Quba xalçaçılıq məktəbinə aid Pirələdil xalçasının eskizləri üzərində çalışırlar. Öyrənirik ki, Ayturan xanım benefisiarları ilə birlikdə "Şuşa qalası", "Yuxarı Gövhər ağa məsçidi", "Toy", "Qız qalası", "Əsrin müqaviləsi", "Mənim Azərbaycanım", "Günəş rəngli qız qalası", eləcə də "Nar" kompozisiyasının eskizlərini hazırlayıblar. Eləcə də onların hazırladıqları eskizlər əsasında xalçalar toxunub.

Mərkəzin keramika studiyası da çox maraqlı əl işləri ilə zəngindir. Gözdən əlilliyi olan benefisiarların hazırladığı əl işlərini əsl sənət nümunəsi hesab etmək olar. Təlimçilər Cahan Namazova və Ruhəngiz Bağırova bizə Təranə Əliyevanın işini təqdim edərkən bildirdilər ki, onun görmə qabiliyyəti çox aşağıdır. İşığı güclə hiss edir. Amma o, fitri hissetmə qabiliyyəti ilə əsl möcüzə yaradır. Hüseyn Hüseynovun keramikadan hazırladığı "Neft Daşları" və "Zəfər günü" əl işlərinə heyranlıqla baxmamaq olmur. İki gözdən tam əlil olan Müqəddəs Həmzəzadənin hazırladığı dekorativ güldan olduqca diqqətçəkən və düşündürücüdür. Hər iki gənc fiziki qüsurlu gənclərlə işlədiklərindən məmnunluqlarını ifadə edirlər. Onların fiziki qüsuru var. Hər biri öz dünyası olan üstün zəkalı insanlardır dedilər.

Biz DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzində olarkən təsviri incəsənət və musiqi otaqları ilə də tanış olduq. Əlillərlə respublikanın tanınmış sənət ustaları Natiq Şirinov, Şəhriyar İmanov, Elnur Mikayılov və gitara ustası, gözdən əlil Fərqan Arifoğlu məşğul olurdular. Bizimlə söhbətində Fərqan dedi ki, çox mötəbər bir tədbirə hazırlaşırlar. Bu konsert, tamaşa əsl hadisə olacaq.

Biz DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzindən ayrılanda əlillərdən kimsə yanıqlı-yanıqlı "Sarı gəlin"i oxuyurdu. Kamançanın yanıqlı sədaları altında adamın ürəyini titrədən səs aləmə yayılırdı.

Fiziki qüsuru olmaq dərd deyil. Orada gördüyümüz, söhbət etdiyimiz insanlar bizə həyat sevgisindən, qəlblərinin gözü ilə bu dünyaya baxdıqlarından danışdılar. Ən əsası isə sevməyi bacarmaqdır. Dövlətimiz onlara qayğı göstərdiyi kimi, onlar da bu vətəni sevməyi bacarırlar.

*Elşən QƏNİYEV,*
*İlham BABAYEV (foto),*
*"Azərbaycan"*

## İŞİMİZ, GÜZƏRANIMIZ

# Azərbaycanın enerji layihələri həm də gələcəyə hesablanır

## Bu strategiyanın təməlini Heydər Əliyev qoymuşdur



**Regionun və Avropanın enerji təhlükəsizliyində Azərbaycanın rolu getdikcə artır. Bu məsələnin gündəmdə önəmli yer tutduğu ADA Universitetinin təşkilatçılığı ilə Şuşada Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Böyük Avrasiya geosiyasətinin formalaşması: keçmişdən bu günə və gələcəyə" mövzusunda dördüncü beynəlxalq konfransın gedişində bir daha aydın göründü.**

Konfransın iştirakçıları haqlı olaraq qeyd etmişlər ki, Azərbaycan enerji təhlükəsizliyi sahəsində işlərini gələcəyi nəzərə alaraq tənzimləyir. Bu, Ümummilli Lider Heydər Əliyevdən üzübəri gələn bir ənənədir. Məsələn, Ulu Öndərin adını şərəflə daşıyan Bakı-Tbilisi-Ceyhan ( BTC) əsas ixrac neft kəməri bu gün Xəzərin Azərbaycan sektorundakı "Azəri-Çıraq-Günəşli" neftini və "Şahdəniz"dən hasil olunan kondensatı uğurla dünya bazarlarına nəql edir. Bundan əlavə, BTC-yə Xəzərin digər sektorlarından çıxarılan neft - Rusiya, Türkmənistan və Qazaxıstan nefti də vurulur. "Bakı-Tbilisi-Ceyhanın tutumu 50 milyon tondur. Yeri gəlmişkən, bu, heç vaxt belə olmayıb, bəlkə bir il buna yaxın olub. Lakin indi bizə Mərkəzi Asiyadan, Rusiyadan neft nəql olunur, bu mənbələrdən daha çox neft nəql olunacaq. Bizim "Şahdəniz"də kondensatımız var. Ümidvaram ki, bu il "Abşeron"dan və bir çox başqa yataqlardan kondensat hasil edəcəyik", - deyə Prezident İlham Əliyev bildirmişdir.

Qeyd edək ki, dövlətimizin başçısının ötən ay Qazaxıstana rəsmi səfəri zamanı enerji sahəsində əməkdaşlığın perspektivləri də geniş müzakirə olunub. Azərbaycanın boru kəməri infrastrukturu vasitəsilə Qazaxıstandan neftin nəqlinə başlanılması barədə razılıq əldə edilib. Proses artıq başlayıb. 1,5 milyon ton neftin təchizi və BTC ilə Aralıq dənizinin sahilinə nəqli üçün müqavilə imzalanıb. BTC vasitəsilə nəql edilən Qazaxıstan neftinin həcmini artırmaq üçün planlar da var. Ölkəmizin həmişə Xəzərin o tayında olan qonşularımızın öz ixracı üçün bizim infrastrukturdan istifadə etməsi ilə bağlı planlarını dəstəklədiyini diqqətə catdıran Prezident İlham Əliyev demişdir: "Uzun illər ərzində Türkmənistan nefti Azərbaycan ərazisindən Bakı-Tbilisi-Ceyhan neft boru kəməri ilə nəql olunur… Hətta Rusiya nefti, Rusiyanın Xəzər dənizində hasil etdiyi neftin bir qismi Azərbaycandan Ceyhana nəql olunur. Xatırladığım kimi, ildə təqribən 2 milyon tondan daha çox həcmdən söhbət gedir. Təqribən ildə 2,5 milyon tona yaxın rus nefti Ceyhana gedir… Beləliklə, bu gün biz Rusiyadan, Türkmənistandan, Qazaxıstandan olan neftin nəqli üçün tranzit ölkəsiyik. Neftin həcmi artarsa bu, bizi yalnız sevindirər".

Bu gün Azərbaycan həm də qaz hasil edən və onun ixracı üçün mükəmməl infrastruktura malik olan ölkə kimi qiqqət mərkəzindədir. Hazırda 6 ölkəyə - Gürcüstana, Türkiyəyə, Yunanıstana, Bolqarıstana, İtaliyaya, Rumıniyaya qaz ixrac edir. Yaxın zamanda onların sayı 10-a çatacaq. Lakin bu da son hədəf deyil.

"Konkret rəqəmlərə gəldikdə, anlaşma memorandumuna əsasən, biz 2027-ci il üçün qaz təchizatımızı iki dəfə artıracağıq. Bu, təqribən 20 milyard kubmetrdir. Hesab edirəm ki, bu, tamamilə realdır. Bu, real olmasaydı, biz onu imzalamazdıq. Hər hansı bir forsmajor baş verməsə, bu, tamamilə realdır. 2021-ci ildə bizim Avropa bazarına təchizatımız təqribən 8 milyard kubmetr idi. Bu il isə bu rəqəm 12 milyard kubmetr olacaq. Yəni iki ildə 8-dən 12-yə qalxıb və belə iri addımlarla irəliləsək, 2027-ci ildə 20 milyarda çata bilərik". Bunları deyərkən dövlətimizin başçısı ixracı artırmaq üçün potensialın olduğunu da vurğulamışdır: "Birincisi, biz "Şahdəniz" yatağından əlavə qaz gözləyirik. Təqribən dörd ildən sonra, bəlkə də daha tez biz "Şahdəniz" yatağının yeni fazasından əlavə qaz hasil edəcəyik. "Abşeron" yatağından bir neçə ildir ki, qaz gözləyirik və ümid edirəm ki, bu il buna nail olacağıq. İlk mərhələdə "Abşeron"dan 1,5 milyard kubmetr əldə edəcəyik, daha sonra isə ikinci mərhələnin nədən ibarət olacağına qərar verəcəyik - hansı bazara nəql edəcəyik, yerli yoxsa xarici? Sizi çox detallarla yormaq istəmirəm. Əlbəttə, "Azəri-Çıraq-Günəşli" yatağının böyük potensialı var və bp və SOCAR artıq o layihədə fəal çalışır. Bu, nəhəng qazkondensat yatağıdır və onun minimum ehtiyatı 300 milyard kubmetrdir. Əlbəttə, "Ümid" və" Babək" yataqlarının böyük potensialı var. Orada SOCAR özü fəaliyyət göstərir, ancaq biz xarici tərəfdaşlarla işləməyə hazırıq. "Qarabağ" neft yatağımız var və orada da potensial var. Beləliklə, qazın mənbəyi bunlardır".

Hərçənd ki, uzun illər bundan əvvəl "Azərbaycanın nefti yoxdur" deyənlər indi "Azərbaycanın qazı yoxdur" deyirlər. Əslində isə, ölkəmizin qaz ehtiyatları hələ bir əsr bundan sonra da özümüzü və bir sıra digər istehlakçıları mavi yanacaqla təmin etməyə yetər.

Lakin qazın nəqli üçün imkanlar olmalıdır. Zaman TAP-ın (Trans-Adriatik Qaz Boru Kəməri) genişləndirilməsini gündəmə gətirib. Onun səhmlərinin 20 faizi Azərbaycana məxsusdur, bir şirkətdən başqa, digərlərinin də iştirak payı bu qədərdir. Odur ki, kəmərin genişləndirilməsinə dair birgə qərar verilməlidir.

TANAP (Trans-Anadolu Qaz Boru Kəməri) da genişləndirilməlidir. Lakin burada iş bir qədər asandır. Çünki bu layihədə Azərbaycan, Türkiyə və bp iştirak edirlər. Bu məsələdən bəhs edərkən Prezidentimiz demişdir: " Trans-Balkan boru kəmərinə çıxışımız olmalıdır ki, bizim qazı gözləyən ölkələri təchiz edə bilək. Avropada interkonnektorlar vaxtında tikilsə, biz bu ilin sonunda Macarıstanı və Serbiyanı qazla təmin edə bilərik. Bu il artıq Rumıniyaya qazın nəqli başlayıb. Yunanıstan, İtaliya və Bolqarıstana qaz nəql edilir, Albaniyada qazpaylayıcı şəbəkənin yaradılması layihəsinə sərmayə qoyuluşuna dair danışıqlar aparılır. Çünki Albaniya tranzit ölkəsi olmasına baxmayaraq, qazpaylayıcı şəbəkəyə malik deyil. Biz həmin şəbəkənin yaradılmasına böyük sərmayə yatırmağı planlaşdırırıq. Mən bir neçə gün əvvəl Sofiyada idim və "Həmrəylik Halqası" layihəsinin başlanılması tədbirində iştirak etdim. Artıq Slovakiya da bu prosesə qoşulur... Bazar olarsa və interkonnektorlar tikilərsə, bizə hələ də müraciət edən ölkələr var. Balkanlarda və Avropanın digər regionlarında adını çəkmədiyim ölkələr var ki, onlar da Azərbaycan qazını ala bilərlər".

Bütün bunlar bərpaolunan enerji layihələrinin də uğurlu olacağından xəbər verir. Azərbaycanda 25 qiqavat günəş və külək enerjisi istehsal olunması ilə bağlı artıq beynəlxalq şirkətlərlə müqavilələr və anlaşma memorandumları imzalanıb. Bu anlaşma memorandumları faktiki olaraq müqavilə deməkdir.

Bərpaolunan enerjinin nəqli üçün Qara dənizin dibi ilə çəkiləcək kabeldən bəhs edərkən isə dövlətimizin başçısı demişdir: "Bilirsiniz ki, layihənin texniki-iqtisadi əsaslandırılması bir müddət əvvəl başlayıb. Bununla belə, biz dörd ölkədən ibarət daha geniş format yaratmışıq - Azərbaycan, Gürcüstan, Macarıstan və Rumıniya. Həmin layihənin Məşvərət Şurasının ilk iclası fevralda Bakıda, ikinci toplantısı isə bu yaxınlarda - ötən ay Tbilisidə keçirilib. Biz bu layihəyə daha böyük perspektivdən baxırıq və onu sadəcə "Qara dəniz kabeli" kimi deyil, Xəzərdəki külək enerjisi stansiyalarından Avropaya enerjini ötürən vasitə kimi qəbul edirik".

Prezident İlham Əliyev Avropanın layihəyə qoşulmaq istəyən bir sıra digər ölkələrindən mesajlar alındığını, layihənin qlobal xarakter ala biləcəyini də qeyd edib. Həmçinin gələcəyin böyük üfüqlərinin göründüyünü, tərəfdaşlarımızla, dostlarımızla hər zaman birlikdə olacağımızı bildirib.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# DOST-ların sayı artır

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində keçirilən kollegiya iclasında bölgələrdə DOST xidmətləri şəbəkəsinin yaradılması, vətəndaşların qəbulu, müraciətlərinə baxılması və digər istiqamətlərdə görülən işlər, qarşıda duran vəzifələr müzakirə olunub.**

DOST
DAYANIQLI VƏ OPERATİV SOSİAL TƏMİNAT AGENTLİYİ

Bildirilib ki, hazırda Naxçıvan, Bərdə, Şuşa, Quba, Sabirabad, Sumqayıt, Gəncə, Masallıda da DOST mərkəzlərinin açılması üçün işlər davam etdirilir. Nazir Sahil Babayev Prezident İlham Əliyevin uğurlu sosial islahatlar proqramının nailiyyətlərindən biri kimi, 2019-cu ilin may ayında DOST Agentliyi və bundan sonra 6 DOST mərkəzi açıldığını, ötən dövrdə bu mərkəzlərdə 1,5 milyon vətəndaşa xidmət göstərildiyini qeyd edib.

Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü olan DOST mərkəzlərində sosial sahələr üzrə 154 xidmətin "bir pəncərə"dən, operativ və şəffaf, müasir əsasda təqdim edildiyi, bu xidmətlərdən vətəndaş məmnunluğunun 98,5 faiz olduğu bildirilib. DOST təcrübəsinin bu gün dünyanın qabaqcıl təcrübələrindən biri kimi qəbul olunaraq 9 beynəlxalq mükafatla təltif edildiyi, hazırda bir çox ölkənin bu təcrübəni tətbiq etməyə maraq göstərdiyi vurğulanıb.

Qeyd olunub ki, işğaldan azad edilmiş bölgələrimizin DOST xidmətləri ilə əhatə olunması istiqamətində ilk addım kimi ötən ilin may ayında Zəngilan rayonunun Ağalı kəndində ilk "Smart DOST" xidmət məntəqəsi açılıb. Böyük Qayıdışa dair I Dövlət Proqramının Tədbirlər Planına əsasən, 2023-2026-cı illərdə Cəbrayıl, Ağdam, Füzuli, Zəngilan, Qubadlı, Kəlbəcər, Laçın, Şuşada DOST xidmətləri infrastrukturu qurulacaq.

İclasda nazirlik və qurumları tərəfindən bu ilin birinci rübündə 516 133 vətəndaşın qəbul edildiyi, onlardan 30 683-nün nazirliyin aparatının, qurumlarının, yerli bölmələrin rəhbər şəxsləri tərəfindən, digərlərinin nazirliyin aparatının və qurumlarının, yerli bölmələrin qəbul otaqlarında və DOST mərkəzlərində qəbul edildiyi diqqətə çatdırılıb. Həmin dövrdə yazılı və e-qaydada 108 704, habelə 142 Çağrı Mərkəzi vasitəsilə 438 718, sosial şəbəkələr üzərindən 35 068 vətəndaş müraciətinin cavablandırıldığı qeyd olunub.

İclasda bölgələrdə DOST xidmətləri şəbəkəsi yaradılması, vətəndaşların qəbulu, müraciətlərinə baxılması, daxili nəzarət və audit, dövlət qulluğu, kadr məsələləri, digər sahələrdə görülən işlər və qarşıda duran vəzifələr müzakirə olunub.

Nazirlik tərəfindən göstərilən xidmətlərin hazırlanmış pasportlarına da baxılaraq Kollegiya tərəfindən təsdiqlənməsi, bir sıra Vahid Tarif-İxtisas Sorğu kitabçalarına dəyişiklik edilməsi qərara alınıb.

# Qeyri-neft sektorunun inkişafı ilk növbədə aqrar sahəyə modern yanaşmadan keçir




**Azərbaycanda regionların sosial-iqtisadi inkişafının təmin olunması dövlət tərəfindən əsas prioritet məsələlərdən biri kimi müəyyən edilib. Təsadüfi deyil ki, Prezident İlham Əliyev regionların inkişafı məsələsini hər zaman diqqət mərkəzində saxlayır. Ölkədə hər kəs bilir ki, bu, dövlət başçısının siyasətində əsas hədəflərdən biridir. Əsas məqsədsə paytaxtımızla yanaşı, bölgələrimizin də hərtərəfli inkişafının təmin edilməsidir.**

Bu yaxınlarda Prezident Salyanda olarkən Azəbaycan Televiziyasina verdiyi müsahibəsində demişdir: "Mən Azərbaycanın bölgələrinə tez-tez səfərlər edirəm. Bildiyiniz kimi, 2004-cü ildən başlayaraq Azərbaycanda regionların sosial-iqtisadi inkişafı dövlət proqramları həyata keçirilir. Hazırda 4-cü proqram icra edilir. Bu proqramların icrası nəticəsində bölgələrdə çox böyük genişmiqyaslı quruculuq işləri aparılmışdır. Bu işlər davam etdirilir. Mənim də bölgələrə səfərlərim həm nəzarət üçün bir vasitədir, yəni verdiyim tapşırıqlar necə yerinə yetirilir, eyni zamanda növbəti tapşırıqlar, tövsiyələr verilir ki, bizim bəyan etdiyimiz bütün hədəflər ilk növbədə, insanların rifah halının yaxşılaşdırılması, infrastruktur obyektlərinin yaradılması, o cümlədən sosial infrastrukturla bağlı işlərin aparılması bölgələrdə təmin edilsin. Bir sözlə, Azərbaycan bölgələrinin ümumi inkişafı həm sosial xarakter daşıyır, eyni zamanda ölkəmizi gücləndirir".

20 ilə yaxındır ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkə iqtisadiyyatının bütün sahələri dinamik inkişaf edir. Ölkədə aparılan iqtisadi islahatlar nəticəsində qeyri-neft sektoru mövqeyini möhkəmləndirir. Xüsusilə aqrar sektorda aparılan islahatlar bölgələrimizin iqtisadi inkişafında böyük rol oynayır. Abadlıq-quruculuq işlərində də davamlı olaraq yüksək dinamika müşahidə edilir. Həmin işlərin sayəsində bölgələrin siması xeyli dəyişib. Hətta bəzi kiçik rayon mərkəzləri statusunu dəyişərək şəhər adı alıb. Yaxşı hal odur ki, tikinti-quruculuq işləri təkcə rayon mərkəzlərində deyil, kəndlərdə, hətta kiçik yaşayış məntəqələrində də aparılır.

Məlumdur ki, regionlarda yaşayan əhalinin sosial vəziyyəti birbaşa kənd təsərrüfatının inkişafına bağlıdır. Sirr deyil ki, illər öncə bu sahədə vəziyyət heç də ürəkaçan deyildi. Xüsusilə keçid dövrünün ilk illərində kənddə yaşamaq çox çətin idi, əhali evlərini tərk edib iş dalınca iri şəhərlərə gedirdi. Kənd təsərrüfatı bərbad vəziyyətə düşmüşdü, istehsal göstəriciləri az qala sıfıra enmişdi.

Regional inkişaf proqramlarının icrası nəticəsində tədricən bütün bunlar arxada qaldı. Kənd təsərrüfatının inkişafı istiqamətində görülən işlər nəticə verməyə başladı. Dövlət aqrar sektora investisiyalar qoydu və bunu ilbəil artırmağa başladı. Fermerlərə yeni və müasir texnikalar alındı, aqroxidmət sahələri yaradıldı, güzəştli şərtlərlə gübrə, yanacaq, lizinqlər verildi. Nəticədə məhsul istehsalı xeyli dərəcədə artdı ki, bu da yeni emal müəssisələrinin yaradılmasını şərtləndirdi. Elə bu günlər Salyanda və Neftçalada Prezidentin iştirakı ilə istifadəyə verilən obyektlər, xidmət sahələri də çox böyük işlərin görülməsindən xəbər verir.

Lakin kənd təsərrüfatının çəkisi dünyanın hər yerində bərabər vəziyyətdə deyildir. Hər ölkənin özünəməxsus istehsal sahələri var. Azərbaycanda kənd təsərrüfatı neftdən və tikinti sahəsindən sonra üçüncü ən iri sahədir. Ona görə də regionlarda əhalinin iş yerləri ilə təmin olunması, kənd təsərrüfatının ön plana çıxarılması təkcə yerli əhalinin dolanışığı üçün deyil, bütövlükdə dövlətin ərzaqa olan daxili tələbatının ödənilməsi deməkdir. Bütün bunların həlli kənd təsərrüfatının inkişafını modernləşdirməkdən və aqrar sektorda mövcud problemlərin həllinə kompleks yanaşmadan keçir ki, bu da regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarının yerinə yetirilməsi üçün bir tramplindir. Modern yanaşma rayonlardakı digər strukturlarla birgə fəaliyyət nəticəsində daha yaxşı nəticə verə bilər. Çünki oradakı müasir xidmət sahələri iqtisadiyyatın güclənməsinə təkan verir ki, bu da kənd əhalisinin paytaxta axınının qarşısını alır, ölkənin gücünə güc qatır. Bunu Prezident Salyanda Azərbaycan Televiziyasına verdiyi müsahibəsində də təsdiq etdi: "Ölkəmiz dinamik şəkildə inkişaf edir, sosial siyasət uğurla icra olunur. Eyni zamanda infrastruktur layihələri - bu gün yolun açılışında iştirak etmişəm və iqtisadiyyatın real sektoru, o cümlədən iş yerləri ilə bağlı olan təşəbbüslərimiz, sənayeləşmə ilə bağlı olan təşəbbüslərimiz, ixracyönümlü məhsulların istehsalı ilə bağlı təşəbbüslərimiz, bütün bunlar yerinə yetirilir və bir daha ölkəmizin gücünü göstərir".

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***

## bp birinci rübün hesabatını açıqlayıb

**Bu ilin birinci rübündə "Azəri-Çıraq-Günəşli" (AÇG) üzrə fəaliyyətlərə təqribən 115 milyon dollar əməliyyat məsrəfləri və 372 milyon dollar əsaslı məsrəflər xərclənib.**

BP-nin cari ilin birinci rübünün yekunarına aid hesabatında bildirilir ki, rüb ərzində "Azəri-Mərkəzi-Şərqi" (ACE) platformasının dayaq bloku tikildiyi Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodundan dənizə yola salınıb və AÇG yatağı sahəsində suyun 137 metr dərinliyində daimi yerinə quraşdırılıb. Artıq platformanın üst modullarını qəbul etməyə hazırdır.

Dayaq blokunun sualtı konstruksiyalarının və qovşaqlarının quraşdırılması işləri hazırda 94 faiz tamamlanıb.

ACE platformasının üst modullarının və qazma avadanlıqlarının istehsal-quraşdırma işləri Bibiheybətdəki tikinti sahəsində davam edib. Hazırda tikinti işlərinin və sahə istismar sınaqlarının son mərhələsi həyata keçirilir və bu işlərin cari ilin ikinci rübündə başa çatacağı gözlənilir.

Bütün istismar sınaqları qurtardıqdan sonra üst modullar STB-1 daşıma barjına yüklənəcək, dənizə göndəriləcək və AÇG yatağı sahəsində artıq öz yerində olan dayaq blokunun üzərinə quraşdırılacaq.

Birinci rübdə həmçinin sualtı izolyasiya konstruksiyası işə salınıb və boruların üst modullarda izolyasiyası işləri tamamlanıb. Dalğıc gəmisi mövcud 30 düymlük qovşağın birləşdirilməsini başa çatdırıb, "Sitadel" gəmisi isə izolyasiya konstruksiyasının istiqamətinin dəyişdirilməsinə başlayıb.

"Mərkəzi Azəri" platformasında ACE üçün nəzərdə tutulmuş telekommunikasiyaların modifikasiyası üzrə dənizdə tikinti işlərinə başlanılıb.

# Ulu Öndər Heydər Əliyevin 100 illiyinə həsr edilən "Bizimlə böyüyən ağac" layihəsinin təqdimatı olub









**Ulu Öndər Heydər Əliyevin 100 illiyi münasibətilə onun adını daşıyan Müasir Təhsil Kompleksində "Bizimlə böyüyən ağac" layihəsinin təqdimat mərasimi keçirilib.**

Ulu Öndər Heydər Əliyevin irsinin gənc nəslə aşılanmasına və ətraf mühitin mühafizəsinə xidmət edən layihə "Təmiz Şəhər" ASC-nin təşkilatçılığı, Heydər Əliyev adına Müasir Təhsil Kompleksinin və "Yaşıl Azərbaycan" platformasının dəstəyi ilə həyata keçirilir. Məktəblilərin cəlb olunacağı layihə çərçivəsində hər bir sinfə ağac tingləri paylanacaq və təşkilatçıların iştirakı ilə təhsil müəssisələrinin həyətyanı sahəsində əkiləcək ağaclara qulluq şagirdlərə həvalə olunacaq.

Müasir Təhsil Kompleksinin direktoru Aygün Mikayılova layihənin bu məktəbdən başlanmasının heç də təsadüfi olmadığını bildirərək təhsil müəssisəsinin Ulu Öndərin adını daşıdığını və açılışında şəxsən iştirak etdiyini xatırladıb. Görkəmli dövlət xadimi Heydər Əliyevin yaşıllıq zolaqlarının artırılmasına və mühafiizəsinə böyük önəm verdiyini bir daha şagirdlərin diqqətinə çatdırıb. Bu layihənin şagirdlər tərəfindən böyük maraqla qarşılandığını, əkilən ağaclara diqqət və qayğı ilə yanaşacaqlarını bildirib.

Ulu Öndər Heydər Əliyevin doğum günü ərəfəsində başlayan layihənin "Heydər Əliyev İli" çərçivəsində davam etdiriləcəyini bildirən "Təmiz Şəhər" ASC-nin İdarə Heyətinin sədri Etibar Abbasov Elm və Təhsil Nazirliyinin dəstəyi ilə gələcəkdə daha çox məktəbin bu layihəyə qoşulacağına inandığını bildirib. Ağac əkməklə işin bitmədiyini, ona qulluq etməyin vacibliyini qeyd edən Etibar Abbasov məktəblilərin birgə fəaliyyətinin uğurlu nəticə verəcəyini vurğulayıb. O da əlavə edilib ki, "Təmiz Şəhər" ASC-nin fəaliyyəti işğaldan azad olunan əraziləri əhatə etdiyi üçün qarşıdakı dövrdə yeni tikilən məktəblərin həyətyanı sahələrində bu layihənin davam etdirilməsi nəzərdə tutulur.

"Yaşıl Azərbaycan" platformasının rəhbəri Elnur İslamov bu tipli fəaliyyətlərin ölkəmizin ekoloji mühitinin yaxşılaşmasına və şagirdlərin təbiətə sevgi ilə yanaşmasına xidmət etdiyini dilə gətirib.

Tədbirin sonunda Müasir Təhsil Kompleksinin həyətində şagirdlərin iştirakı ilə Bakı şəhərinin təbii şəraitinə uyğun ağaclar əkilib və hər bir ağaca qulluq müəyyən edilmiş siniflərə həvalə olunub.


## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti balansında olan "Professor Gül", "Merkuri-1" və "Şəki" gəmilərinin MAN 6K45GFCA baş mühərriklərinin ehtiyat hissələrinin satın alınması məqsədilə

***müsabiqə elan edir***

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 23 may 2023-cü il Bakı vaxtı ilə saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Mikayıl Useynov küçəsi, 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1071.**

***Tender komissiyası***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC gəmiləri üçün radionaviqasiya avadanlıqlarının satın alınması məqsədilə açıq

***müsabiqə elan edir***

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 11 may 2023-cü il saat 17:00-dəkdir.

**Ünvan: AZ1003, Bakı şəhəri, M.Useynov küçəsi, 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili:1016.**

***Tender komissiyası***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC gəmiləri üçün kompressorların satın alınması məqsədilə açıq

***müsabiqə elan edir***

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 11 may 2023-cü il saat 17:00-dəkdir.

**Ünvan: AZ1003, Bakı şəhəri, M.Useynov küçəsi, 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili:1016.**

***Tender komissiyası***

## OXUCULARIN NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

*abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |


RƏSMİ DÖVLƏT QƏZETİ
AZƏRBAYCAN
№ 91 (9258) 4 MAY 2023-cü il CÜMƏ AXŞAMI
AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI
QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR
Azərbaycanın qələbəsi tarixi ədalətin və beynəlxalq hüququn Zəfəridir
Heydər Əliyev İli
Heydər Əliyevin dövlətçilik fəaliyyəti qətiyyət, aşkarlıq və kollegiallıq nümunəsidir
Dövlətlərarası münasibətlərimizin inkişaf səviyyəsi məmnunluq doğurur
Polşa Respublikasının Prezidenti zati-aliləri cənab Andjey Duda
Ağdamda qayıdışa sürətli hazırlıq gedir
Möhtəşəm quruculuq meydanı
Vaşinqton danışıqları nə vəd edir
Çiyid səpini sürət götürür
azerbaijan-news.az

**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*


# Polislə mitinq iştirakçıları toqquşdu

## Kütləvi etirazlar İrəvanı yenidən xaosa sürükləyir

**İrəvanda baş nazir Nikol Paşinyanın əleyhinə keçirilən etirazlar artmaqdadır. Növbəti belə aksiyanı İkinci Qarabağ müharibəsi iştirakçılarının yaxınları Nazirlər Kabinetinin qarşısında keçiriblər.**






Onlar baş nazir Nikol Paşinyanın xarici siyasət kursunun əleyhinə şüarlar səsləndiriblər. Aksiya keçirilən əraziyə polis qüvvələri cəlb olunub. Polislə mitinq iştirakçıları arasında toqquşma olub.

Kütləvi həbslərə baxmayaraq, aksiyalar fonunda ölkədəki vəziyyət daha da dramatikləşir. Bu məqamda Hayastan mətbuatı və jurnalistlər hakimiyyətin sinfi düşməninə çevrilir. Hayastan Jurnalistlər Birliyinin yaydığı bəyanatda bildirilib ki, jurnalistlər iqtidardakı hakimiyyətin və nəticədə dövlət sisteminin hədəfinə çevrildiyindən bəlkə də ən həssas peşəkar sahədir.

Hayastanda yalnız sözdə mövcud olan "formal" demokratiya və məzmunca real avtoritarizm şəraitində mətbuat ölkədə demokratik hüquqların pozulmasına, gedən proseslərə qarşı mübarizə aparan unikal qurumdur. Qeyd olunub ki, mətbuat və jurnalistlər hakimiyyətin sinfi düşməninə çevriliblər. Çünki onların peşəkar fəaliyyəti hakimiyyətin korrupsiyasının qarşısını alır. Bunu hakimiyyət və dövlət idarəçiliyinin müxtəlif nümayəndələrinin müstəqil mətbuata açıq-aşkar yönəlmiş müxtəlif böhtan xarakterli bəyanatları da sübut edir. Bildirilib ki, hakimiyyətin bu addımları, əslində, mətbuata qarşı, hakimiyyətin antidemokratik davranışını cilovlayan jurnalistlərin fəaliyyətinə qarşı yönəlib. Müvafiq olaraq, geniş mənada söz azadlığının, mətbuat azadlığının müdafiəsi, əslində, həm də Ermənistanda demokratiyanın, insan haqlarının və əsas azadlıqların müdafiəsidir, bunsuz demokratik dəyərlərin təhrif edilməsi geriyə dönüş nöqtəsini keçə bilər.

Görünən odur ki, ölkədə bütün sferalarda yaranan böhranlı vəziyyət insanları hakimiyyət barədə daha pessimist düşünməyə vadar edir. Çıxılmaz duruma düşməyin yaratdığı duyğular, Hayastanın perspektivinə inanmamaq artıq dayanıqlı şəkil alır. Bu da insanların davranışına və əhvali-ruhiyyəsinə təsir edir. Böhran Hayastanda həyatın bütün sahələrini ağuşuna alıb. Yalnız iqtisadi sferada baş verənlər vəziyyətin nə qədər acınacaqlı olduğunu göstərir.

Artıq iqtisadçılar dövlət borcunun həddən çox olması barədə həyəcan təbili çalırlar. Hayastanın keçmiş sənaye və ticarət naziri Karen Çşmarityan bildirib ki, problem İrəvanın ümumi iqtisadi siyasəti ilə bağlıdır. "Əgər mövcud iqtisadi geriləmə tempi daha 2 ay belə davam etsə, bundan sonra nə olacağını söyləmək çətindir. Bütün bunların necə bərpa edilə biləcəyini düşünmək qəliz məsələ olacaq. Bu gün milli, dövlət maraqlarımız təhlükə altındadırsa, hansı milli iqtisadiyyatdan danışa bilərik?", - deyə o sual edib.

Bütövlükdə bütün bunlar Hayastanın böyük tənəzzül yaşadığını göstərir. Görünən budur ki, sülh müqaviləsinin imzalanmasının uzadılması fonunda İrəvan üzləşdiyi problemlərdən hələ uzun müddət xilas ola bilməyəcək.

***Elçin CƏFƏROV, "Azərbaycan"***

# Əksər rayonlarda hava əsasən yağmursuz olacaq

**Azərbaycanda mayın 5-nə gözlənilən hava proqnozu açıqlanıb.**

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gündüz bəzi yerlərdə qısamüddətli yağış yağacağı ehtimalı var. Mülayim cənub küləyi əsəcək, gündüz şimal-qərb küləyi ilə əvəzlənəcək. Havanın temperaturu gecə 10-14°, gündüz 17-22° isti olacaq. Atmosfer təzyiqi 765 millimetr civə sütunundan 762 millimetr civə sütununa enəcək. Nisbi rütubət 65-75 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli yağıntılı olacağı ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 8-12°, gündüz 20-25° isti, dağlarda gecə 2° şaxtadan 3°-dək isti, gündüz 5-10°, bəzi yerlərdə 15° isti olacağı ehtimal edilir.

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik İsa Həbibbəyli Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin rektoru Mustafa Babanlıya atası

**BABA BABANLININ**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin rəhbərliyi və aparat işçiləri Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin rektoru, professor Mustafa Babanlıya atası

**BABA BABANLININ**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Dövlət Gömrük Komitəsinin Akademiyasının rəisi Qulu Novruzov və akademiyanın kollektivi Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin rektoru Mustafa Babanlıya atası

**BABA BABANLININ**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 5807
Sifariş 1070

Qiyməti 40 qəpik